www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 27-28 may 2017-ci il Şənbə № 113 (6727) Qiyməti 60 qəpik

## Xəbər

**4-cü kurs tələbəsi 2 abituriyentin əvəzinə imtahan verib - ilginc detallar**

yazısı səh.2-də

## Gündəm

**AXCP sədrinin xanım müavininə cinayət işi açıldı**



Gözəl Bayramlı qaçaqmalçılıqda suçlanaraq həbs edildi

yazısı səh.2-də

**İqtisadi böhranı adladıqmı...**

yazısı səh.3-də

**İxtisara düşəcək məmurlar müqavimət göstərə bilər**

yazısı səh.6-da

**Fuad Əlişovla Aysel Əlizadənin layihəsi - Film kimi...**

yazısı səh.4-də

**Tarixin ən yaddaqalan birinci lediləri...**

yazısı səh.7-də

**Lapşinin istintaqı yekunlaşdı - məhkəmə prosesi başlayır**

yazısı səh.10-da

**Mingəçevirdə 3-cü mərtəbədən düşən üç yaşlı uşaq sağ qalıb**

yazısı səh.14-də

**Azərbaycan da Rusiyanın "oduna yanır" - neftin bahalaşması gözlənilmir**

yazısı səh.10-da

**Elçibəy komandasının pərən-pərən düşmüş üzvləri -kim haradadır...**

yazısı səh.12-də

**Ramazan ayı başladı, kimlər oruc tuta bilməz?**

yazısı səh.13-də

### Ramazan ayının 1-ci günü

İftar 20.17. İmsaq 03.19-dək (QMİ)

1-ci günün duası: "İlahi, bu gün mənim orucumu həqiqi oruc tutanların orucundan və durub Sənə ibadət eləməyimi həqiqi ibadət edənlərin ibadətindən hesab et. Və bugünkü gündə məni qəflətdə yatanların yuxusundan oyat. Günahlarımı bağışla, ey aləmlərin Allahı və günahkarları əfv Edən".

İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!

## "Heç bir avantüraya getməyəcəyik"

# PREZİDENTDƏN SENSASİON BƏYANATLAR - MESAJ ÜNVANINA ÇATDI

İran ətrafında yeni oyunların başlaması, Rusiyanın isə Qərblə münasibətlərində gərginliyin artdığı bir vaxtda "Azərbaycan hansı mövqe tutacaq" sualına İlham Əliyev qəti cavab verdi; dövlət başçısının ABŞ prezidenti Trampın adını çəkərək "başqa ölkələrin daxili işlərinə qarışmaq tendensiyası azalmağa başlayır" deməsinin arxasındakı səbəb...



yazısı səh.5-də

## BMT qətnamələri Azərbaycan əsgərinə tapşırılır!

"Yeni müharibəyə bir addım qaldı"; ABŞ-ın SSRİ-dəki sabiq səfiri: "Vəzirov o vaxt mənə dedi ki..."; erməni politoloqlardan SOS kimi etiraflar: "Vəziyyətimiz gündən-günə pisləşir", "Azərbaycanın Qarabağ üzərində hüququ qaldıqca, heç nə edə bilməyəcəyik..."

yazısı səh.9-da



*Cəsarət Valehov:*

**"Qiymətləndirmədə kifayət qədər zəif nəticə göstərən müəllimlər məktəblərdən ixtisar olunacaq"**

yazısı səh.3-də



**Pənah Hüseyn "İbrahimbəyov-2" ssenarisindən danışdı**

yazısı səh.6-da



**"Bir neçə dəqiqəyə Xocalıdakı aeroportu məhv etməyə qadirik" - General Yaşar Aydəmirov**

yazısı səh.8-də



# "Nə bu il, nə gələn il ölkə iqtisadiyyatı üçün heç bir problem görmürəm" - prezident İlham Əliyev

**"Azərbaycanda bugünkü maliyyə və iqtisadi vəziyyət sabitdir, dayanıqlıdır. Bütün büdcə proqnozları yerinə yetirilir. Mən nə bu il, nə gələn il ölkə iqtisadiyyatı üçün heç bir problem görmürəm. Xüsusilə nəzərə alsaq ki, bizim valyuta ehtiyatlarımız da artır, bu il də artıb. Valyuta ehtiyatlarımız xarici borcdan 4-5 dəfə çoxdur. Ona görə istənilən ölkə, bax, bu vəziyyəti özü üçün arzulaya bilər".**

APA-nın məlumatına görə, bunu Azərbaycan prezidenti İlham Əliyev Azərbaycanın milli bayramı - Respublika günü münasibətilə keçirilən rəsmi qəbulda deyib.

"Əlbəttə, bütün planlarımızı həyata keçirmək üçün biz güclü iqtisadiyyata malik olmalıyıq. Bu istiqamətdə də çox böyük addımlar atılır. Azərbaycan iqtisadiyyatı rəqabətqabiliyyətliliyinə görə dünyada 37-ci yerdədir. Baxmayaraq ki, beynəlxalq maliyyə böhranı bizə də təsir etdi. Baxmayaraq ki, neftin qiymətinin aşağı düşməsi təbii ki, gəlirlərimizə mənfi təsir etdi. Artıq Azərbaycan iqtisadiyyatı mövcud vəziyyətə adaptasiya olundu, milli valyutamız sabitləşdi, qeyri-neft ixracımız artır. Dörd ayın iqtisadi göstəriciləri çox müsbətdir. Bizim valyuta ehtiyatlarımız, ticarət dövriyyəsi artıb. Ticarət dövriyyəsində müsbət saldo 1,2 milyard dollara çatıbdır. Ticarət dövriyyəsi 11 faiz, ixrac 41 faiz, qeyri-neft ixracı 22 faiz, kənd təsərrüfatı ixracı 44 faiz artıb", - deyə o vurğulayıb.

# 4-cü kurs tələbəsi 2 abituriyentin əvəzinə imtahan verib - ilginc detallar

**Azərbaycanda IV kurs tələbəsi 2 abituriyentin əvəzinə qəbul imtahanında iştirak edib.**

APA-nın xəbərinə görə, Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə AzTV-də yayımlanan "Günün nəbzi" proqramında bildirib ki, bəzi valideynlər övladlarının qəbul imtahanlarında yüksək nəticə göstərməsi üçün müəyyən yollar axtarırlar. Onun sözlərinə görə, bu il keçirilən qəbul imtahanlarında IV kurs tələbəsinin abituriyentin əvəzinə imtahan vermək istədiyi aşkarlanıb.

**M.Abbaszadə qeyd edib ki, həmin şəxsin ötən il bu il əvəzinə imtahan verdiyi abituriyentin kiçik qardaşının da əvəzinə imtahan verdiyi müəyyən edilib:** "Valideyn həmin tələbəni bu il də taparaq digər övladının əvəzinə qəbul imtahanına göndərib. Həmin şəxs bu valideynin övladlarına üzdən çox oxşayır. İkinci dəfə qəbul imtahanında artıq bu şəxs tutulub və onun kimliyi müəyyən olunub. IV kurs tələbəsi ali məktəbdən xaric olunacaq, ötən il əvəzinə qəbul imtahanı verərək ali məktəbə qəbul olan şəxs barəsində də müvafiq tədbirlər görüləcək".

**Direktorlar Şurasının sədri əlavə edib ki, belə halları aradan qaldırmaq üçün ilk növbədə valideynlər bu məsələlərə məsuliyyətli yanaşmalıdırlar:** "İmtahana gedən abituriyentə ailə üzvləri yalnız bir sual verməlidirlər: "Lazım olan sənədləri götürmüsənmi?"

**M.Abbaszadə qeyd edib ki, bəzən abituriyentlər lazımi sənədləri evdə qoyur, telefonu isə imtahana keçirməyə çalışırlar:** "Belə hallarda onların imtahan nəticələri pis olacaq. Bizə müəyyən iradlar tuturlar ki, buraxılış rejimi çətin keçir, imtahandan 2 saat öncə binalara çağırırsınız. İmtahana gələnlər bədənlərində nəsə gizlətməyə, imtahana keçirməyə cəhd etməsə, hamı qanun-qaydaya riayət etsə, buraxılış rejimini çox sakit və qısa müddətdə keçirmək mümkün olar. Amma araşdırmalar hamıya təsir edir və buraxılış rejimində müəyyən çətinliklər yaradır. Bir daha hamıdan xahiş edirəm ki, imtahana gələndə yalnız öz biliklərinə güvənsinlər. Onları əmin edirəm ki, belə olduğu halda bilik səviyyələri düzgün qiymətləndiriləcək və layiq olduqları nəticə elan olunacaq".

"Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# "Azərbaycan Xalq Cümhuriyyəti tariximizin şərəf səhifəsidir" - Yaqub Mahmudov



**"Azərbaycan müharibə şəraitində olmasına baxmayaraq, Cənubi Qafqazda lider dövlətdir". Musavat.com-a verilən məlumata görə, bunu Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Tarix İnstitutunun direktoru, Milli Məclisin deputatı, akademik Yaqub Mahmudov 28 may -Respublika gününə həsr olunmuş "Azərbaycanın dövlət müstəqilliyi əbədidir, dönməzdir" adlı konfransda deyib.**

Akademik Yaqub Mahmudov bildirib ki, Azərbaycan xalqı imperiya yaradan, qonşu xalqları idarə edən xalq olub: "Azərbaycanın 5 min illik dövlətçilik tarixi var".

**İnstitut direktoru qeyd edib ki, türkçülüyün vətəni Azərbaycandır:** "Türkçülüyün banisi deyildikdə Əli bəy Hüseynzadənin adı birinci yazılmalıdır. İlk dəfə üçrəngli bayraq ideyası da məhz Azərbaycanda doğulub. Əli bəy Hüseynzadənin "Türkləşmək, islamlaşmaq, müasirləşmək" düsturu məhz Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət bayrağının rənglərində öz əksini tapıb".

**"Azərbaycan Xalq Cümhuriyyəti tariximizin şərəf səhifəsidir. Tarixi şəxsiyyətlərimizi, o cümlədən Cümhuriyyət xadimlərini qarşı-qarşıya qoymaq düzgün deyil, onları xalqımıza olduğu kimi, doğru-düzgün təqdim etmək lazımdır", - deyə tarixçi-alim Yaqub Mahmudov bildirib.**

Akademik qeyd edib ki, 28 may Şərqin və türk dünyasının tarixində çox böyük gündür: "Dünyanın, Şərqin və türk dünyasının ən demokratik respublikasını Azərbaycan xalqı yaradıb. Bütün Şərq üçün biz nümunə göstərdik. Azərbaycandan 5 il sonra Türkiyə də cümhuriyyət yaratdı".

Konfransda Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı İlqar Abbasov, Milli Məclisin deputatı Ağacan Abıyev və başqaları çıxış ediblər.

Qeyd edək ki, "Azərbaycanın dövlət müstəqilliyi əbədidir, dönməzdir" adlı konfrans 4 qurumun - Suraxanı rayonu Heydər Əliyev Mərkəzinin, AMEA-nın Tarix İnstitutunun, Suraxanı Rayon İcra Hakimiyyətinin və Yeni Azərbaycan Partiyası (YAP) Suraxanı rayon təşkilatının birgə təşkilatçılığı ilə keçirilib.

❑ Musavat.com

# AXCP sədrinin xanım müavininə cinayət işi açıldı

## Gözəl Bayramlı qaçaqmalçılıqda suçlanaraq həbs edildi



**AXCP sədrinin müavini, Milli Şuranın Koordinasiya Mərkəzinin üzvü Gözəl Bayramlı mayın 25-də Gürcüstandan geri dönərkən Qazax Gömrük Məntəqəsində saxlanılıb. AXCP sədrinin müavini barəsində cinayət işi açılıb. O, Cinayət Məcəlləsinin 206.1-ci (qaçaqmalçılıq) maddəsi ilə ittiham olunur.**

Dövlət Sərhəd Xidməti (DSX) G.Bayramlının saxlanılması haqqında məlumat yayıb.

DSX-nin mətbuat mərkəzindən APA-ya verilən məlumatda bildirilir ki, 25 may 2017-ci il tarixdə saat 22:00 radələrində Azərbaycan Respublikasının vətəndaşı Bayramova Gözəl Oruc qızı Gürcüstandan Azərbaycan ərazisinə keçərkən Qazax rayonunun Şıxlı sərhəd nəzarət buraxılış məntəqəsində Dövlət Gömrük Komitəsinin əməkdaşları ilə birgə keçirilmiş tədbirlər nəticəsində saxlanılıb.

"Gözəl Bayramova özünü şübhəli apardığına görə əl yükünə baxış keçirilərkən bəyan edilməmiş 12 min ABŞ dolları məbləğində pul vəsaiti aşkar olunaraq götürülüb.

Faktla bağlı Dövlət Sərhəd Xidmətinin İstintaq və Təhqiqat İdarəsində Cinayət Məcəlləsinin 206.1-ci (qaçaqmalçılıq) maddəsi ilə cinayət işi başlanıb.

İlkin araşdırmalarla Gözəl Bayramovanın 24 may 2017-ci il tarixdə Azərbaycandan Gürcüstana gedərkən üzərində bəyan edilməli olan nağd pul vəsaiti olması müəyyən edilməyib.

Hazırda cinayət işi üzrə zəruri istintaq tədbirləri davam etdirilir", - deyə məlumatda bildirilib.

G.Bayramlının vəkili Elçin Sadıqov əvvəlcə onun Şəmkirdə olduğunu və mayın 26-da saat 15:00 radələrində DSK əməkdaşlarının nəzarəti altında Bakıya gətiriləcəyini desə də, AXCP sədrinin müavini saat 17:00 radələrində Dövlət Sərhəd Xidmətinə gətirilib. AXCP və Milli Şuranın, digər siyasi qurumların tərəfdarları DSX-nin qabağına toplaşıblar. G.Bayramlı saatlarla orada saxlanılıb, qəzetimiz çapa gedərkən onun barəsində hələ yekun qərar verilməmişdi. Amma barəsində cinayət işi qaldırıldığına görə məhkəmə önünə çıxarılacağı bildirilirdi.

G.Bayramlının funksioneri olduğu Milli Şura və AXCP həbsdə siyasi motivin olduğunu bildirir.

❑ Cavanşir ABBASLI



# Azay Quliyev ATƏT PA tədbirində Azərbaycan təcrübəsinə diqqət yönəldəcək

**Milli Məclisin deputatı, ATƏT PA-nın sədr müavini və Büro üzvü Azay Quliyevlə deputat Tahir Mirkişili milli azlıqlara dair tədbirdə iştirak etmək üçün mayın 28-dən Avstriyanın Fillax şəhərində səfərdə olacaqlar. Bu barədə Milli Məclisin mətbuat xidməti məlumat yayıb.**

Məlumatda deyilir ki, ATƏT Parlament Assambleyası ilə Avstriya Parlamentinin birgə təşkil etdiyi tədbiri ATƏT PA-nın sədri xanım Kristine Muttonen açacaq. Sessiyalarda "Milli azlıqların dəstəklənməsində milli parlamentlərin potensialı", "Balkanlardakı barışın beynəlxalq perspektivləri" müzakirə olunacaq, Avstriyanın Karintiya vilayətinin timsalında "Bir-birimizdən öyrənək" mövzusunda təcrübə mübadiləsi aparılacaq.

Deputatlarımız müzakirə olunan məsələlərə münasibət bildirərkən Azərbaycanın təcrübəsinə diqqət yönəldəcək, ölkəmizdə milli azlıqlara yaradılan şəraitdən və xalqımızın tolerantlığından da bəhs edəcəklər.

Səfər mayın 31-də başa çatacaq.

❑ Musavat.com

# "Beynəlxalq Bankın reytinqlərinin düşməsi müvəqqəti haldır" - Xalid Əhədov

**Azərbaycan Beynəlxalq Bankının (ABB) reytinqlərinin düşməsi müvəqqəti haldır.**

Bankdan «Trend»ə verilən məlumata görə, bunu ABB-nin İdarə Heyətinin sədri Xalid Əhədov mayın 23-də Londonda bankın xarici kreditorları ilə keçirilmiş görüşdən dərhal sonra əvvəlcə Fitch, ardınca bu gün Moody's beynəlxalq reytinq agentliyinin ABB-nin reytinqlərini aşağı salmasına münasibət bildirərkən deyib.

Onun sözlərinə görə, bank rəhbərliyi tərəfindən əvvəlcədən də bəyan edildiyi kimi bu, gözlənilən idi: "Restrukturizasiya prosesi keçən bank üçün bu, normal bir qərardır. Beynəlxalq reytinq agentlikləri öz ənənəvi standartlarına və praktikalarına əsaslanaraq ABB-nin reytinqlərini müvəqqəti aşağı saldılar. Bu hal qısamüddətlidir. Bankın maliyyə mövqeləri gücləndikcə beynəlxalq agentliklər öz qərarlarına yenidən baxaraq bankın reytinqlərini yenidən yüksəldəcəklər".

X.Əhədov vurğulayıb ki, bu qərarların bankın fəaliyyətinə hər hansı təsiri yoxdur. ABB bütün bank əməliyyatlarını, müştərilərə xidməti normal qaydada davam etdirir.

Onun sözlərinə görə, bankın xarici öhdəliklərinin restrukturizasiyası ABB-nin müştərilərinin və tərəfdaşlarının maraqlarına uyğundur. Bu proses bankın Azərbaycanda və xaricdə yenidən güclənməsini, maliyyə mövqelərinin möhkəmlənməsini təmin edəcək.




# İqtisadi böhranı adladıqmı...

## Fikrət Yusifov: “Nəticələr ölkə iqtisadiyyatında dirçəlişin başlandığını deməyə əsas verir”

**Bütün dünyanı ağuşuna alan iqtisadi böhran Azərbaycandan da yan keçmədi. İllərdir davam edən böhranla bağlı iqtisadi dirçəlişlərin tezliklə ölkəmizdə başlayacağı deyilsə də, görünən odur ki, hələ də iqtisadi çətinliklər var. Hətta üçüncü devalvasiyanın baş verə biləcəyi ehtimalları da mövcuddur.**

Amma bununla belə, Azərbaycan iqtisadiyyatında yaranan problemlərlə bağlı hökumətin gördüyü işlər qənaətbəxş hesab olunur, proseslərin bu şəkildə davamının tezliklə böhrandan xilasolma ehtimallarını sürətləndirdiyi vurğulanır. Artıq əvvəlki iki ilə nisbətən böhranın yaratdığı problemlərin aradan qalxdığı, o illər kimi iqtisadiyyatdakı çətinliklərin olmadığı açıq şəkildə özünü büruzə verməkdədir. Bu baxımdan, iqtisadçı ekspertlər böhranın geridə qaldığı, iqtisadi dirçəliş üçün lazımi zamanın yetişdiyi barədə fikirlər səsləndirirlər.



**Sabiq maliyyə naziri, iqtisadçı alim Fikrət Yusifov hökumətin apardığı işlərin iqtisadiyyatın dirçəlişinə səbəb olduğunu düşünür:** “İqtisadi böhran bir tək Azərbaycanı deyil, 2008-ci ildən başlayaraq, dünyanın bütün ölkələrini əhatə edib. 2014-cü ilin ortalarından etibarən dünya bazarlarında neftin qiymətlərinin kəskin şəkildə aşağı düşməsi neft hasil edən ölkələrin iqtisadiyyatında böhranın daha da dərinləşməsinə səbəb oldu. Azərbaycan hökumətinin böhrana qədərki dönəmdə iqtisadiyyatın şaxələndirilməsi istiqamətində gördüyü tədbirlər nəticəsində Ümumi Daxili Məhsulun həcmində qeyri-neft sektorunun payını 70%-dən çox olan bir səviyyəyə çatdırmaq mümkün oldu. Lakin iqtisadiyyatın real sektorundan ixracın kifayət qədər ola bilməməsi səbəbindən, neftin qiymətləri kəskin aşağı düşdükdən sonra ölkənin maliyyə sistemində bəzi çətinliklər ortaya çıxdı. 2015-ci ildə bir il ərzində milli valyutanın iki dəfəyə yaxın dəyər itirməsi ilə nəticələnən iki kəskin devalvasiya bank sistemində problemlərin yaşanmasına səbəb oldu. Bank sistemində yaranmış bu vəziyyət öz növbəsində iqtisadiyyatın normal şəkildə kreditləşdirilməsinə imkan vermədi. Lakin yaranmış durum hökuməti geri çəkilməyə məcbur edə bilmədi, əksinə, o daha çevik addımlar atmaqla iqtisadi böhrandan mümkün qədər tez çıxmağın yollarını müəyyənləşdirdi. Artıq 2015-ci ilin son aylarından başlayaraq bir-birinin ardınca ölkə iqtisadiyyatının real sektorunun və onun əsasını təşkil edən azad sahibkarlığın inkişafına geniş meydan açan çox ciddi qərarlar qəbul edilməyə başlandı. Keçən il iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi ilə hər bir sahənin yaxın, orta və uzaq perspektivdə dəqiq inkişaf konturları müəyyən olundu. Artıq strateji yol xəritələrinin və ölkə iqtisadiyyatının qeyri-neft sektorunun inkişafını ehtiva edən digər qərarların sürətlə icrası prosesi başlayıb. Cari ilin dörd ayı ərzində bir çox sahələrdə mövcud olmuş gerilik aradan qaldırılıb və artıq ölkə iqtisadiyyatının ən aparıcı sahələrində və ilk növbədə qeyri-neft sektorunda pozitiv nəticələr əldə olunmağa başlayıb. 2016-cı ilin ötən dövrü ərzində qeyri-neft sənayesində, aqrar sektorda, tranzit yükdaşımalarda və turizm sektorunda əldə olunan nəticələr ölkə iqtisadiyyatında dirçəlişin başlandığını deməyə əsas verir. Hökumətin müəyyən etdiyi proqramlar çərçivəsində iqtisadi islahatların və struktur islahatlarının bu qaydada davam etdirilməsi yaxın iki- üç il ərzində ölkə iqtisadiyyatının neftdən asılılığını optimal bir səviyyəyə çatdırmağa imkan verəcəkdir”.

❑ Cavanşir ABBASLI



# Müəllimlərin kütləvi ixtisarı başlayır

## Cəsarət Valehov: “Qiymətləndirmədə kifayət qədər zəif nəticə göstərən müəllimlər var ki, onlar məktəblərdən ixtisar olunacaq”



**“Bu günə kimi Təhsil Nazirliyi tərəfindən Azərbaycanda 140 minə yaxın müəllim diaqnostik qiymətləndirmədən keçirilib. Hazırda Bakıda 7 min müəllimin qiymətləndirilməsi aparılır. Bununla da proses tam başa çatacaq”.**

Musavat.com-un APA-ya istinadən xəbərinə görə, bunu Təhsil Nazirliyinin mətbuat xidmətinin rəhbəri Cəsarət Valehov deyib.

Onun sözlərinə görə, bu işlərin həyata keçirilməsində məqsəd səriştəli təhsil verənlərin hazırlanması və təhsil mühitinə cəlb edilməsidir.

**C. Valehov qeyd edib ki, artıq diaqnostik qiymətləndirmənin nəticələri ilə bağlı Təhsil Nazirliyində müəyyən məlumatlar var:** “Diaqnostik qiymətləndirmə zamanı zəif nəticə göstərən müəllimlərin bir qismi təlimlərə cəlb edilərək, nəticələrini yaxşılaşdırmaq üçün onlara şans veriləcək. Bununla yanaşı, qiymətləndirmədə kifayət qədər zəif nəticə göstərən müəllimlər var ki, onlar məktəblərdən ixtisar olunacaq. Çünki başqa yol yoxdu. İstəyirik ki, yüksək bilikli, savadlı, bacarıqlı müəllimlər işlə təmin olunsun. Ötən il rekord sayda namizəd işə qəbul üçün müraciət edib, onlardan 30 mini imtahanda iştirak edib. Bu il Azərbaycanda vakansiyaların sayları artırılıb, səriştəli müəllimlərin işə cəlb olunması üçün yeni imkanlar yaradılır”.

**Nazirlik rəsmisi qeyd edib ki, bu il müəllimlərin işə qəbulu üzrə müsabiqədə kifayət sayda vakant yer olacaq:** “Bu il 6 mindən çox vakant müəllim yerinin olması gözlənilir. Burada əsas məqsəd daha çox gənc və yüksək savadlı müəllimlərin işə cəlb olunmasıdır”.

**Təhsil Nazirliyinin İnsan resursları şöbəsinin müdir müavini Eşqi Bağırov isə əlavə edib ki, bəzi hallarda təlim vasitəsilə müəllimlərin peşəkarlığı artırılacaq:** “Lakin qiymətləndirmədə çox aşağı nəticə göstərən müəllimlərin təlim ehtiyacları təmin edilsə belə, onların bilik səviyyəsinin, peşəkarlığının artırılması üçün cəhdlər məqsədəuyğun hesab edilmir. Təhsilə cavabdeh olan şəxslərə belə müəllimlər, əmək müqavilələrinin tənzimlənməsi ilə bağlı tapşırıqlar verilib. İstəmirik ki, övladlarımıza, şagirdlərə aşağı nəticə göstərən müəllimlər dərs keçsin. Hətta az saat olsa belə, onların yeri vakansiyaya çıxarılacaq. Müsabiqələrdə kifayət qədər bal toplayan namizədlər məktəblərdə yer olmadığı üçün işlə təmin oluna bilmirlər”.

**E. Bağırov vurğulayıb ki, diaqnostik qiymətləndirmədə aşağı nəticə göstərən müəllimlərin sayı kifayət qədərdir:** “Ola bilsin ki, hansısa müəllim öz ərizəsi ilə işdən çıxmağa razılıq verəcək. Artıq belə hallar var, bəzi müəllimlər özləri ərizə yazaraq işdən çıxırlar”.

YENİ MÜSAVAT
N 113 (6727) 27 may 2017

# Fuad Əlişovla Aysel Əlizadənin layihəsi - Film kimi...

**Tanınan yazar Aysel Əlizadə təqdimata hazırlaşır. Mayın 29-da "Park İnn" hotelinin "Füzuli" zalında onun "Çərçivə" şeirinə çəkilmiş eyni adlı qısa filmin təqdimatı və "Qadın Peyğəmbər" kitabının imza günü keçiriləcək. Filmin rejissoru Fuad Əlişovdu.**

*Aysel Əlizadə və Fuad Əlişov "Yeni Müsavat"ın qonağı olublar, müsahibə veriblər. Həmin müsahibəni təqdim edirik.*




***Aysel Əlizadə:***

- Bu, mənim şeirimə çəkilən ilk klipdir. Hətta dostlardan biri bu videonun klip kimi təqdim edilməsinin əleyhinə oldu. Dedi ki, bu, sənin yaradıcılığın haqqında qısa filmdir. Çünki klipdə bir neçə Aysel Əlizadə var: şair, aktrisa, ifaçı və qiraətçi. Əslində çoxdan şeirə klip, film çəkdirmək ənənəsini başlatmaq arzum vardı. İllər əvvəl belə bir klip olub, xalq artisti Əminə Yusifqızının çəkildiyi klip var idi. Amma bu klip bir qədər fərqlidir, burada şair özü öz mətnini səsləndirir və onu canlandırır.

***- Buna qədər də sizin ifanızı artıq eşitmişik.***

- Bəli, "Ad günü" mahnısını oxumuşdum və bu günə qədər o mahnını məndən istəyən dinləyicilər var (gülümsəyir). Hətta olur ki, hansısa çox ciddi bir siyasi yazımın altından belə bir şərh yazırlar: "Sizin "Ad günü" mahnınız var idi, onu xahiş edirəm paylaşın".

***- Klip üçün niyə məhz "Çərçivə" şeirini seçdiz?***

- Şeiri Fuad bəy seçdi.

***Fuad Əlişov (F.Ə.):***

- Seçdim deyəndə ki, mən Aysel xanımdan bir neçə yeni şeir göndərməyi xahiş etdim. Onların içindən ən çox "Çərçivə"ni bəyəndim. Əslində Aysel başqasını istəyirdi...

***Aysel Əlizadə (A.Ə.):***

- Hə, doğrudur.

***F.Ə:***

- Sonra başqaları da deyəndə ki, bu şeir daha yaxşıdır, onun üzərində qərarlaşdıq.

***- Fuad bəy, bu, şairlə olan ilk işinizdir?***

***F.Ə:***

- Ümumiyyətlə, həm Aysel xanımla, həm də şairlə olan ilk işimdir.

***Xalidə Gəray:***

***- Nədənsə son vaxtlarda sizin yeni kliplərinizi görə bilmirik.***

***F.Ə:***

- Əvvəllər bizim çalışdığımız janra maraq çox idi. Elə təsəvvür yaranırdı ki, biz də müğənnilərlə birgə gündəmdəyik. Bu janra maraq azalıb deyə klipmeykerlər artıq əvvəlki kimi gündəmdə deyil. Ola bilsin ki, yeni kliplər çəkilir, amma onların ətrafında əvvəlki kimi söhbətlər və qalmaqallar olmur.

***A.Ə:***

- Belə başa düşürəm ki, müğənnilər gündəmdən düşməyə başlayıb.

***X.Gəray:***

***- Kliplər, yoxsa müğənnilər gündəmdən düşüb?***

***F.Ə:***

- Bu, Aysel xanımın fikridir (gülümsəyir).

***A.Ə:***

- Mən belə düşünürəm. İndi izləyici, tamaşaçı daha çox ciddi mövzulara, sosial problemlərə, mənəvi məsələlərə maraqlıdı.

***F.Ə:***

- Uzun sözün qısası, mən daha çox kadr arxasında qaldığımdan belə bir fikir yaranıb.

***X.Gəray:***

***- Bu günə qədər çəkdiyiniz kliplərlə bu yeni klip arasında hansı fərqliliyi görə biləcəyik?***

***F.Ə:***

- Əsas fərqlilik odur ki, mahnıya çəkilən klip deyil və mən burda illərlə tanıdığım insanın daxili aləmini göstərməyə çalışmışam.

***X.G:***

***- Aysel xanım, "Çərçivə" sevgi şeiridi. Maraqlıdır, ünvanlıdır?***

## "Aysel xanımla iş birliyimiz yaradıcılığımda yenilik idi"

***A.Ə:***

- Xeyr. İlk dəfədi ünvansız sevgi şeiri yazmışam. Bu şeir bir gecəyə yaranıb və mən həmən, redaktə etmədən facebook səhifəmdə paylaşmışam. Dərhal da çox böyük rezonans doğurdu, xeyli paylaşıldı, bəyənildi.

***X.G:***

***- Şeir nə zaman yazılıb?***

***A.Ə.***

- Bu ilin yanvar ayında.

***F.Ə:***

- Aysel bu şeirini bir gecəyə yazıb. Adətən belə olmur. Yaradıcı insan olduğum üçün bilirəm ki, maraqlı bir əsər yaratmaq insana asan başa gəlmir. Xüsusi ruh halında olursan. Şeir kimə ünvanlanıb, niyə bir gecəyə yazılıb dərinliyinə varmadım, düzü. Klipdə yaradıcı prosesi və bir mətnin necə yarana biləcəyini göstərməyə çalışdım. Əslində mənə də elə gəldi ki, şeir kiməsə ünvanlanıb. Amma Aysel xanım bunu açıqlamadı.

***A.Ə:***

- Bu şeir bir situasiyanı, bir ruhu ifadə edir. Şeirin yazılması barədə sirri açım. Gənc bir dostum var. O, bir qıza vurulmuşdu. Yox cavabı aldı. Onu hiss edib yazmışam. Görünür, zamanla təkcə yazıda deyil, şeirdə də müəllif peşəkarlığından istifadə edib mətn yarada bilir. Bu artıq təkcə ruhani vəziyyət deyil, həm də peşəkar vəziyyətdir.

***X.G:***

***- Bir qədər öncə qeyd etdiz ki, klipdə mahnı da səsləndirmisiz. Bu hansı mahnıdır?***

***A.Ə:***

- Sezen Aksunun "Onursuz olmasın aşk" mahnısı.

***F.Ə:***

- Aysel xanımın əslində çox gözəl musiqi duyumu var. Bəlkə də bu onun əvvəllər həm də müğənni olmasından irəli gəlir. Bu mahnını bir neçə mahnının içərisindən seçib.

***X.G:***

***- Belə anladım ki, klipin süjet xətti, ideyası Fuad bəyə məxsusdur.***

***A.Ə:***

- Fuada təklif etdim ki, klipdə başqa mənzərələr də olsun. Razılaşmadı. "Şeirdə ancaq sən olmalısan" dedi.

***F.Ə:***

- *(Gülümsəyir)* Yaxşı ki, qulaq asmamışam.

***X.G:***

***- Aysel xanım, artıq sizin bir çox bacarıqlarınızla tanışıq. Maraqlıdır, bu şeirinizə musiqi bəstələməyi düşünmüsüzmü? Bəstəkarlıq bacarığınız da varmı?***

***A.Ə:***

- Xeyr. Pianinoda ifa edərkən hansısa melodiya yığılıb, amma bəstəkar kimi musiqi yazmağı düşünməmişəm.

***X.G:***

***- Musiqi təhsiliniz var?***

***A.Ə:***

- Yoxdur, amma evimizdə hər zaman pianino olub və anam gözəl ifalar edir. Özüm isə uşaq ikən musiqi məktəbinin fortepiano sinfində təhsil almışam. Lakin davam etdirmədim.

***F.Ə:***

- *(Təəccüblənir)* Görürsüz, Aysel xanımın bu bacarığından xəbərsiz olmuşam, yoxsa klipdə əlavə kadr da olardı.

***X.G:***

***- Bəs şeirlərinizə musiqi bəstələnib?***

***A.Ə:***

- Musiqi və poeziya mənim yaradıcılığımda çox harmonikdir. Aygün Səmədzadə "Ad günü" şeirimə mahnı bəstələyib. Həmçinin mərhum Nərmin Məmmədova ilə birgə işləmişik. Özümü nəğməkar şair hesab etmirəm.

***X.G:***

***- Aysel xanımla uzun müddətdir ki, dostsuz. Bu klipi ona hədiyyə etmisiz, yoxsa?***

***A.Ə:***

- Bəli, hədiyyə edib.

***F.Ə:***

- Sözün düzü, neçə ildir görüşə bilmirdik. Görüşdük, söhbətləşdik, Aysel xanım yaradıcılığından, kitablarından danışdı. Təklif etdim ki, yaradıcılığını video formatında təqdim edək. Klip ideyası burdan yarandı.

***A.Ə:***

- Ümumiyyətlə, bu klip Fuad bəyin ilk operator işi idi.

***F.Ə:***

- *(Gülümsəyir)* Bunu demək istəmirdim, amma... Görənlər operator işini də tərifləyir.

***X.G:***

***- İlk dəfə idi ki, dostunuza klipi hədiyyə edirsiz?***

"Bu, şeirimə çəkilən ilk klipdir"






***F.Ə:***

- Yox, mən ildə yalan olmasın, 2-3 işimi hədiyyə edirəm.

***X.G:***

***- Məsələn, kimlərə?***

***A.Ə:***

- Çox-çox istədiyi adamlara hədiyyə edir.

***X.G:***

***- Fuad bəy, film, komediya və ya serial çəkməyi düşünürsüzmü?***

***F.Ə:***

- Film çəkmək planım var. Tamaşaçılarda da kliplərdən daha çox filmlərə maraq var. Filmdə hər janrdan bir az olacaq. Sırf komediya mənim üçün o qədər də maraqlı deyil.

***X.G:***

***- Bəs hazırda hansı işlə məşğulsuz?***

***F.Ə:***

- Əsasən reklam işləri görürəm. Bu da mətbuata açıqlanmır. İşlərim internet resuslarında, TV efirində yayımlanır. Lakin tamaşaçılara maraqlı deyil təqdim olunan reklam çarxının arxasında kimlər var.

***X.G:***

***- Klip sifarişləri az olduğu üçün, yoxsa daha gəlirli sahə olduğu üçün reklamı seçmisiz?***

***F.Ə:***

- Zamanla belə alındı.

***X.G:***

***- Klip sifarişləri varmı?***

***F.Ə:***

- Demək olar ki, yoxdur, çox az. İldə 1-2 klip olur. Bununla dolanmaq olmur. Aysel xanımla işimiz mənim üçün yeni janr idi. Şeirə klip çəkmək maraqlı idi. Çünki şeirdə fikirlər daha dərin olur.

***X.G:***

***- Klipdən razı qaldız?***

***F.Ə:***

- Bacardığımı etdim.

***X.G:***

***- Prosesdən necə?***

***F.Ə:***

- Prosesdən heç də. Ayselin bacarığı, istedadı çoxşaxəlidi. Aktyorluğu, mahnı ifa etməyi gözəldi, buna görə də mən əziyyət çəkmədim. Həm də Aysel xanım çox fotogenikdir.

***A.Ə:***

- *(Gülümsəyir)* Mənim bəlkə də ən böyük qazancım fotogenik olmağımdır.

***F.Ə:***

- *(Zarafatla)* Bəs onda niyə məni incidirdin? Klipi göstərəndə özünü bəyənmirdi.

***A.Ə:***

- Kənardan nə qədər rahat, ədalı görünsəm də, əslində özümə çox tənqidi yanaşıram.

***X.G:***

***- Niyə çərçivə?..***

***A.Ə:***

- Bu, çox dərin məsələdir. Əslində şeirin ilk adı "Yalqızlıq" idi. Amma sonra dəyişərək "Çərçivə" qoydum. Orada bir misra var, "Mən səni bir rəsm çərçivəni sevən kimi sevirəm". Əslində bu bir tamamlanmadır. Rəsm çərçivəsiz də rəsmdir, mahiyyəti itmir, amma çərçivə ilə o tamamlanır və daha effektli, çəkici, dəyərli görünür. Çərçivə isə rəsmsiz sadəcə boş kənarlardı.

***F.Ə:***

- Təxminən mən də bu cür düşünmüşdüm. Aysel xanım dedi ki, kimsə qızdan imtina cavabı alıb və bunu qələmə alıb. Həmin gənc sanki özünü sındırmamaq üçün deyir ki, mən özümü tamamlamaq üçün səni axtarırdım, olsa nə yaxşı, olmasa eybi yox.

***A.Ə:***

- Bir tərəfdən də başqa mənası var. İnsan həyatındakı çərçivə ifadə olunur.

***X.G:***

***- Sizcə, insan həyatında çərçivə olmalıdırmı?***

***A.Ə.:***

- Olmalıdır, amma bu çərçivəni insan özü müəyyənləşdirməlidir. Kənardan, başqalarının hazırladığı deyil, öz seçdiyin, həyatda nəticə olaraq gəlib çıxdığın çərçivə...

***X.G:***

***- Aysel xanım, bəs sizə ünvanlanan şeir olub?***

***A.Ə:***

- *(Gülümsəyir)* Çox olub. Şeir ünvanlayanlar arasında tanınmış da, gizli şairlər də olub. Bu yaxınlarda da çox yaxşı bir şeir ünvanlanmışdı.

***X.G:***

***- Necə xəbər tutursuz ki, o şeirlər sizə həsr olunub?***

***A.Ə:***

- Birbaşa deyirlər ki, sizə yazmışıq (gülümsəyir).

***X.G:***

***- Bəyəndiyiniz, dostluq etdiyiniz şairələr varmı?***

***A.Ə:***

- Əlbəttə var. Rəbiqə Nazimqızı ilə yaxın dostuq. Onu həm dost, həm şairə kimi çox bəyənirəm. Sevinc Elsevəri bəyənirəm. Ümumiyyətlə, Azərbaycanda yaxşı şair xanımlar çoxdur. Qadın şairlər mənə kişi şairlərdən səmimi görünürlər.

***X.G:***

***- Hazırda şairlərin, yazarların maddi durumu, vəziyyəti necədir?***

***A.Ə:***

- Yaxşi deyil. Şair kimi işləyib yaşamaq olmur. Hərdən haray salan yazarlar qınanılır ki, niyə səs-küy salır, gileylənir, işləyib qazansın. Amma yazar hansısa saytda ona aid olmayan materialları işləmək və yaxud hansısa şirkətdə öz sahəsindən kənar işlə səhərdən axşamadək çalışmaq istəmir. O, yaradıcıdır, ruh adamıdır. İstəyir ki, kitabları çap olunsun, gəlir əldə edib yaşasın. Çünki işi budur.

***F.Ə:***

***- Ümumiyyətlə, bizim yazarların kitabları satılır?***

***A.Ə:***

- Əgər bu işlə cəmiyyət olaraq şəbəkə şəklində məşğul olsaq, əlbəttə ki, satılar. Oxucu yoxdur iddiası ilə razılaşmıram. Çünki Azərbaycan oxucusu istədiyi məlumatları saytlardan, köşə yazılarından alır. Oxucu var, onu kitab oxucusuna çevirmək üçün müəyyən işlər görülməlidir.

***X.G:***

***- Son sualım olacaq, bu klipdən gözləntiniz nədir?***

***F.Ə:***

- Başlanğıcda gözləntim yox idi. Sadəcə, şeir janrını yeni bir formatda təqdim eləmək istədik. Ola bilər ki, bu klip oxucuları kitab mağazalarına, kitabxanalara cəlb etmək üçün təkan olsun.

***A.Ə:***

- Klipə nə dərəcədə maraq olacağını indidən deyə bilmərəm. Çox istərdim ki, müasir poeziyaya böyük maraq yaransın.

Sonda dostlarıma, oxucularıma, həmkarlarıma demək istəyirəm ki, mayın 29-dakı tədbirə giriş sərbəstdir. İstənilən adam gəlib iştirak edə bilər. Gözləyəcəm...

❑ Xalidə Gəray
❑ Fotolar Məhəmməd TÜRKMƏNİNDİR

YENİ MÜSAVAT
N 113 (6727) 27 may 2017

# “Heç bir avantüraya getməyəcəyik”

**Mayın 26-da “Buta” sarayında Azərbaycan Respublikasının milli bayramı - Respublika günü münasibətilə keçirilən rəsmi qəbulda prezident İlham Əliyev Azərbaycanın siyasi və iqtisadi vəziyyəti, eləcə də dünyanın ölkəmizlə münasibətlərinə dair geniş çıxış edib. Dövlət başçısı çıxışında ölkənin həm daxili, həm xarici siyasəti ilə bağlı mühüm açıqlamalar və ipucları verib.**



## Prezidentdən sensasion bəyanatlar - mesaj ünvanına çatdı

İran ətrafında yeni oyunların başlaması, Rusiyanın isə Qərblə münasibətlərində gərginliyin artdığı bir vaxtda “Azərbaycan hansı mövqe tutacaq” sualına İlham Əliyev qəti cavab verdi; dövlət başçısının ABŞ prezidenti Trampın adını çəkərək “başqa ölkələrin daxili işlərinə qarışmaq tendensiyası azalmağa başlayır” deməsinin arxasındakı səbəb...

Prezident öncə müsəlman dünyasında ilk dəfə Azərbaycan Demokratik Respublikasının qurulmasını xalqımız və bütün dünya üçün tarixi hadisə adlandırıb: “Bu respublikanı Azərbaycan xalqı, onun qabaqcıl nümayəndələri yaradıblar. Biz, təbii ki, bununla fəxr edirik. Məhz bizdən sonra demokratik respublikalar digər müsəlman dövlətlərində qurulmağa başlayıb. Azərbaycan xalqı və dövləti Azərbaycan Demokratik Respublikasının qurucularına daim böyük hörmətlə yanaşıb, onların xatirəsini qəlblərində yaşadır. Təəssüf ki, Azərbaycan Demokratik Respublikası qısa müddətdə mövcud olub. İki ildən sonra respublika süqut edib. Bu bir daha onu göstərir ki, müstəqilliyi qorumaq onu qazanmaqdan çətindir”.

Dövlət başçısı vurğulayıb ki, 1991-ci ildə bərpa edilmiş müstəqillik böyük tarixi şans, böyük nailiyyət olub.

Prezident qeyd edib ki, Azərbaycanın müstəqilliyinin ilk iki ili formal xarakter daşıyıb, belə ki, o zaman ölkəni idarə etmiş şəxslər tarixi şansdan istifadə edə bilmədilər. Dövlət başçısı əlavə edib ki, bu qüvvələr ölkəni vətəndaş müharibəsi girdabına sürükləyiblər.

### Prezident “xarici təhlükələr” dedikdə nələri nəzərdə tuta bilər?

Ölkədə hazırkı ictimai-siyasi vəziyyətə toxunaraq, prezident qeyd edib ki, ölkə daxilində risklər yoxdur. Ehtimal ki, prezident “risklər” dedikdə həm hakimiyyətə gəlmək iddiasında olan alternativ qüvvələrin zəifliyini, həm siyasi stabilliyi, həm də sabitliyi təhdid edən radikal qüvvələrin olmamasını nəzərdə tutur.

**Dövlət başçısı ölkəmizə əsas risklərin xaricdən qaynaqlandığını bəyan edib.** “Biz ölkəni xarici təhlükələrdən qorumalıyıq” deyən prezident əlavə edib ki, Azərbaycan yalnız öz milli maraqlarından hərəkət edir və xarici siyasətdə heç bir avantüraya getməyəcək.

Bu bəyanat da kifayət qədər diqqət çəkir. Əvvəla, “xarici təhlükələr” dedikdə dövlət başçısı bunların sırasında heç şübhəsiz terror təşkilatlarını da nəzərdə tutur. Amma “xarici təhlükələr” yalnız terror təşkilatlarından da ibarət deyil. Bu ifadə həm də ölkənin daxili və xarici siyasətinə müdaxilələri də özündə ehtiva edir.

Sirr deyil ki, çox mürəkkəb bir regionda yerləşən Azərbaycanı illərdir müxtəlif münaqişələrə cəlb etmək cəhdləri olub və indi də var. Bu, həm İran ətrafında siyasi oyunlarda, həm Rusiya ilə Qərbin gərgin münasibətlərində dəfələrlə özünü büruzə verib. Azərbaycan isə məhz prezidentin balanslı siyasəti sayəsində qonşuları ilə dostluq münasibətlərini qoruyub saxlaya bilib. İndi xüsusilə İran ətrafında yeni oyunların başlaması, Rusiyanın isə Qərblə münasibətlərinin daha da gərginləşməsi müşahidə olunur. Bu səbəbdən “Azərbaycan hansı mövqeyi tutacaq” sualı indi təkcə ölkənin taleyinə biganə olmayan vətəndaşı deyil, bütün maraqlı dövlətləri düşündürür. Prezident İlham Əliyev çıxışında bu sualına aydın və birmənalı cavab verib: “Azərbaycan xarici siyasətdə heç bir avantüraya getməyəcək”. Bu, Azərbaycana ən müxtəlif yollarla beynəlxalq münaqişələrdə tərəf olmaq üçün təzyiq etmək istəyən qüvvələrə “cəhdləriniz əbəsdir” kimi birmənalı cavabdır.



### ABŞ prezidenti Trampa açıq dəstəyin səbəbi...

**İlham Əliyev çıxışında xarici təzyiqlər mövzunu davam etdirərək ABŞ prezidenti Donald Trampın “başqa ölkələrin daxili işlərinə qarışmayacağıq” bəyanatını xatırladıb:** “Tramp dedi ki, başqa ölkələrin daxili işlərinə qarışmayacaq. Axı Azərbaycan təbliğat hücumu ilə üzləşən ölkələrdən biri idi. İndi Donald Trampın hakimiyyətə gəlişindən sonra biz artıq görürük ki, başqa ölkələrin daxili işlərinə qarışmaq tendensiyası azalmağa başlayır”.

Dövlət başçısı ABŞ prezidenti Trampın adını çəkərək “başqa ölkələrin daxili işlərinə qarışmaq tendensiyası azalmağa başlayır” deməsi diqqətə layiqdir. Çünki bu siyasət hazırda Ağ Ev rəhbərinə ciddi qınaqlar gətirir, həm Konqresdə, həm Senatda “Amerika qıraqda duracaqsa, heç kim onunla hesablaşmayacaq” kimi bəyanatlar səslənir.

Azərbaycan rəhbərinin isə yüksək tribunadan bu siyasətə dəstək verməsi həm ABŞ-dakı, həm də Qərbdəki anti-Tramp qüvvələrin narazılığına səbəb ola bilər. Bunları dövlət başçısı da hesablamamış deyil. Amma “Azərbaycan təbliğat hücumu ilə üzləşən ölkələrdən biri idi. Trampın hakimiyyətə gəlişindən sonra biz artıq görürük ki, başqa ölkələrin daxili işlərinə qarışmaq tendensiyası azalmağa başlayır” deməsi, zənnimizcə, daha çox Azərbaycanın daxili siyasətinə bundan sonra da təsir etmək istəyən qüvvələrə yönəlik mesajdır.

**Məlumdur ki, gələn il ölkədə prezident seçkiləri ilidir. Hər seçkilər ərəfəsi xarici qüvvələrdə də fəallaşmalar müşahidə olunur. Prezidentin Tramp nümunəsində həmin qüvvələrə net cavabı daha sonra dediyi sözlərdə var:** “Biz özümüz heç kimin işlərinə qarışmırıq və başqalarına da imkan vermirik ki, bizim işlərimizə qarışsınlar. İmkan verməyəcəyik ki, kimlərsə bizə nəyi necə etməli olduğumuz haqda öz mövqelərini qəbul etdirməyə çalışsın” deyə, prezident qeyd edib.

Yeri gəlmişkən, dövlət başçısı ötən il də Respublika günü ilə bağlı çıxışında “heç bir başqa ölkənin daxili işinə qarışmırıq, heç kimi də qoymuruq ki, bizim daxili işimizə qarışsın” mövqeyini ifadə etmişdi.

### Prezidentin təşəbbüskarı olduğu nəhəng layihəni kimlər əngəlləyir?

Tədbirdə xarici təzyiqlər və müdaxilələr barədə səslənən daha bir mühüm məqam Cənub Qaz Dəhlizi layihəsi ilə bağlıdır. Məlumdur ki, sözügedən qaz xətti Azərbaycanla Avropanı birləşdirəcək daha bir nəhəng enerji layihəsidir. Amma bu layihənin gerçəkləşdirilməsinə Avropa ərazisindən süni əngəllər yaradılır.

Prezident kəmərin tikintisinə mane olmaq üçün törədilən bu təxribatlardan da danışıb. Bildirib ki, bu təxribatların məqsədi Azərbaycan qazının Avropaya çıxarılmasına mane olmaqdır. Prezidentin sözlərinə görə, bu məqsədlə müəyyən qüvvələr böyük pullar buraxırlar, ekoloji qruplar adı altında adamlar hazırlayırlar, məqsəd isə bu layihənin həyata keçirilməsinə mane olmaq, yaxud əngəlləməkdir. “Bu təxribatların arxasında böyük pullar və siyasi məqsədlər dayanıb” deyə, İlham Əliyev bildirib.

ABŞ-ın və Avropa Birliyinin ciddi dəstək verdiyi bu layihənin əsas təşəbbüskarı Azərbaycan prezidentidir. Neftin qiymətinin düşməsi ilə qaz kəmərləri üzərində qurulan siyasi intriqalar daha da artıb ki, bu da Cənub Qaz Layihəsinin tikintisinə yaradılan süni maneələrdə özünü göstərir. Bəzi iddialara görə, “ekoloji təmizlik” təşkilatlarının arxasında konkret dövlətlər (məsələn, Rusiyanın adı çəkilir) və erməni lobbisinin ciddi pulu dayanır. Prezident çıxışında bu “təxribatçı” əllərin arxasındakı qüvvələrin adını çəkməsə də, mesaj ünvanlarına çatmış oldu.

❑ “Yeni Müsavat”

# Putinin Azərbaycan prezidentinə yazdığı məktubdakı ilginc məqamlar

## Siyasi təhlilçilərin “son məktub”la bağlı mövqeləri fərqlidir; “Rusiyanın davranışlarında situasiyaya uyğun qabarma və çəkilmələr hər zaman olub”



**Son zamanlar Rusiya-Azərbaycan münasibətlərində soyuq küləklərin əsməsinin fonunda Rusiya prezidenti Vladimir Putinin Azərbaycan prezidenti İlham Əliyevə 28 may-Respublika günü münasibətilə ünvanlandığı təbrik məktubu daha çox diqqət cəlb etdi.**

Putin təbrik məktubunda həmçinin qeyd edib ki, Rusiya-Azərbaycan münasibətləri strateji tərəfdaşlıq ruhunda dinamik inkişaf edir: “Bütün səviyyələrdə məzmunlu siyasi dialoq, müxtəlif sahələrdə qarşılıqlı faydalı əməkdaşlıq tənzimlənib. Əminəm ki, birgə səylərimizlə ikitərəfli əməkdaşlıq əlaqələri kompleksini bundan sonra da inkişaf etdirəcəyik. Bu, regional sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi məcrasında ölkələrimizin dost xalqlarının köklü mənafelərinə uyğun olaraq cərəyan edir...”

Göründüyü kimi, Rusiya dövlət başçısı burada heç nə olmamış kimi davranıb. Sanki Rusiya XİN rəhbərliyinin son zamanlar sərgilədiyi anti-Azərbaycan mövqeyindən xəbərsizdir. Düzdür, adətən dövlət bayramları ilə bağlı təbriklər protokola uyğun olaraq yazılır. Lakin bir sıra hallarda biz korrektələrin də şahidi oluruq. V.Putinin məktubunda isə həm Azərbaycan prezidenti, həm xalqı, həm də müstəqil dövlətimizlə bağlı sayğı özünü qabarıq göstərir. Bir məqam xüsusilə diqqət çəkir. “Sizin ölkəniz dünya arenasında haqlı olaraq nüfuz qazanıb, beynəlxalq gündəlikdəki aktual məsələlərin həllində mühüm rol oynayır”. Bununla Putin problemləri arxivə göndərib Bakı ilə normal münasibətləri davam etdirməkdə qərarlı görünür, ölkəmizin önəmini etiraf edir, ya başqa səbəb var?

**Politoloq Arzu Nağıyev bildirdi ki, Putinin Azərbaycan haqqında dediyi bu fikirlər həm protokola uyğundur, həm də ciddi məna kəsb edir:** “Məlum məsələdir ki, Azərbaycan və Rusiya arasında böyük həcmli müqavilələr mövcuddur və müxtəlif istiqamətdə əməkdaşlıq edirik. Əsas məqamlardan biri Azərbaycanın bir sıra Rusiyanın maraq dairəsində olan dövlətlərlə çox mühüm əlaqələri var və Rusiya üçün vasitəçi rolunda çıxış edə biləcək Azərbaycan böyük əhəmiyyətə malikdir”. Ekspert qeyd etdi ki, digər tərəfdən, Azərbaycan bu gün karbohidrat ixracatçısı kimi Avropanın və dünyanın enerji təhlükəsizliyinə iştirak edən dövlətdir: “Bununla yanaşı, böyük beynəlxalq tədbirlərə çox məharətlə ev sahibliyi edən və tam şəkildə təhlükəsizliyini təmin edən dövlət kimi Azərbaycan Rusiya üçün mühüm əhəmiyyətli dövlətdir. Ən əsası isə biz həmsərhəd dövlət və qonşuyuq, Rusiyada müsəlman inanclı 11 federasiya subyekti var. Bir sözlə, cənab Putin bunları tam şəkildə nəzərə alaraq bu sözləri deyir. Təbii ki, Rusiya Azərbaycanla münasibətləri müsbət məcraya yönəltməlidir, çünki hazırda dünyada gedən proseslərə baxanda bu Rusiya üçün çox böyük önəm kəsb edir”.

**“Vladimir Putin Azərbaycan prezidentinə məktubunda, sadəcə, protokol ifadələrdən istifadə edib. Bu ifadələri məktublarında bütün prezidentlər istifadə edirlər”. “Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu bunu “Yeni Müsavat”a açıqlamasında bildirdi. Siyasi şərhçi dedi ki, bir məktubla iki ölkə arasındakı münasibətlərin istiləşəcəyini düşünmür:** “Sözə yox, əmələ diqqət yetirməliyik. Əməldə isə bunları görürük: Azərbaycanın dünyadakı ən böyük diaspor təşkilatı yox olmaq üzrədir, Rusiya Ermənistanın hərbi gücünü artırır, Moskvada Dağlıq Qarabağ separatçılarının bayraqları qaldırılır və s”.

**Politoloq Elçin Mirzəbəyli isə dedi ki, Azərbaycanın dünya arenasında nüfuz qazanması danılmaz həqiqətdir:** “Əhalisinin sayına və ərazisinə görə böyük olmayan bir ölkənin beynəlxalq gündəlikdəki məsələlərin həllində mühüm rol oynaması bir çox hallarda bunu etiraf edənlərin özündə də qıcıq yaradır. Putinin məktubunda yer alan fikirlər həm etirafdır, həm protokol, həm də reallıq. Adətən heç bir dövlət münasibətlər kritik həddə çatmadan protokoldan kənara çıxmır. Bu baxımdan, Rusiya prezidentinin təbrik məktubunda iki ölkə arasındakı münasibətləri dəqiq ifadə edə biləcək hər hansı bir fikir olduğunu düşünmürəm”. Bununla belə, E.Mirzəbəyli zənn edir ki, münasibətlərdəki gərginliyin arxa plana keçməsi, yaxud müəyyən zaman kəsiyində diqqətdən kənarda saxlanılması mümkündür: “Rusiyanın davranışlarında situasiyaya uyğun qabarma və çəkilmələr hər zaman olub və bundan sonra da olacaq. İndi Azərbaycanda da, regionda da vəziyyət əvvəlki kimi deyil. İndi Rusiyanın Azərbaycana qarşı hər hansı bir kiçik qarşıdurma yaratmaq cəhdləri belə ölkəmizdə ciddi ictimai etirazlarla qarşılanır. Düşünürəm ki, Moskva son nəbz yoxlamasından özü üçün nəticə çıxarıb. Azərbaycanda ”beşinci kolon"un dayaqları çox zəifdir. Rusiya ilə bağlı hər hansı pozitiv fikir belə son zamanlar nifrətlə qarşılanır. Bu isə çox ciddi amildir. Azərbaycanın ictimai rəyi bölgənin barometridir".

❑ E.PAŞASOY

YENİ MÜSAVAT
N 113 (6727) 27 may 2017

**Azərbaycanda 2018-ci ildə keçiriləcəyi gözlənilən prezident seçkiləri ilə bağlı indidən müxtəlif iddialar səslənməkdədir. Bunlardan biri də Rusiyanın bu seçkilərə təsir etməkdə maraqlı olması ilə bağlıdır. Son günlər bəzi siyasətçilər və ekspertlər bildirirlər ki, Moskva 2018-ci il seçkilərində Azərbaycan daxilində rusiyapərəstlərdən ibarət çox ciddi problem yaradan güc formalaşdıra bilər və qüvvə 2013-cü ildəki "İbrahimbəyov ssenarisi"ndən güclü olacaq.**



# Pənah Hüseyn "İbrahimbəyov-2" ssenarisindən danışdı

## AXP sədri: "Azərbaycanda indiki situasiya 2013-cü ildəkindən əhəmiyyətli şəkildə fərqlənir"

**Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn** isə hesab edir ki, Rusiyadan müəyyən təzyiq xarakterli addımlar olsa da, Kremlin Azərbaycanda hakimiyyəti dəyişmək istəyində olması, bunun üçün hansısa ssenari hazırlaya biləcəyi barədə iddialar ona inandırıcı görünmür. Onun sözlərinə görə, Azərbaycanda iqtidarda hansı siyasi qüvvənin olmasından asılı olmayaraq daim Rusiya öz maraqlarını təmin etmək üçün addımlar atıb və atır. Bundan sonra da belə olacaq: "Moskva Cənubi Qafqazda, o cümlədən Azərbaycanda öz təsir imkanlarını qoruyub saxlamağa, genişləndirməyə həmişə çalışır. Bu, məsələnin ümumi tərəfi, amma hazırda Azərbaycan hakimiyyəti xeyli dərəcədə Rusiyaya yaxındır, Rusiyanın maraqları burada təmin olunur, hakimiyyət Rusiyanın maraqları əleyhinə kurs həyata keçirmir. Hakimiyyətin daxilində kifayət qədər güclü rusiyameyli siyasi kurs mövcuddur. Bütün bunları nəzərə alsaq, güman eləmirəm ki, Kreml Azərbaycanda indiki iqtidarın dəyişməsində birmənalı şəkildə maraqlı olsun. Rusiya Azərbaycanda hazırkı hakimiyyətin dəyişməsində maraqlı deyil. Şübhəsiz ki, Azərbaycanda hansı siyasi qüvvənin, kimin hakimiyyətdə olmasından asılı olmayaraq Moskvadan təzyiq mühiti həmişə saxlanılıb və saxlanılacaq. İndi də təzyiqlər var. Amma bu təzyiqlər və ola biləcək hansısa təzyiqlər hakimiyyətin dəyişməsi üçün deyil. Ona görə də mən kimlərinsə Rusiyanın 2018-ci ildə Azərbaycan iqtidarını dəyişməyə çalışacağı barədə irəli sürdüyü fikirləri qondarma, əsassız hesab edirəm".

**Pənah Hüseyn qeyd etdi ki, ölkəmizin siyasi kursu dəyişərsə, iqtidar daxilində geosiyasi kursun dəyişilməsi müşahidə olunarsa, nəzəri baxımdan yanaşılsa, Rusiyanın ciddi təzyiq üçün hansısa ssenarini hazırlayıb işə salması mümkündür. Lakin bu gün hansısa kurs dəyişikliyi ortada yoxdur:** "Azərbaycanda indiki situasiya 2013-cü ildəkindən əhəmiyyətli şəkildə fərqlənir. O dövrdə "ərəb baharı" prosesi davam edirdi. Postsovet məkanında narıncı inqilabların olacağından ehtiyat edilirdi. Ona görə də müəyyən ssenarilərin olduğu müşahidə edilirdi. Lakin indi belə bir əsas yoxdur ki, Rusiya seçkilərlə bağlı 2013-cü ildəki kimi hansısa ssenarini işə salsın. Azərbaycan iqtidarı Rusiyanın maraqlarına qarşı addımlar atmır. Azərbaycan iqtidarı daxilində siyasi kurs məsələsində antoqonist qüvvələrin olduğu qənaətində deyiləm. Məsələlər iqtidarın özü tərəfindən xeyli dərəcədə idarə olunur, balanslaşdırılır. Vəziyyətdən asılı olaraq bu və ya digər qüvvənin önə çıxması kimi məsələlər ara-sıra müşahidə olunur, lakin bu, hakimiyyətin ümumi kursunu dəyişmir".

**P.Hüseyn onu da dedi ki, 2018-ci il seçkilərinin taleyüklü məsələ olduğu qənaətində deyil:** "Ölkədə seçki ilə iqtidar dəyişikliyi mümkünsüz vəziyyətə gəlib çatıb. Ona görə də təəssüf ki, əvvəl-axır ciddi siyasi sarsıntılar, inqilabi proseslər olacaq. Bunun konkret nə vaxt, necə və hansı qüvvələr tərəfindən olacağını isə indi söyləmək çətindir".

**"Turan" informasiya agentliyinin direktoru Mehman Əliyev moderator.az-a bildirib ki, Rusiya həmişə ölkəmizdəki seçkilərə təsir etməyə çalışıb. Lakin Mehman Əliyev hesab edir ki, ABŞ-ın bu məsələdə ölkəmizə təsir etmək imkanı Rusiyadan daha çoxdur:** "2013-cü ilin yayında Vladimir Putin Bakıya gəlmişdi. Onun səfəri hərbi komponentlə müşahidə olunurdu. Rusiyanın hərbi gəmiləri Bakı sahillərində dayanmışdı. Lakin Azərbaycandakı seçkilərdə əsas rolu ABŞ oynayır. Rusiya isə ABŞ-ın bu məsələdə vasitəçisidir".

❑ **E.SEYİDAĞA**

# İxtisara düşəcək məmurlar müqavimət göstərə bilərmi...

**Ölkə iqtidarının İslamiada yekunlaşandan sonra kütləvi şəkildə ixtisarlar edəcəyi ilə bağlı yayılan xəbərlər yarış başa çatar-çatmaz gündəmi zəbt etdi. Artıq hakimiyyətin bu istiqamətdə hərəkətə keçdiyi və yaxın günlərdə ilk addımlar atılacağı bildirilir.**



**Qabil Hüseynli:** "Onların adları siyasi rəhbərliyə təqdim olunacaq"



**Natiq Cəfərli:** "Bunun qanuni və sərt yolları olmalıdır"

Redaksiyamıza daxil olan məlumatda ixtisarlarla bağlı hazırlanan sənəddə "yuxarıdan aşağıya" bütün idarəetməni təmizləməyin və operativ komanda yaratmağın nəzərdə tutulduğu bildirilir. Nazirlik və komitələrdə, eləcə də icra hakimiyyətlərində bir neçə müavin ştatının ləğv ediləcəyi qeyd olunur. Vəzifələrini itirən müavinlərin başqa işlərlə təmin olunacaqları, lakin bunun pensiya yaşına çatanlara şamil olunmayacağı söylənilir. Hətta bəzi nazirliklərin digər dövlət qurumlarına birləşdiriləcəyi barədə də fikirlər dolaşır...

Əslində nəqliyyat naziri Ziya Məmmədovun vəzifədən uzaqlaşdırılması və qurumun digər nazirliyə birləşdirilməsi ilə ixtisarlar prosesinin başladıldığı iddia olunur.

Hökumətin geniş ixtisarlar planı ilə bağlı mövqeləri heç də birmənalı deyil. Bu islahatların dövlət büdcəsinə böyük xeyir gətirəcəyi deyilsə də, vəzifələrini itirən məmur ordusunun hakimiyyət üçün başağrısı ola biləcəyi də vurğulanır.

Xüsusilə bu prosesdə böyük vəsaitləri olan iri ranqlı məmurların daha təhlükəli olacaqları iddia edilir.

Hakimiyyətin bu narazılıqları önləmək üçün ixtisarları sürətlə deyil, tədricən aparacağı, amma sonunda bunu mütləq etməyə vadar olduğu bildirilir...

**Sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynli ixtisara düşən məmur ordusunun hakimiyyət üçün təhlükə yarada biləcəyini zənn etmir:** "İxtisara düşənlərin pensiya yaşlarına çatmayıblarsa, başqa işlərlə təmin olunacaqları barədə məlumatlar var. Pensiya yaşına çatmış şəxslərin müqavimət göstərmək imkanları da, haqları da yoxdur. Struktur islahatlarında daha aşağı vəzifəyə göndəriləndər olacaq, bu olmalıdır. Çünki belə islahatlarda kadrlar arasından daha çevik, səriştəli olanı seçilib, birləşmiş strukturda iş başına gətirilir. Bütün bunlar komissiyanın sorğusundan keçməlidir və yəqin ki, keçəcək də. Şəxslər seçilib, onların adları siyasi rəhbərliyə təqdim olunacaq. Əminliklə demək olar ki, dövlət qurumlarında pensiya yaşına çatmış, hətta bu yaşı keçmiş şəxslərin vəzifə başında hələ də qalmaları kütləvidir. Bunu nazirlərə də şamil etmək olar. Ola bilər ki, ixtisara düşən və pensiya yaşına çatmayan məmurlar əvvəlki vəzifələri qədər böyük postlara təyinat almasınlar, amma istənilən halda onların işsiz qalmayacaqları görünür. Ona görə də cəsarətlə demək lazımdır ki, struktur islahatlarının mahiyyətini hər kəs başa düşməlidir. Kiçik bir ölkədə on min vətəndaşa düşən məmur sayına görə az qala dünyada birinci yeri tuturuq. Bu baxımdan, struktur islahatları məmur və işçi sayını optimallaşdırmalıdır. Ola bilsin ki, islahatlar güclü qurbanlar tələb etsin. Amma istənilən halda bu islahatlar insanların incik düşmələrinə səbəb olmamalıdır. Ciddi sosial etirazlar üçün səbəb yoxdur".

**İqtisadçı ekspert Natiq Cəfərli hökumətə kiçik və effektiv idarəetmə modelinə keçməyin çox vacib olduğunu qeyd etdi:** "Rayonların vilayətlərdə birləşdirilməsi vacibdir. Makroiqtisadi göstəricilərə və iqtisadiyyatın strukturlarına baxdıqda bunun qaçılmaz olduğu açıq görünür. Ölkədə muzdla çalışan 1.6 milyon insan var. Bunun təqribən 920 minə yaxını dövlət orqanlarında büdcədən maliyyələşən qurumlarda çalışır. Bu çox böyük rəqəmdir. Kiçik bir ölkəyik, 42-yə yaxın nazirlik, dövlət komitəsi və son dövrlərdə yaradılan publik şəxs statusu olan orqanlar var. Kiçik bir dövlət üçün bu qədər hökumət və dövlət orqanlarının olmasına, bir-birinin işini təkrarlayan qurumların mövcudluğuna nə ehtiyac var? Məsələn, Prezident Administrasiyasında kənd təsərrüfatı şöbəsi var, üstəgəl də Kənd Təsərrüfatı Nazirliyi var. Bunlar bir-birilərinin işini tamamilə təkrarlayırlar. Bu baxımdan, islahatlara getmək mütləq lazımdır. Məmurların təpkilərinə gəlincə, təbii ki, bunlar olacaq. Çünki uzun illərdir ki, əlavə heç bir dəyər yaratmadan, ciddi iş görmədən ölkənin inkişafı üçün maneçilikdən başqa heç nə etməyən böyük məmur ordusu yaranıb. Ölkədə yaranan çətinlikdən, özü də vətəndaş üçün yaranan çətinlikdən istifadə edən məmur ordusu var. Vətəndaşların işlərinə maneçilik yaradan, onları get-gələ salan, rüşvət tələb edən məmur ordusu mövcuddur. Bunun qanuni və sərt yolları olmalıdır. Bu, bir gecənin içində həll olunan məsələ deyil. Parlamentin üç hissədən ibarət paket qəbul etməsinə böyük ehtiyac yaranır. Dünya praktikası da bunu sübut edir. Çox sərt şəkildə bu qanunun həyata keçirilməsi üçün addımlar atılmalıdır. Vəzifələrini itirən məmurların bir müddət vəzifə tutmamaları barədə qərar qəbul edilməli, amma onların biznes fəaliyyətləri ilə məşğul olmalarına şərait yaradılmalı, bununla sağlam rəqabət mühiti formalaşdırılmalıdır. Bunlar qanuni şəkildə olsa, düşünürəm ki, məmurların verə biləcəkləri təpkiləri neytrallaşdırmaq olar, dövlətimizə qarşı olan təhlükələri də önləmək mümkündür. Əgər bu, gizli şəkildə olacaqsa, iri ranqlı məmurların vurulması və əmlaklarının əllərindən alınması yolu ilə həyata keçiriləcəksə, təbii ki, bu zaman onlardan ciddi təpki gözləmək mümkündür. Hətta onların verə biləcəkləri təpkilər dövlətçiliyimiz üçün ciddi təhlükələr yarada bilər".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 113 (6727) 27 may 2017

# Tarixin ən yaddaqalan birinci lediləri...

## "Hər uğurlu kişinin arxasında bir qadın var"... deyimini təsdiqləyən xanımlar

**Belə bir məşhur atalar sözü var: əgər kişi başdırsa, qadın boyundur. Ona görə də dünyanın ən güclü kişiləri qazandıqları uğurlara görə öz həyat yoldaşlarına minnətdardırlar. Tarix bunun kimi çoxlu faktlardan xəbərdardır: Hillari Klinton öz ərinə hakimiyyətə gəlməyə kömək edib. Jaklin Kennedi öz gözəlliyi və ağlı ilə hər zaman ərinin reytinqini yüksəldib. Raisa Qorbaçova isə hər zaman ərindən bir addım arxada dayandığına və ona dəstək verdiyinə görə tarixin məşhur birinci lediləri̇ndən sayılır.**



Güclü kişilərin zövqləri də müxtəlif cür olur. Onlar öz ömür-gün yoldaşlarını çox nadir hallarda xarici görünüşlərinə görə seçirlər. Birinci ledi Jaklin Kennedi kimi ən gözəl qadın da ola bilər, Nina Xruşşova kimi sıradan bir qadın da.

Dünya mediasının gözü Amerika lideri Donald Trampla onun həyat yoldaşı Melania arasındakı gərginliyə zilləndiyi bu günlərdə "Yeni Müsavat" xarici mediaya istinadən dünyanın ən tanınmış, uğur qazanmış birinci lediləri ilə bağlı dosye hazırlayıb.

**Betti Ford**

Keçmiş ABŞ prezidenti Gerald Fordun həyat yoldaşı dünya tarixində özünə yer edib. O, Amerikan qadınlarının abort haqqı qazanması və ABŞ-dakı qadın haqları məsələsində hakimiyyəti sıxışdırması ilə tanınır. ABŞ-ın Kaliforniya ştatında qurduğu, bir çox insanı narkotik asılılığından xilas edən Betti Ford Mərkəzi Forda dünya miqyasında populyarlıq qazandırıb.







Fordun qurduğu mərkəz sayəsində narkotik asılılığından xilas olan məşhurlar arasında Elizabet Teylor, Conni Kaş və Lindsay Lohan kimi adlar da var.

**Karla Bruni**

İtalyan və fransız musiqiçi, fotomodel olaraq bilinir. O, Fransanın keçmiş prezidenti Nikola Sarkozinin həyat yoldaşı. Bruni 1900-cü illərdə ən çox pul qazanan super model idi. Modellik karyerasından sonra musiqi bazarına qatılıb və 2002-ci ildə fransızca səsləndirdiyi 'Quelqu'un m'a dit' adlı musiqi albomunu çıxardı. 2 fevral 2008-ci ildə isə fransız prezidenti Nikolas Sarkozi ilə Yelisey Sarayında evləndi.

**Nensi Reyqan**

Keçmiş ABŞ prezidenti Ronald Reyqanın dul arvadı 1981-ci ildən 1989-cu ilə qədər birinci ledi vəzifəsini icra edib. 1940-cı və 1950-ci illərdə Hollivudda aktrisalıq edib, hətta bəzi filmlərdə baş rolu öz üzərinə götürdü. 1952-ci ildə o vaxtlar Sinema Aktyorları Lojasının rəhbəri olan Ronald Reyqanla evləndi. İki uşaqları oldu. Birinci ledi dönəmində narkotikaya qarşı təşkil olunan "Yox desəniz bəsdir" (Just Say No) kampaniyasını dəstəklədi.

**Barbara Buş**

Amerika Birləşmiş Ştatlarının 41-ci prezidenti olan H.V. Buşun həyat yoldaşı, Laura Buşun qayınanasıdır. Buş birinci ledi olduğu dönəmdə "Barbara Buş Ailə ədəbiyyat vəqfini" qurub, dünya ədəbiyyatını dəstəkləyib. Ağ Evi tərk edəndən sonra vəqfdəki fəaliyyətinə davam edib.

**Eleanor Ruzvelt**

Bu günə qədər Ağ Evdə ən uzun müddət qalan birinci ledi statusundadır. Dünyanın birinci ledisi adlandırılan Eleanor Ruzvelt bir çox insan haqlarına yönəlmiş fəaliyyətləri ilə uğur əldə edib. Həm qadın haqları, həm də Afrika və Asiya əsilli amerikanların haqları üçün mübarizə aparan biri idi.

**Mişel Obama**

Mişel Obamanın qızlıq soyadı La Von Robinsondur. Mişel 1964-cü il yanvarın 17-də Çikaqoda dünyaya gəlib. 1985-ci ildə Prinston Universitetini sosiologiya ixtisası üzrə, 1988-ci ildə isə Harvard Hüquq Məktəbini bitirib. Mişel Obama hüquq doktorudur. İlk iş yeri "Sidli Ostin" hüquq firması olur. Mişel burada marketinq və intellektual mülkiyyət qanunvericiliyi sahəsində ixtisaslaşır. Barak Obama ilə də o, firmada işləyərkən tanış olur. Və bu tanışlıq evliliklə nəticələnir. Barak Obama qaradərili sevgilisi hüquqşünas Mişellə 1992-ci il oktyabrın 3-də evlənir. Onların 2 qız övladları var - Maliya və Saşa.

Mişel 1992-ci ildə Çikaqo merinin köməkçisi, daha sonra isə meriyanın planlaşdırma və inkişaf üzrə komissar müavini vəzifələrində çalışır. 1993-96-cı illərdə qeyri-kommersiya qurumlarında çalışan xanım Obama daha sonra Çikaqo Universitetində dekan köməkçisi olur. 2002-ci ildə Mişel Obama həmin universitet nəzdində Akademik Tibb Mərkəzinə icraçı direktor təyin olunur. 2005-ci ildən həmin mərkəzin vitse-prezidentidir.

**Laura Buş**

ABŞ-ın 43-cü keçmiş prezidenti Corc Buşun həyat yoldaşıdır. ABŞ-ın 2001 - 2009 illər arasında birinci ledisi olub. Laura Buş eyni zamanda kitabxanaçı, yazar və müəllimədir. Birinci ledi olaraq səhiyyə, təhsil və ədəbiyyatla bağlı bir çox fəaliyyətləri olub.

**Valerie Trierveiler**

Fransanın siyasət jurnalisti, eləcə də onun birinci ledisi. O, Sarbonna Universitetində siyasət sahəsi üzrə təhsil alıb. Fransanın prezidenti François Hollandla bir müddət nikahsız yaşadıqdan sonra evləniblər, evli olmasına baxmayaraq, elmi fəaliyyətinə davam edib.

**Hillari Klinton**

Amerikanın 67-ci xarici işlər naziri, eyni zamanda ölkənin 42-ci prezidenti Bill Klintonun həyat yoldaşıdır. 1993-2001-ci illərdə ABŞ-ın birinci ledisi oldu. Əsas peşəsi isə vəkillikdir.

**Jacqueline Kennedi**

35-ci Amerika prezidenti John F. Kennedinin dul həyat yoldaşıdır. 1961-ci ildən Kennedinin öldürüldüyü 1963-cü ilə qədər ABŞ-ın birinci ledisi olub. Bir müddət redaktorluq edərək, sənətə və tarixi əsərlərin qorunmasına dair önəmnli işlər görüb.

**Mehriban Əliyeva**

Azərbaycanın birinci ledisi dövlət başçısı İlham Əliyevlə hələ tələbə olarkən ailə qurub. Həmin vaxt Azərbaycan Tibb Universitetində təhsil alan Mehriban xanım Əliyeva ali məktəbi qırmızı diplomla bitirib. Üç övlad dünyaya gətirib, hər zaman cazibədar görünüşü, ictimai-siyasi fəallığı ilə cəmiyyətin diqqətini cəlb edib. Birinci ledi müsahibələrindən birində belə deyib: "Mən 20 il boyunca Heydər Əliyev kimi bir insanın ailəsində yaşamışam. Bizim ailəmiz hər zaman bir yerdə olub. Biz həm çətin illərdə, həm də xoşbəxt anlarda onun yanında olmuşuq".

M.Əliyeva siyasi karyerasında da diqqətçəkən uğurlara imza atıb. Həm rəhbərlik etdiyi Heydər Əliyev Fondunda gördüyü işlər, həm də millət vəkili, hazırda isə birinci vitse-prezident kimi fəaliyyəti ictimaiyyətin diqqətindədir.

❑ **Sevinc TELMANQIZI**

# Tərtəri heç siz də sevmədiniz...



**Kənan RÖVŞƏNOĞLU**

**2000-ci illərin əvvəlləri idi. Bakıda, Nizami rayonunda kirayədə qalırdıq. Blokumuzun qarşısında Qarabağ müharibəsi şəhidinin şəkli ilə düzəldilmiş bulaq bardı, əslində ona su kranı da demək olardı. Eşitmişdik ki, bu binanın sakini imiş, gənc yaşda Qarabağda şəhid olub. Yaşlı bir kişi vardı, şəhidin atası, ara-sıra həyətdə qarşımıza da çıxardı. Bir gün otaq yoldaşım dedi ki, şəhid atası ilə söhbət edib, bizim haralı olduğumuzla maraqlanıb, mənim tərtərli olduğumu biləndə "xaraba qalsın oranı, oğlum orda öldü", deyib. O zaman pis təsir etsə də, ağsaqqala bir söz demədim, nə də olmasa şəhid atası idi.**

Oxşar söhbəti uzun illər sonra bir tanış danışırdı, deyir ki, Amerikada Kaliforniyada kafedə təsadüfən bir erməni ilə rastlaşıblar. Azərbaycandan olduqlarını biləndə gəlib tanış olub, söhbətləşib. Sonra haralı olduqları ilə maraqlanıb, azərbaycanlılardan birinin tərtərli olduğunu biləndə tutulub, çox əsəbiləşib, "oğlum orda öldü" deyib. Belə hekayələr çoxdur...

Bilənlər bilir, rayondan, kənddən yazmıram. Son illərdə xüsusən Yaxın Şərqdən yazdığım üçün diqqətimdə olmayıb. Həm də artıq müharibə də bitib, Tərtər kimə lazımdır? Daha bir vacib detal odur ki, yaza bilmirik, çünki rayondan bir şey yazan kimi, hamıdan qabaq qohum-əqrəba minnətçi düşür, hamının rayonda hökumətdə işləyən "çörək gətirəni" var.

Amma indi daha ondan keçib. Tərtərin yerləşdiyi cəbhə xəttində müharibə aparan ölkə üçün ciddi minus sayılacaq hadisələr baş verib. Heç bir ölkənin, xalqın sığortalanmadığı hadisələr. Ağırdır, amma bu hadisənin baş verdiyi coğrafiya ilə əlaqəsi yoxdur.

Hər zaman düşünmüşəm ki, qəhrəman və ya qorxaq xalq olmur, çünki qəhrəmanlıq və qorxaqlıq fərdi keyfiyyətdir, üstəlik hətta bəzilərinə görə, situasiyaya görədir. Yəni bir situasiyada qəhrəman olan, başqa vəziyyətdə qorxaq ola bilər. Xalqları qəhrəman və ya məğlub vəziyyətə salan liderlərdir. Bir zamanlar özbəklər Əmir Teymurun liderliyi altında Moskva və Ankaranı işğal etmişdi. İndi də həmin xalqdırlar, amma eyni nəticə yoxdur.

Çoxları bilir, Tərtərdə hər kənddə kənd qəbiristanlığının içində bir də "Şəhidlər məzarlığı" var. Amma on dəfələrlə çox Azərbaycanın fərqli bölgələrindən gəlmiş insanlar Tərtərdə savaşıb. Qəhrəmancasına şəhid olub. Çünki ermənilər ən son günə qədər Tərtəri işğal etmək, zərbə vurmaq istəyirdilər. 1994-cü il mayın 12-də atəşkəs imzalanıb, amma Bişkekdə imza gününə qədər Tərtərin kəndlərinə hücumlar davam edib. Mayın 8-də erməni qüvvələri Qapanlı kəndinin içinə girmişdilər, bəlkə də Qarabağ müharibəsinin ən şiddətli döyüşləri gedirdi o günlərdə. Əlavə ordu qüvvələri "OMON" qüvvələri hamısı Qapanlıya cəlb olunmuşdu. Ermənilər Qapanlıya girəndə - bunu o dövrün şahidləri yaxşı xatırlayar - batalyon komandiri, icra başçısı mərhum Sərdar Həmidov əlinə silahını alıb piyada Qapanlıya soxulmuş ermənilərə hücum etmişdi. Məhz Sərdar bəyin və o döyüşlərdə şəhid olan, savaşan minlərlə əsgərin sayəsində o gün Qapanlı və ümumilikdə Tərtər işğal olunmadı. Bunu da şahidlər təsdiqləyər, 1994-cü ilin may döyüşlərindən sonra Qapanlı ilə "Qırmızı Kənd" arasındakı taxıl sahələri erməni leşləri ilə dolmuşdu...

23 il keçib, amma ermənilər o zərbəni hələ də yaşayırlar. Hətta Kaliforniyaya qədər aparırlar özləri ilə. Çünki Qarabağ savaşında ən irimiqyaslı məğlubiyyəti, ən ağır döyüş itkisini orda verdilər. Ermənilərin nifrətinin səbəbi bəllidir, amma heç siz də o qədər sevmədiniz o torpaqları. Amma sevmək lazımdır, itirdiyimiz, itirmədiyimiz torpaqlarımız qədər. Çünki Tərtəri qorumaq üçün minlərlə Azərbaycan əsgəri qanını axıdıb o torpaqlarda, şəhid qanı tökülən torpaqlar müqəddəs olur.



# "Səhər durdum vermişel yedim..."

Zamin HACI
zaminhaci@gmail.com

**Böhran, kasıbçılıq millətimizi üzməkdədir. Bunu cürbəcür detallardan görmək olur. Məktəbli uşaq sənə salam verir, baxırsan bütün dişləri kariesdən çürükdür, qapqaradır. Deməli, valideynin bu dişləri müalicə etdirməyə pulu olmayıb. Eyni zamanda dişlərin bu cür sürətli, kompleks çürüməsi vitamin çatışmazlığının, düzgün qidalana bilməməyin nəticəsidir.**

Dükandan iki balaca uşağı ilə ata çıxır. Hər iki əlində dolu zənbillər var, ancaq hamısı makaron və vermişeldir. Bəlkə yalan olmasın 8 cür makaron-vermişel alıb. Balaca, uzun, fiqurlu, qovrulmuş... Uşaqlar isə kassa yaxınlığındakı, zalımcasına əl çatan yerə qoyulmuş rəngarəng örtüklü uşaq yeməklərinə, şirniyyatlara həsrətlə baxırlar. Millət çörəyi çörəklə yeyib başını girləməyə çalışır. Bir neçə il qabaq hakimiyyətlə ciddi konflikt yaşayıb həbsə düşən, mühacirətə məcbur olan musiqiçi, reper Camal Əlinin "Vermişel" mahnısı qulaqlarımda səsləndi bu mənzərəyə baxanda:

***"Səhər durdum vermişel yedim,***
***Günortaya eyni şey yedim.***
***Dedim axı belə olmaz,***
***Çıxıb küçəyə bir şey yedim".***

Eyni zamanda rus yazıçısı Eduard Limonovun bir intervüsünü xatırladım. Limonov da SSRİ dövründə Camal Əlinin taleyini yaşayıb - mühacirət etmişdi. İntervüdə deyir ki, bir dəfə bir amerikalı dostuma sual verdim: "Necə olur siz amerikalılar belə yekəpərsiniz?" Amerikalı deyib ki, biz neçə nəsildir ət yeyirik, ona görə nəhəngik.

Baba parkda nəvəsini gəzməyə çıxarıb. Uşaq maşın sürüb, baba 1 manatı verib, ancaq bundan artığına imkanı yoxdur - cibindən çıxartdığı əzik-üzük manatlar dilənçi payı pensiyasının son damcılarıdır. Uşaq isə əl çəkmir, yelləncək, batutda hoppanmaq istəyir. Babanın özünüqoruma instinkti işə düşüb. Yalanlar uydurur: "Ora toz içindədir, girsən nə günə qalarsan", "Sən axı yekə kişisən, nə yelləncək?"... Bu artıq diplomatik gedişdir. Uşağın isə cəmi 4-5 yaşı var. Ancaq yekə kişi olmasından qürurlanıb könülsüz də olsa aralanır.

Millətimizin təhsil, uşaq, məktəbli sferasında müzakirə temalarına isə dünyanın ən yaxşı təhsil sistemləri olan Finlandiya, Almaniya, Yaponiya və başqa dövlətlər həsəd apara bilər. Dərs ilinin sonudur, biz nəyi müzakirə edirik? Dərs ilinin təqvimini. Sentyabrın 15-də başlayıb, iyunun 15-də bitməsini. Əcəb saqqızdır. Bunu çeynəmək üçün fikirləşən adama mükafat düşür. (Misal üçün, Barselonaya iki nəfərlik səfər putyovkası). O qədər axmaq və mənasız dəyişiklikdir ki, heç bilmirsən nə deyəsən. Guya dərslər 1 sentyabrda başlayıb 31 mayda bitsə nə olacaqdı? Ancaq indi əməllicə "qafiyə açılıb". Hətta bir yerinlə göyə çıx, xeyri yoxdur, köhnə sistem bərpa edilməyəcək. Nazirliyin sözçüsü bu temada imza toplayanlara elə bu cür də dedi: qərar verilib, geriyə oxuna bilməz. Əlbəttə. Bu axı aksiomdur. İki dəfə iki dörd eləyir. Bunu necə dəyişəsən? Hərçənd, zəhləmgetmiş ifadə ilə yazsam, "müvafiq orqanların" yerinə olsam dərs ilinin təqvimini dəyişib 16 sentyabrdan 16 iyuna qədər eləyərdim. Bir neçə il də yetim valideynlər bunu müzakirə eləyərdilər. Hətta siyasi baxımdan əsaslandırmaq da olar: "Dərs ili 16 iyuna qədər çəksə məktəblilər və müəllimlər 15 iyun yapçıların qurtuluş gününü təntənəli qeyd etmək imkanı qazanar".

Doğrudan, bu niyə indiyə qədər heç kəsin ağlına gəlməyib, heyrətamizdir. Alimlərimiz milçək tutunca gərək belənçik pedaqoji hadisələri araşdırsınlar, əsaslandırsınlar. Ümid edirəm keçmiş rabitə naziri Əli Abbasovun AMEA prezidentinə müşavir qoyulmasından sonra belə elmi kəşflər daha da sürətlənəcəkdir.

# "Bir neçə dəqiqəyə Xocalıdakı aeroportu məhv etməyə qadirik"

## **General-leytenant Yaşar Aydəmirov:** "Xocalıdakı dispetçer məntəqəsini sıradan çıxarmaq kifayət edər ki, ermənilər bu şouya son qoysun"

**İşğalçı Ermənistanın, həmçinin Qarabağdakı separatçı rejimin rəhbərliyinin son zamanlar dövriyyəyə buraxdığı yeni avantürist məlumatlara Azərbaycandan verilən kəskin və operativ reaksiyalar, deyəsən, təsirsiz ötüşməyib. Hər halda, erməni mətbuatında Bakıdan verilən reaksiyalara yer ayrılması da bundan xəbər verir.**

Bir neçə il əvvəl də işğalçı ölkə Xocalı aeroportundan istifadə edəcəyi barədə mövqeyini ifadə edəndə kəskin cavab almışdı, daha sonra mövzunu qapatmağa vadar olmuşdu. Görünür, havadarlarının davranışları və müxtəlif səviyyələrdə işğalı təqdir edən addımlar Ermənistanı daha da irəli getməyə həvəsləndirir. Lakin növbəti nəbz yoxlanışı nəticəsində Bakının öz prinsiplərindən geri çəkilməyəcəyini anladıqları üçün mövzunu arxa plana keçirməyə üstünlük verirlər. Qeyd edək ki, düşmən ölkə işğalı altında olan Azərbaycan ərazilərində "ekstremal turizm" adı ilə ikinəfərlik, tək motorlu təyyarələrlə uçuşlara başladıqlarını da iddia edib. Məlumatlarda uçuşların həm Xocalı aeroportundan, həm də Şuşa ilə Xankəndi arasında ediləcəyi deyilir. Aydın məsələdir ki, kiçik mülki təyyarələr adı altında işğalçılar hava limanını işə salmaq, daha sonra ondan hərbi məqsədlər üçün istifadə etmək istəyir.

**Düzdür, Ermənistanın nə qədər təhlükəli oyun oynadığını erməni ekspertlər də təsdiqləyir, amma İrəvan hələ ki ssenariyə uyğun oynayır. Məsələn, politoloq Manvel Sarkisyan deyib ki, 25 il ərzində Ermənistan Qarabağ məsələsində irəliləyiş əldə edə bilməyib.** "Çünki bu torpaqlar Azərbaycanın suveren ərazisidir və beynəlxalq hüquqda bu belədir" - o, əlavə edib. "Biz "danışıqlarla torpaqları verək, əvəzində Qarabağın özünü idarəetməsinin tanınmasını qazanaq" fəlsəfəsindən əl çəkməsək, həm torpaqları itirəcəyik, həm də tanınmanı əldə edə bilməyəcəyik". Bunu isə diplomat Arman Məlikyan söyləyib. Göründüyü kimi, soyuq başla düşünən ermənilər reallığı yaxşı dərk edirlər. Azərbaycan ərazisində işğalçı ölkənin aeroport tikib istifadəyə verməsini nə Bakı, nə də beynəlxalq ictimaiyyət qəbul etməyəcək.

Artıq Bakı bəyan edib ki, işğal olunmuş ərazilərdə Azərbaycanın hava məkanında uçuş edən istənilən hava nəqliyyatı vurulacaq. Məsələ ilə bağlı Azərbaycan Dövlət Mülki Aviasiya Administrasiyası bəyan edib ki, Xocalı hava limanından hər hansı qanunsuz uçuşlara qarşı Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları tərəfindən "Aviasiya haqqında" Qanuna və "Azərbaycan Respublikasının hava məkanından istifadə Qaydaları"na uyğun tədbirlər görüləcək.

Yeri gəlmişkən, Azərbaycanın dinc sakinləri daşıyan bir neçə mülki vertolyotunu erməni işğalçıları Qarabağ müharibəsinin ilk illərində vurublar. Dövlət rəsmilərini sülh danışıqlarına aparan helikopterin Qarakənd səmasında vurulmasını da unutmamışıq. Bu mənada Ermənistan hansısa "mülki uçuşlar" nağılını bir kənara qoysa, yaxşıdır. Azərbaycanın hərbi qüdrəti düşmənin istənilən obyektini vurmağa imkan verir. Elə bunu hərbi ekspertlərimiz də deyir.



**Hərbi ekspert, ehtiyatda olan polkovnik Xətai Baxışov məsələ ilə bağlı milli.az-a açıqlamasında deyib ki, yer tutumundan və gücündən asılı olmayaraq, Azərbaycanın hava məkanında qanunsuz uçuş edən istənilən obyekt vurulmalıdır:** "Ermənilər deyir ki, bunlar təkmotorlu, ikinəfərli təyyarələrdir. Belə təyyarələr isə adətən aşağıdan, dağların arası ilə uçur. Ermənilər bilir ki, belə halda texniki baxımdan onları radarlar tuta bilmir. Ona görə də belə təyyarələrin tutulması və vurulması çətin olar. Onlar yalnız hündürdən uçsalar, radarlar onları tuta bilər. Amma bütün hallarda ərazilərimizdə qanunsuz uçuş edən təyyarələr vurulmalıdır. Bu gün ermənilər ikinəfərlik, təkmotorlu təyyarələrdən istifadə edir, sabah çoxmotorlu, çoxnəfərlik təyyarələr də ola bilər. Biz onların mülki və ya hərbi təyinatlı və içində kimlərin olduğunu bilmirik. Ona görə də onlar mütləq vurulmalıdır. Müdafiə Nazirliyi hələ ötən dəfə Xankəndi aeroportundan istifadə məsələsi ortaya çıxanda bəyan etmişdi ki, qanunsuz uçuş edən təyyarələr vurulacaq".

**Ehtiyatda olan general-leytenant Yaşar Aydəmirov isə "Yeni Müsavat"a bildirdi ki, Azərbaycanın hava hücumundan müdafiə sistemləri təkcə Xocalı aeroportunu deyil, işğal olunmuş bütün ərazilərdə istənilən uçuş aparatlarını məhv etmək imkanına qadirdir:** "Həmin ərazilər Azərbaycana məxsusdur və ölkəmizin Hava Hücumundan Müdafiə Qoşunları onları məhv etmək iqtidarındadır. Ölkə rəhbərliyi də bunu dəfələrlə bəyan edib. Lakin buna baxmayaraq, ermənilər bu cür məlumatlarla vəziyyəti gərginləşdirməyə çalışırlar. Ona görə də ermənilərin niyyəti əslində uçuşlar həyata keçirmək yox, belə məlumatlarla Azərbaycanı qıcıqlandırmaqdır. Düşmənin mövqelərini susdurmağa, uçuşlarının qarşısını almağa qadir olan, adları açıqlanmayan, geniş ictimaiyyətə yayımlanmayan vasitələr var, amma hələ ki o barədə açıq danışmaq istəmirəm. Bu gün nəinki Laçın dəhlizi üzərində, yaxud işğal altındakı digər ərazilərimizin səmasında, həmçinin Ermənistan üzərində uçan bütün uçuş aparatları, təyyarələr və helikopterlər nəzarət altındadır. Onlardan Azərbaycana qarşı hər hansı təhlükə olarsa, dərhal məhv edilə bilər. Üstəlik, Naxçıvan Muxtar Respublikasındakı qoşun hissələrindəki müasir hava hücumundan müdafiə sistemləri ilə də düşmənə layiqli cavab vermək gücündəyik. Hər kəs bilməlidir ki, Azərbaycan öz ərazisində qeyri-qanuni uçuşlar həyata keçirmək istəyən işğalçı ölkənin obyektlərini məhv etmək imkanına malikdir".

**Y.Aydəmirov deyir ki, düşmən ölkədən hətta Bakıya təhdidlə dolu bəyanatlar səsləndirilməsi sadə adamlarda xof yaratmaq niyyətindən irəli gəlir:** "Əgər onlarda belə cəsarət və imkan varsa, buyursunlar, görək nə edə bilərlər? Demək istəyirəm ki, bacarırsınzsa, buyurun, döyüşə başlayın! Ötən ilin aprelində üç bölüyümüz cavab həmləsinə keçən kimi, düşmən əsgərləri ön xətdən qaçıb dağılışdı, hətta Dağlıq Qarabağdakı əhali kütləvi şəkildə köçürülməyə başladıldı. Belə olan halda ermənilər bizə nə ilə "xox" gəlirlər, hansı silahlarla? Təkcə işğal olunmuş ərazilərdə yox, Ermənistanın öz ərazilərində düşmənin atəş nöqtəsini susdurmağa qadirik. Onlar köhnədən olan silahların modernləşdirilməsini belə aparmaq imkanında deyillər. Rusiyadan yalvar-yaxar silahlar almaq üçün yüz dona girirlər. Bununlamı bizimlə vuruşmaq istəyirlər? Bizdə hər hansı köhnə silah qalmayıb, ordumuz ən müasir silahlarla təchiz olunub, düşmən bunu gözəl bilir. Ona görə də peşəkar hərbçilər bu vəziyyətlə bağlı üzə çıxmaq istəmirlər, kənarda dayanırlar".

**Hərbi ekspert dedi ki, Xocalı aeroportu işə salınacağı anda ordumuzun onun sıradan çıxarılması qərarını verməsinə xaricdən hansısa qüvvə mane ola bilməz:** "Dağlıq Qarabağ bütün beynəlxalq təşkilatlar tərəfindən Azərbaycanın ərazisi kimi tanınıb. Sadəcə, vəziyyəti gərginləşdirmək istəmir. Bir neçə dəqiqə ərzində reaktiv yaylım sistemləri ilə, həm də raket-artilleriya bölmələri, həmçinin Ali Baş Komandana tabe olan vasitələrlə Xocalı aeroportunu məhv etməyə qadirik. Xocalıdakı dispetçer məntəqəsini sıradan çıxarmaq kifayət edər ki, ermənilər bu şouya son qoysun. Həmçinin qalxma-enmə zolağını da müxtəlif vasitələrlə sıradan çıxarmaq imkanı var. Şuşada ola bilər helikopterlər üçün qalxma-enmə sahəsi ayıra bilərlər. Amma orada aeroportun olması mümkün deyil. Bu da reklam xarakteri daşıyır".

**Y.Aydəmirov dedi ki, aprel döyüşləri ölkəmizin gücünü göstərsə də, Azərbaycan böyük savaşın başlamasını istəmir:** "İri dövlətlər də Azərbaycanın irimiqyaslı hərbi əməliyyatlara başlamasına mane olur. Ancaq işğalçı bizi savaşa təhrik edir. Bu mənada müharibə hər an başlaya bilər, ermənilər bununçün şərait yaradırlar. Bilməlidirlər ki, Azərbaycan "İsgəndər"dən də güclü silahlara malikdir. "İsgəndər" hədəsindən sonra prezident ilk dəfə yeni zenit-raket kompleksinin atışına icazə verdi, hansı ki, neçə müddət idi alınmışdı. Ermənistanı arxasındakı qüvvələr tətikləyir, öz iradəsi yoxdur. Əminəm ki, şərait yaransa, Sərkisyan qaçıb aradan çıxar. Necə ki, aprel döyüşlərindən sonra nə qədər generalları vəzifədən azad etdilər".

❑ **E.PAŞASOY**

# “Yeni müharibəyə bir addım qaldı”



# BMT qətnamələri Azərbaycan əsgərinə tapşırılır!

## Qarabağ ətrafında son durum ekspertlərin gözündə; **ABŞ-ın SSRİ-dəki sabiq səfiri:** “Vəzirov o vaxt mənə dedi ki...”; erməni politoloqlardan SOS kimi etiraflar: “Vəziyyətimiz gündən-günə pisləşir”, “Azərbaycanın Qarabağ üzərində hüququ qaldıqca, heç nə edə bilməyəcəyik...”

**Qarabağ münaqişəsi zonasında vəziyyət getdikcə daha böhranlı mərhələyə girməkdədir. Sülh danışıqlarında davam edən fiaskolar, erməni tərəfin təmas xəttində artan təxribatları, o sırada az öncə düşmənin “OSA” zenit-raket kompleksini ön mövqeyə çıxarmaq cəhdi və Xocalı aeroportu ətrafında provokasiyası, üstəgəl, hərbi əməliyyatlar üçün ən əlverişli sayılan yay mövsümünün yaxınlaşması situasiyanı, faktiki, partlayış həddinə çatdırıb.**

Vəziyyətin həm də sülh danışıqlarındakı durğunluqdan qaynaqlanan kritik xarakteri, habelə mümkün gözləntilər yerli və əcnəbi təhlilçilərin diqqət mərkəzindədir. Onların əksəriyyətinin fikrincə, Qarabağda müharibə, faktiki, bir addımlıqdadır və adi qığılcıma bənddir. Konkret olaraq, erməni siyasi şərhçilərini isə Ermənistanın həm dinc dönəmdə, həm müharibə variantında Azərbaycanla müqayisədə hüququ mövqesizliyi ən çox narahat etməkdədir.

*****

**“Mövcud status-kvo Qarabağ danışıqlarında Ermənistanın vəziyyətini günü-gündən pisləşdirir”. Virtualaz.org xəbər verir ki, bunu Ermənistanın keçmiş xarici işlər naziri, fövqəladə və səlahiyyətli səfir Arman Melikyan deyib. Melikyanın sözlərinə görə, Dağlıq Qarabağın statusu əvvəl necə havadan asılı qalmışdısa indi də elədir.**

**“Əgər əvvəllər danışıqlar ”ərazilərin əvəzində status" formulu əsasında aparılırdısa, indi “ərazilərin əvəzində vəziyyətin yaxşılaşması” haqda danışırlar"** - o bildirib. Keçmiş xarici işlər naziri deyir ki, 1993-cü ilin payızından etibarən Ermənistan rəsmən münaqişənin tərəfi kimi tanınıb, nəticədə məsələ beynəlxalq səviyyəyə qalxıb: “Azərbaycan isə Ermənistanın işğalçı dövlət kimi tanınmasına nail olmağı əsas vəzifəsi elan edib. Dağlıq Qarabağ tərəf kimi danışıqlardan kənarlaşdırılıb”.

“Problem beynəlxalq miqyasda belə qəbul edilməyə başladı ki, bu münaqişə Ermənistanla Azərbaycan arasındadır, Ermənistan Azərbaycan torpaqlarını işğal edib və onları heç bir ilkin şərt irəli sürmədən qaytarmaq lazımdır. İndiyə qədər biz danışıqlarda belə fəlsəfəyə əsaslanırıq ki, Dağlıq Qarabağın öz müqəddəratını təyin etməsinin əvəzində biz torpaqları qaytarmalıyıq, yəni biz həm torpaqları veririk, həm Dağlıq Qarabağın tanınmasına nail olmuruq” - Melikyan bildirib.

**Keçmiş nazir daha sonra deyib ki, “Madrid prinsipləri”ndə də ərazilərin qaytarılması əksini tapıb və həmsədrlər də bununla razıdır, Ermənistanın torpaqları qaytarmasını istəyir.** “Lakin çoxları sual edir ki, necə? Regionda yeganə real təsiri və nüfuzu olan həmsədr ölkə Rusiyadır. Onun da Ermənistanda nüfuzu getdikcə zəifləyir. Əgər Rusiya torpaqların qaytarılmasını təşkil edərsə, ABŞ buna qarışmalı deyil, çünki bilir ki, nəticədə Rusiyanın Ermənistandakı mövqeləri zəifləyəcək. Onlar Ermənistanı əldən vermədən səbrlə gözləyə bilərlər. Aprel müharibəsi ola bilsin buna hazırlıq idi. Bu, çoxlarına düşünməyə əsas verdi. Bu faktdır ki, ərazilərin qaytarılması məsələsi bu gün Rusiya tərəfindən qarşıya qoyulub, özü də ciddi şəkildə. Və bu haqda fikirləşmək, nəticələrini dərk etmək lazımdır” - Melikyan əlavə edib.

*****

**Öz növbəsində başqa bir erməni ekspert, politoloq Manvel Sərkisyan hesab edir ki, Ermənistan heç vaxt Dağlıq Qarabağı müstəqil dövlət kimi tanımayacaq və bunun səbəblərinə aydınlıq gətirir. Musavat.com-un erməni mənbəyinə istinadən verdiyi xəbərə görə, bu barədə o, İrəvandakı dəyirmi masada söyləyib.**

“Bütün dünya deyir ki, Dağlıq Qarabağda status-kvo təhlükəlidir və onu dəyişmək lazımdır. Lakin heç kim dərinə getmir ki, bu, nəyə gətirə bilər. 25 ildə heç nə baş verməyib, çünki ilk növbədə Azərbaycan mühüm bir məqamdan istifadə edir: bütün dünya bu əraziləri suveren Azərbaycanın tərkib hissəsi kimi tanıyır” - Sərkisyan qeyd edib.

**Onun sözlərinə görə, Bakı elə bir siyasət yürüdür ki, bu ərazilər üzərində hüquqlar nəsildən-nəslə keçsin və başqa heç kimə verilməsin:** “Ermənistan fasiləsiz şəkildə bəyan edir ki, bu və ya digər şərtlər altında biz Dağlıq Qarabağın müstəqilliyini tanıya bilərik. Amma heç cür tanıya bilmir. ”Artsax"ın az qala, məhv olmaq üzrə olduğu müxtəlif anlar yaşanıb. Ancaq biz dəfələrlə görmüşük ki, Ermənistan hakimiyyəti tanınma məsələsinə inadlı müqavimət göstərib, hətta prezident istefaya getməyə hazır idi. Sonra bu mövzuda Serj Sərkisyan möhtəkirlik etməyə başladı: dedi ki, müharibə başlasa, biz tanınma addımına gedəcəyik. Müharibə oldu, lakin yenə tanımadı. Bu, heç vaxt da olmayacaq".

**Erməni ekspertin qənaətincə, nə qədər ki, Azərbaycanın Dağlıq Qarabağ üzərində hüququ qalır, dəyişiklik olmayacaq.** “Azərbaycan bu hüququndan məhrum edilməlidir. 25 il ərzində bu məsələyə tabu qoyulub və heç bir danışıq prosesini inkişaf etdirmək olmur. Elə bir vəziyyət yaranıb ki, biz yalnız Azərbaycanın hüquqları olan bir müharibəyə girə bilərik. Aprel müharibəsi buna parlaq sübutdur. O zaman heç kim Azərbaycanı ittiham eləmədi. Ona görə ki, Azərbaycan bəyan edir ki, bura mənim ərazimdir. Biz bu barədə fikirləşməliyik ki, necə edək, Azərbaycanı bu hüquqlardan məhrum edək. Həmin hüquqlar qaldıqca, Ermənistan heç nə edə bilməyəcək”, - deyə o, bədbinliklə vurğulayıb.

*****

Ermənistanın Dağlıq Qarabağı ilhaq eləməsi yolunda ən böyük əngəl də elə bölgənin beynəlxalq hüquqa əsasən Azərbaycanın suveren ərazisi sayılmasıdır. Azərbaycan bu hüququ özündə saxladıqca heç bir qüvvə onun ərazisini zorla dəyişdirə bilməz. Müharibə zamanı da eyni hüquq Azərbaycana məxsus olaraq qalacaq. Bu da o deməkdir ki, öz ərazimizdə bizim antiterror əməliyyatı aparmağa heç kim əngəl yarada bilməz. Odur ki, ermənilərin təlaşı əsaslıdır. Lakin heç vaxt aradan qalxmayacaq bir təlaşdır, çünki Azərbaycan öz torpaqlarında ikinci qondarma erməni dövlətinin qurulmasına heç vaxt razı olmayacaq.

**Bu xüsusda “soyuq müharibə” dönəmində ABŞ-ın SSRİ-dəki səfiri işləmiş Cek Metlokun AzadlıqRadiosunun erməni redaksiyasına müsahibəsində Dağlıq Qarabağ mövzusunda söylədiyi fikirlər də maraq doğurur. Musavat.com-un məlumatına görə, eks-diplomat hesab edir ki, fövqəldövlətlər Ermənistanın və Azərbaycanın yerinə problemi həll etməyəcək. “Hər bir ölkə özü qərar verməlidir - o, müharibə eləmək istəyir, yoxsa sülhün yolunu tapmaq istəyir”, - deyə təcrübəli diplomat qeyd edib.**

**Keçmiş səfir daha sonra Qarabağ konflikti təzə-təzə alovlanarkən regionda olduğunu xatırladaraq deyib:** “1989-cu ildə mən burada olanda və birinci katiblərlə söhbət edən zaman sarsıldım. O vaxt İrəvanda cənab Arutunyan, Azərbaycanda isə - səfir Vəzirov birinci katib idilər. Onların hər biri mənə bunu demişdi: ”Biz Qarabağ problemini həll edə bilmirik. Moskva bunu bizim yerimizə etməlidir". Lakin xarici güclər sizin əvəzinizə problemi həll etməyəcək, özünüz onu həll etməlisiniz. Güclü hərbiyyəsi olan dövlətlər çox şeyi dağıda bilər, ancaq qura bilməz".

*****

**Əslində sabiq səfir haqlıdır. 25 ildir kağız üstündə qalan BMT TŞ-nin Qarabağa dair məlum qətnamələrinin yerinə yetirıiməsini nə ABŞ, nə də Rusiyadan gözləməyə dəymir. Bunu Azərbaycan əsgəri etməlidir. İnşallah, edəcək də.**

❑ **Sİyasət şöbəsİ**

# Abituriyent valideynlərinin zəif damarı



**Xalid KAZIMLI**

**Qəbul imtahanlarından çıxacaq övladlarını həyəcanla, intizarla gözləyən valideynləri dəfələrlə görmüşəm. Onlarla istər-istəməz söhbət etmişəm və bir şeyə əmin olmuşam: əksər valideynlər istəyir ki, nə olur-olsun, övladı imtahanı yaxşı versin, suallara düzgün cavab yazsın, imkan varsa, köçürsün, gərək varsa, yanındakından soruşsun, özü ona kömək üçün müraciət edənə qətiyyən kömək etməsin və sair və ilaxır.**

Aşağıda dayanıb övladının imtahan verdiyi auditoriyanın pəncərəsinə baxan və abituriyentlərin başı üzərində dayanan nəzarətçiyə qarğış edən, “o tərəfə rədd ol, qoy uşaqlar köçürsün də” deyə “ülvi arzusu”nu dilinə gətirən valideynlər də görmüşəm.

Bir-biri ilə danışarkən “imtahan-zad boş şeydir, hamısı pulladır, uşaq yaxşı bal yığmasa, mən bir adam bilirəm, onun əliylə uşağı lüboy universitetə düzəltmək olar” deyə dərdləşənlərin, çıxış yolu arayanların danışığını da eşitmişəm.

Sonradan bu cür adamların güc-bəla ilə topladıqları pulu aparıb dələduzlara qapdırdığının şahidi də olmuşam.

Elə bir məsələ 4-5 il öncə düz gözümün önündə oldu. Qonşuların biri test imtahanı zamanı müvəffəq ola bilməyən 18 yaşlı oğlunu Türkiyədə Giresun Universitetinə düzəltdirmək sevdasına düşmüşdü. Bir nəfər ona və təxminən 60 başqa adama övladlarını “imtahansız-zadsız” Giresun Universitetinə qəbul etdirəcəyinə dair söz vermiş, bəzilərindən 5, bəzilərindən 10 min dollar “qəbul haqqı” almışdı. Qonşumuz 5 min vermişdi. Ona bunun fırıldaq olduğunu, pulunu itirəcəyini, oğlunun ortada qalacağını nə qədər desəm də, xeyri olmadı, dedi, artıq uşağın Türkiyəyə yola düşməsinin günü də təyin olunub. Həmin gün Giresun Universitetinin “tələbəsi” əlində çamadan dələduzların ofisinin önünə gedərkən görür ki, orda özündən başqa 60-a yaxın “tələbə” var, amma “Giresun Universiteti”nin qəbulçuları ofisin qapısını qıfıllayıb aradan çıxıblar. 5 min dollar ziyana düşmüş ailə yenidən bizə müraciət edəsi oldu, qəzetdə yazdıq, polislər hərəkətə keçdilər, arayıb-axtarıb fırıldaqçını yaxaladılar, 5 min dolların təxminən 4 minini xilas etmək mümkün oldu. Qonşumuz danışırdı ki, bu iş üzrə cəmi 3-4 adam şikayətçi olub, qalan 50-55 adam susmağa üstünlük verib. Ən maraqlısı odur ki, o qədər insanı aldadan dələduz polis şöbəsində qonşuma “uzağı bir il yatıb çıxacam” deyə əmin-arxayın şəkildə anons verib.

Onun bu qədər ötkəm olmasının səbəbi abituriyent valideynlərinin zəif damarını, həssaslığını və qorxaqlığını əla bilməsidir. Bu cür dələduzlar bilirlər ki, mövzu övladların gələcəyi, karyerası olanda əksər valideynlər hər cür fədakarlığa, riskə, hətta qanunsuzluğa hazır olurlar. Dələduzların ən asan aldada biləcəkləri əhali qrupu məhz abituriyent valideynləridir.

Dövlət İmtahan Mərkəzinin sədri Məleykə Abbaszadənin açıqladığı detala məhz bu prizmadan yanaşmaq lazımdır.

Məlum olduğu kimi, Azərbaycanda IV kurs tələbəsi 2 qardaşın yerinə qəbul imtahanı verib. Bu qanunsuzluğu məhz valideyn törədib. O, savadlı, ancaq fırıldaqçı tələbəni ikinci dəfə başqa bir övladının yerinə imtahana göndərəndə işin üstü açılıb. İndi həmin tələbəni də, əvəzindən imtahan verərək tələbə adı qazandırdığı şəxsi də universitetdən xaric edəcəklər.

Ölkə bu cür valideynlərlə doludur. Onlar üçün haqq-ədalət deyilən bir şey yoxdur, hər şeyi pul gücünə, fırıldaqla həll etməyə hazırdırlar və daima buna çalışırlar. Əmin olun ki, fırıldaq yoluyla universitetə daxil olan savadsız gənc təhsil illərini də pul gücünə, tapşırıqla, müxtəlif fırıldaqlarla arxada qoyacaq, sonra yenə rüşvət hesabına gəlirli və perspektivli bir işə girəcək, vəzifə pillələrində yavaş-yavaş irəliləyəcəkdi.

Zatən, burda test üsulu ilə universitetə daxil ola bilməyən, gedib Ukraynada, Gürcüstanda, Rusiyanın ayrı-ayrı şəhərlərində, xüsusilə də Mahaçqalada “universitet” adlanan məktəblərə girən minlərlə abituriyent sonradan köçürmə yoluyla ölkəmizdəki ən yaxşı universitetlərə qəbul olunurlar. Məzun olduqdan sonra ən yaxşı işləri məhz elələri qapır, satın alırlar.

Hələ sovet dönəmindən qaydadır: bu ölkədə təhsilə münasibət belədir, əsas məsələ savad almaq deyil, nə yollasa diplom, sənəd almaq, özünü bir yerə pərçim etmək imkanı qazanmaqdır.

YENİ MÜSAVAT
N 113 (6727) 27 may 2017

**Bakıda həbsdə olan blogger Aleksandr Lapşinin barəsindəki cinayət işinin istintaqı başa çatıb. Bu barədə "Trend"ə A. Lapşinin vəkili Eduard Çernin məlumat verib. Vəkil mayın 26-da Bakı İstintaq Təcridxanasının tibb məntəqəsində A.Lapşinlə görüşüb: "Hazırda tibb məntəqəsində müalicə olunur. Müalicələri davam etdirilir, özünü normal hiss edir, vəziyyətində kəskinləşmə yoxdur. Bu gün müstəntiq də cinayət işinin istintaqının yekunlaşmasını elan etdi. Mayın 30-da istintaq materialları tanış olmaq üçün mənə təqdim ediləcək və sonra məhkəməyə göndəriləcək".**

# Lapşinin istintaqı yekunlaşdı - məhkəmə prosesi başlayır

## "Ona törətdiyi qanun pozuntusuna uyğun cəza kəsilməlidir"




Xatırladaq ki, A.Lapşin bir müddət əvvəl səhhəti ilə bağlı Bakı İstintaq Təcridxanasının rəhbərliyinə müraciət etmişdi. O, təcridxana nəzarətçilərinin müşayiəti ilə Bakıdakı özəl klinikalardan birinə aparılıb və orada müayinə olunub. Müayinə zamanı ona "ürəyin taxikardiyası" diaqnozu qoyulub. Müayinələrdən sonra Lapşin təcridxananın tibb məntəqəsinə köçürülüb.

İttihama görə, ayrı-ayrı dövlətlərin vətəndaşlığını daşıyan A.Lapşin Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərində yaşayan digər şəxslərlə qabaqcadan əlbir olub cinayət əlaqəsinə girərək, "Azərbaycan Respublikasının dövlət sərhədi haqqında", "Pasportlar haqqında" Azərbaycan Respublikası qanunlarının tələblərini kobud surətdə pozmaqla Azərbaycanın mühafizə olunan dövlət sərhədini müəyyən edilmiş sənədlər olmadan və nəzarət-buraxılış məntəqələrindən kənarda keçərək 2011-ci ilin aprel və 2012-ci ilin oktyabr aylarında işğal olunmuş ərazilərə daxil olmuşdu.

O, qanunsuz rejimin beynəlxalq səviyyədə təbliğ edilməsi məqsədilə internet sosial şəbəkəsində özünə məxsus "http//puerrtto.livejournal.com" səhifəsində səyahət etdiyi dövlətlər arasında Azərbaycan və Ermənistanla yanaşı, Dağlıq Qarabağı da müstəqil dövlət kimi qeyd etməklə, həmçinin 6 aprel və 29 iyun 2016-cı il tarixli müraciətlərində işğal olunmuş ərazilərdə qanunsuz fəaliyyət göstərən rejimin "müstəqilliyini" dəstəkləməklə Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünün parçalanmasına yönələn açıq çağırışlar edib.

Xarici İşlər Nazirliyi Azərbaycanın işğal olunmuş ərazilərinə qanunsuz səfəri ilə əlaqədar A.Lapşinin adını "arzuolunmaz şəxslər" siyahısına daxil edib.

A.Lapşinin hərəkətlərində dövlət əleyhinə yönələn açıq çağırışlar və dövlət sərhədini qanunsuz olaraq keçmə əməllərinin tərkib əlamətləri olduğundan Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində fakta görə Azərbaycan Cinayət Məcəlləsinin 281.2 (dövlət əleyhinə yönələn açıq çağırışlar) və 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə cinayət işi qaldırılıb və barəsində dövlətlərarası axtarış elan edilib. 2016-cı il dekabrın 15-də Belarus hüquq-mühafizə orqanları tərəfindən Minskdə saxlanılıb. Belarus Baş Prokurorluğu bu il yanvarın 17-də A.Lapşinin Azərbaycana ekstradisiyası barədə qərar vermişdi. A.Lapşin isə Belarus Baş Prokurorluğunun qərarından apelyasiya şikayəti versə də şikayət təmin edilmədi və Lapşin fevralın 7-də Azərbaycana təhvil verildi.

Qeyd edək ki, Lapşinin anası iki ay öncə oğlunun əfv olunması üçün Azərbaycan rəhbərliyinə müraciət edib. Lapşinin özü isə hələ ekstradisiyadan sonra üzrxahlıq məktubu ilə Azərbaycan prezidentinə müraciət edərək bağışlanmasını xahiş eləmişdi.

**Siyasi ekspertlər hesab edir ki, Aleksandr Lapşin məsələsi özünün hüquqi sonluğuna çatdırılmalıdır. Bu barədə danışan politoloq Elxan Şahinoğlu bildirdi ki, bütün xahiş və müraciətlərə baxmayaraq, Lapşin işini sona çatdırmaq lazımdır ki, başqalarına da dərs olsun:** "Ən vacib məsələlərdən biri Lapşinin Bakıya ekstradisiyasına nail olmaq idi. Ekstradisiya olmamağı üçün də xahiş və müraciətlər edilmişdi. Lakin Azərbaycan və Belarus rəhbərliyi bu məsələdə hüququn aliliyinə arxalanaraq doğru hərəkət etdilər. İndi də kimin müraciət və xahiş etməsindən asılı olmayaraq Aleksandr Lapşinin məhkəməsi keçirilməli, ona törətdiyi qanun pozuntusuna uyğun cəza kəsilməlidir. Yalnız məhkəmənin hökmündən bir müddət sonra əfv məsələsindən söhbət gedə bilər. Yoxsa onun məsələsini hüquqi sonluğa çatdırmamaq ciddiliyimizi şübhə altına ala bilər. Bu adam qanunlarımızı düz iki dəfə bilərəkdən pozub. Buna görə cavab verməlidir. O bizim məhkəmənin qərarını görmədən, öz üzərində hiss etmədən yalnız özünün və ya yaxınlarının üzrxahlıq məktubu, xahişi ilə aradan çıxsa, kim zəmanət verə bilər ki, o və onun kimilər əməllərinə davam etməyəcəklər".

Ekspertin sözlərinə görə, Ermənistan və erməni lobbisi bilməlidir ki, üçüncü ölkə vətəndaşlarını Azərbaycana qarşı qanunsuz hərəkətlərə həvəsləndirəndə, bunun cavabı gələcək.

❑ **E.SEYİDAĞA**

# Azərbaycan da Rusiyanın "oduna yanır" - neftin bahalaşması gözlənilmir




## **İqtisadçı ekspert:** "Neftin qiymətinin mümkün qədər aşağı salınmasında ABŞ-ın yeganə məqsədi Rusiya iqtisadiyyatını çökdürməkdir"

**Neft qiymətinin aşağı olması digər bir sıra ölkələrlə yanaşı, Azərbaycanı da narahat edir. Hazırda dünyanın aparıcı neft ixracatçıları "qara qızıl"ın nə zaman özünün köhnə qiymətini alacağı barədə baş sındırırlar. Bu mənada Neft İxrac Edən Ölkələrin Təşkilatına (OPEC) üzv və kartelə daxil olmayan ölkələrin Vayana görüşü diqqət mərkəzində oldu.**

Azərbaycan Respublikasının energetika naziri Natiq Əliyev Vyana görüşünün yekunları ilə bağlı Energetika Nazirliyinin mətbuat xidmətinə açıqlama verib. Nazirliyin mətbuat xidmətinin rəhbəri Zəminə Əliyevanın sözlərinə görə, Natiq Əliyev iclasın müsbət keçdiyini, OPEC və qeyri-OPEC ölkələri arasında əməkdaşlıq haqqında Bəyannaməni razılaşdırdıqlarını bildirib: "Görüşdə OPEC ölkələri gündəlik neft hasilatını 32,5 mln. barel həcmində saxlamaqla bağlı öhdəliklərini bir daha təsdiqləyərək, bu həcmdən artıq neft istehsal etməyəcəklərini bəyan ediblər. Görüşdə OPEC-ə üzv olmayan 11 ölkə iştirak edib. Bu ölkələrin 2017-ci il yanvarın 1-dən gündəlik neft hasilatını 558 min barel azaltmaları barədə razılıq əldə olunub. Razılaşmaya əsasən, Azərbaycan üçün bu göstərici sutkada 35 min barel müəyyənləşdirilib. Rusiya isə hasilatı gündəlik 300 min barel azaltmağa razılaşıb". **N.Əliyev onu da bildirib ki, qəbul edilən qərarın icrasına nəzarət məqsədilə Rusiya və Küveytin rəhbərliyi ilə Monitorinq Komitəsinin yaradılması məqsədəuyğun hesab edilib:** "OPEC və təşkilata daxil olmayan ölkələr razılığa gəliblər ki, neft bazarında qiymətlərin sabitliyinin uzunmüddətli olması üçün mütəmadi görüşlər keçirilsin. Eyni zamanda tədbirdə iştirak etməyən digər qeyri-OPEC ölkələri də bu sazişə qoşulmağa dəvət edilib".

**"Bir neft ölkəsi olaraq Azərbaycan da neftin qiymətinin artmasında maraqlıdır və bunun üçün öz öhdəsinə düşən bütün addımları atır. Lakin neftin qiyməti ilə bağlı mövcud problemlərin həlli kifayət qədər mürəkkəbdir".**

**İqtisadçı ekspert, sabiq maliyyə naziri Fikrət Yusifov "Yeni Müsavat"a Vyana görüşünün nəticələrini şərh edərkən söylədi. O bildirdi ki, 2016-cı ilin noyabr ayına qədər OPEC-in dəfələrlə toplanaraq neft hasilatını azaltmaq barədəki bütün cəhdləri nəticəsiz qalmışdı:** "Nəhayət ki, ötən ilin noyabr ayının 30-da OPEC-in Vyana toplantısında neftin hasilatının gündəlik 1,2 milyon barel azaldılaraq sutkalıq hasilatın həcmini 32,5 milyon barelə çatdırmaq barədə qərar qəbul edilə bildi. OPEC-in bu qərarından dərhal sonra neftin qiymətlərində müəyyən artımlar müşahidə edilməyə başlandı və həmin ilin dekabr ayında qiymətlər 16,6% bahalandı. Bu proses cari ilin fevral ayına qədər davam etdi və ötən ilin noyabr ayı ilə müqayisədə qiymətlərin 19,4% bahalanması qeydə alındı. Lakin artıq cari ilin mart ayından bu günə qədər qiymətlərdə azalma baş verir. Hətta OPEC-in bu ilin may ayının 25-də keçirdiyi toplantıda gündəlik neft hasilatının 1,2 milyon barel azaldılmasına dair 6 ay bundan öncə qəbul edilmiş qərarın müddətinin yenidən 9 ay uzadılmasına baxmayaraq, bu qərar qəbul edilən günün axşamı neftin qiymətində 4,8% azalma qeydə alındı. Bu onu göstərir ki, OPEC-in gündəlik neft hasilatını azaltmağa dair qərarı hələ heç də hər şey demək deyil".

**F.Yusifov qeyd etdi ki, qiymətlərə təsir edən başqa, daha mühüm amillər ortadadır və onlarla hesablaşmamaq mümkün deyil:** "Nəzərə almaq lazımdır ki, OPEC-ə üzv olan ölkələr dünyada neft hasilatının cəmi üçdən birini verirlər. Neft hasilatını azaltmağa dair qərara bu təşkilata üzv olmayan başqa ölkələr qoşulsalar da, gündəlik hasilatın 1,2 milyon barel azaldılması neftin qiymətində istənilən səviyyənin əldə olunacağı demək deyil. Bir böyük həqiqət ondan ibarətdir ki, dünya bazarlarında neftin qiymətinin qalxmasını daha çox Amerika Birləşmiş Ştatları istəməsi şərtləndirir. Bu istək olarsa, onda qiymətlər qalxacaq. O isə hələlik yoxdur və onun yaxın gələcəkdə yaranacağı da bir o qədər gözlənilən deyil. Çünki bu qiymətlərin kökündə Rusiya-Qərb, Rusiya- Amerika qarşıdurmasından qaynaqlanan siyasi motivlər dayanır. Donald Trampın prezident seçilməsi və onun Rusiya ilə münasibətləri yaxşılaşdırmağa dair seçki öncəsi verdiyi bəyanatlara sonradan əməl edilməməsi vəziyyəti bir qədər də mürəkkəbləşdirdi. Bütün dünya bir daha gördü ki, ABŞ dövlətinin strateji maraqları var və bu maraqlar prezidentin seçkiqabağı verdiyi bəyanatlarla üst-üstə düşməyə bilər. Ona görə də əgər OPEK-in qərarı ilə neftin qiymətinin qalxmasına nail olunarsa, bu halda ABŞ öz şist neft hasilatını artırmaq yolu ilə vəziyyəti istədiyi kimi tənzimləyəcək. Çünki qiymətlər qalxdıqca şist neftin hasilatı da daha çox sərfəli olacaqdır. Bütün bunlar onu göstərir ki neftin qiymətləri ətrafında vəziyyət hər hansı bir qərar qəbul etməklə onun artımına nail olunacağını düşünmək qədər asan deyil. Belə olsaydı, onda elə bir qərarla da problem həll olunardı. Çünki neft hasil edən ölkələrin demək olar ki, hamısı bu qiymətlərin artmasında maraqlıdırlar. OPEC-in qərarlarını təsirsiz edən əsas səbəb isə burur ki, ortada ciddi siyasi maraqlar var. Qiymətlərin qalxmasında bir ölkə - dünyanın ən böyük iqtisadi və siyasi güc sahibi Amerika Birləşmiş Ştatları maraqlı deyil".

**Sabiq nazir deyir ki, neftin qiymətinin mümkün qədər aşağı salınmasında bu ölkənin yeganə məqsədi Rusiya iqtisadiyyatını çökdürməkdir:** "Bu məqsədi reallaşdırmaq xatirinə hətta Birləşmiş Ştatlar öz neft sənayesindəki zərəri də normal hal kimi qəbul edir. OPEC üzvü olan ölkələrin son iki il ərzində neftin hasilatını azaltmaqla bağlı keçirdiyi toplantıların keçən ilin noyabr ayına qədər heç bir qərar qəbul edilmədən yekunlaşması da ABŞ-ın istəyi ilə baş tuturdu. Bütün bu deyilənlərə rəğmən bir böyük həqiqət də ondan ibarətdir ki, neftin qiymətini siyasi motivlərlə sona qədər saxlamaq da mümkün deyil. Bu proses ən yaxşı halda bundan sonra bir neçə il davam edə bilər. Çünki neftin hasilatının sabit qalması üçün neft sənayesinə mütəmadi olaraq yatırımlar etmək lazımdır. Son iki ildə isə neftin qiymətinin aşağı olması səbəbindən bu sahəyə yatırımlar demək olar ki, edilmir və ya lazım olandan çox aşağı səviyyədə edilir. Belə olan halda, bir müddətdən sonra kiminsə istəyindən asılı olmayaraq hasilatın azalması sözsüz baş verəcəkdir. Bu səbəbdən də yaxın iki ildə neftin qiymətində müsbət dəyişikliklərin baş verəcəyi gözlənilir. Konkret rəqəmlər söyləmək bir qədər çətindir. Lakin bu il qiymətlərin 55 dollar ətrafında, gələn il isə 60 dollar səviyyəsində olacağı inandırıcı görünür".

❑ **Cavid TURAN**

YENİ MÜSAVAT
N 113 (6727) 27 may 2017

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# İrəvan Qarabağın erməni əsgərlərə məzar olmasını istəmirsə... - işğalçıya daha bir xəbərdarlıq

## Kremlə arxayın olan Ermənistan Azərbaycana qarşı hər an qaynar müharibəyə keçə biləcək psixoloji savaş aparır; **erməni əsilli amerikalı professor:** "Rusiyadan asılılıq Ermənistanın faciəsidir..."

**Ermənistan parlamentinin yeni spikeri Ara Babloyan Avropa Parlamentinin xarici əlaqələr Komissiyasının rəhbəri David Makalisterin başçılıq etdiyi nümayəndə heyəti ilə İrəvan görüşü zamanı Qarabağ mövzusunda bəzi diqqətçəkici ifadələr işlədib. Məsələn, Babloyan sovet dövründə həkim işləyərkən azərbaycanlı uşaqları necə müalicə və əməliyyat etməsindən danışıb.**




Bundan əlavə, erməni spiker Azərbaycanın Dağlıq Qarabağa səfər edən xarici ölkə vətəndaşlarını "qara siyahıya" salmasından şikayətlənib. "Sovet vaxtı həkim kimi mən yüzlərlə azərbaycanlı uşağı müalicə və əməliyyat etmişəm. Və indi çox kədərlidir ki, biz öz gənclərimizi bu münaqişədə itiririk. Məsələ danışıqlar yolu ilə həll edilməlidir", - deyə o bildirib (virtualaz.org).

Doğrudan da, hansı millətdən olmasından asılı olmayaraq, gənc insanların ölümü kədərlidir - üstəlik, belə ölümlər heç vaxt reallaşmayacaq boş ideyalar naminədirsə, ikiqat kədərlidir. Ancaq Azərbaycan prezidenti İlham Əliyevin təbirincə desək, erməni hərbçilərin Ağdamda, Füzulidə nə işi var ki, orada da ucuz ölümə tuş gəlsinlər?

Əgər gerçəkdən də erməni gənclərinin ölümü Ermənistan rəsmilərini bu qədər narahat edir, kədərləndirirsə, bunu önləməyin çox sadə yolu var: işğal altındakı Azərbaycan torpaqlarından erməni işğalçı qüvvələrini təcili şəkildə çıxarmaq - özü də qeyd-şərtsiz, BMT Təhlükəsizlik Şurasının məlum 4 qətnaməsinin tələb etdiyi kimi.

Nə qədər ki, erməni tərəfi bu sadə həqiqəti, Qarabağa dair beynəlxalq sənədləri qulaqardı edəcək, nə qədər ki yad ərazilərdən çıxmaq əvəzinə, işğalçı qüvvələr orada hərbi təlimlər keçirəcəklər, o vaxta kimi də aydındır ki, Azərbaycan torpağı hərbi mundir geydirilmiş erməni gənclərə məzar olacaq və Babloyanın o biri arzusu da çin olmayacaq: münaqişə heç vaxt danışıqlar yolu ilə həllini tapmayacaq.

*****

Beləcə, əfsuslar olsun ki, məhz erməni tərəfinin maksimalist mövqeyi üzündən münaqişə 30-cu ilinə qədəm qoyub. Bu xüsusda "soyuq müharibə" dönəmində ABŞ-ın SSRİ-dəki səfiri işləmiş Cek Metlokun AzadlıqRadiosunun erməni redaksiyasına müsahibəsində Dağlıq Qarabağ mövzusunda söylədiyi fikirlər də diqqət çəkir. Musavat.com-un erməni qaynağına istinadən verdiyi məlumata görə, eks-diplomat deyib ki, fövqəldövlətlər Ermənistanın və Azərbaycanın yerinə problemi həll etməyəcək. "Hər bir ölkə özü qərar verməlidir - o, müharibə eləmək istəyir, yoxsa sülhün yolunu tapmaq istəyir", - deyə təcrübəli diplomat qeyd edib.

Ancaq problem də ondadır ki, Qarabağ məsələsində İrəvan çoxdan həlledici söz sahibi deyil. Niyəsini bu dəfə ABŞ-dakı Miçiqan Universitetinin erməni əsilli tarix professoru Ronald Suninin dilindən eşitsək, daha yaxşı olar.

**İrəvanda keçirilmiş "Keçid dövrünün sonu. Ermənistan 25 il sonra" adlı konfransın iştirakçısı olmuş Suni öncə illər öncə dediyi "Ermənistan Rusiyasız yaşaya bilməz" fikrini xatırladaraq əlavə edib:** "Bizim geosiyasi vəziyyətimiz çox təhlükəlidir - çünki bir yanda Türkiyə, digər yanda Azərbaycandır. Gürcüstan isə - elə də yaxşı dost deyil. Ona görə ki, orada çoxlu problem var. Rusiya Ermənistanı müdafiə edir, ancaq dost olaraq, Rusiya psevdodostdur (yalançı dost - red.)".

**Amerikalı professorun fikrincə, Ermənistan üçün ən böyük problem indi Rusiya əleyhinə getmədən öz müstəqilliyini möhkəmlətməkdir:** "Bu gün Rusiyaya ehtiyac qaçılmazdır. Bu isə müəyyən mənada ehtimal ki, dilemma, hətta faciədir ki, hazırkı Ermənistan yaşayır".

Ancaq nə etməli ki, bu faciəvi yolu Ermənistan özü seçib - könüllü şəkildə, 100 il əvvəl olduğu kimi. O zaman öz faciəvi aqibətinə də yiyə durmalı, kimsəni ittiham etməməlidir. Seçimi də yenə o özü etməlidir. Başqa yandan, məgər Rusiyadan asılılıq öz qonşunun ərazilərini işğal etmək zərurəti yaradı? Əlbəttə ki, yox. Bu mənada Ermənistan üçün ən böyük təhlükə elə onun özüdür, apardığı işğalçılıq siyasətidir. Bu siyasətə son verilən gün də erməni xalqının rifahı və tərəqqisi başlayacaq.

*****

Lakin hələ ki bunun əksi müşahidə olunur: əsasən öz havadarı və psevdodostu Rusiyaya arxayın olan Ermənistan Dağlıq Qarabağa məsələsində davakar ritorikasından əl çəkmək istəmir, təmas xəttində Azərbaycana qarşı daha böyük təxribatlar törədir. Xocalı aeroportu ilə bağlı provokasiya bu qəbildəndir. Bunun ardınca Şuşanın "meri" Artsvik Sərkisyanın ermənilərin Şuşaya köçürülməsi siyasətindən bəhs etməsi də Azərbaycanın kəskin reaksiyasına səbəb olub.

**"Ermənilərin bu cür fəallaşması qəyyumlarının onlara verdiyi komanda əsasında baş verir". Bu sözləri axar.az-a açıqlmasında sabiq dövlət müşaviri Qabil Hüeynli deyib. Politoloq hesab edir ki, Rusiya Xarici İşlər naziri Sergey Lavrovun başına toplaşmış erməni lobbisi bu ölkənin siyasi elitasına ciddi surətdə təsir göstərir.**

"Məhz bunun nəticəsidir ki, Rusiya Ermənistanı son bir ildə 3 milyard dollarlıq silahla təchiz edib. Yeni silah partiyaları isə göndərilməkdə davam edir. Buna görə də Ermənistan Azərbaycana qarşı misli görünməmiş təxribatlara əl atır. Son zamanlar təmas xəttində vəziyyət çox gərginləşib. Müxtəlif növ ağır silahların yığılması və hətta canlı hərbi qüvvənin təmas xəttinə gətirilməsi müşahidə edilir. Bura Ermənistan siyasi rəhbərliyinin hərbi ritorikasının xeyli artdığını da əlavə etsək, demək, ermənilər hələ ki Azərbaycana qarşı psixoloji müharibə aparırlar. Psixoloji müharibənin isti müharibəyə çevrilməsi kiçik bir qığılcımdan asılı ola bilər. Azərbaycan ordusu təmas xətti boyunca bütün baş verənləri nəzərə alır. Ermənilər təxribatlar törətməklə hər vasitə ilə Azərbaycanı müharibəyə təhrik etməyə çalışırlar. Ona görə də Azərbaycan baş verənləri modelləşdirir və buna uyğun hərbi taktika hazırlayır. Azərbaycan Silahlı Qüvvələrinin təmas xətti boyunca toplanan modern silahları düşmənin zirehli texnikasından tutmuş, raket kompleksinə qədər hər şeyi məhv etməyə qadirdir" - Q. Hüseynli bildirib.

**Politoloq onu da qeyd edib ki, Azərbaycan beynəlxalq siyasi qüvvələrin Rusiya və onun əlaltısı Ermənistanın hərəkətlərinə reaksiyasını gözləyir:** "Bununla əlaqədar olaraq beynəlxalq təşkilatlarla ciddi iş aparılır. Aparılan işin məntiqi ondan ibarətdir ki, indiyə qədər işğalçıya siyasi qiymət verilmədiyindən daha da harınlaşan təcavüzkar yeni torpaq işğal etmək eşqi ilə ölkəmizi təxribatlara çəkir. Azərbaycanın səbir kasası dolsa da, təxribatlara uymur, vəziyyəti nəzarətdə saxlayır. Vəziyyətin gərgin olduğunu etiraf etməliyik. Ordumuz yüksək döyüş hazırlığına gətirilib və hər an bölgədə isti müharibə baş verə bilər. Bu dəfə nə Rusiyanın cəhdləri, nə də başqaları Azərbaycanı dayandıra biləcək".

Odur ki, əgər Rusiya gerçəkdən də bölgədə yeni böyük müharibə istəmirsə, o zaman öz marionetinə ləngimədən müvafiq təlimatlar verməli, onu, nəhayət, konstruktiv mövqeyə kökləməlidir, nəinki hər an genişmiqyaslı hərbi əməliyyatlara zəmin yaradan təxribatlar törətməyə.

*****

**Bu arada Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Nyu-Yorkda Azərbaycanın Respublika günü və BMT-yə üzvlüyünün 25-ci ildönümünə həsr edilmiş qəbulda açılış nitqi ilə çıxış edib. XİN mətbuat xidmətindən verilən məlumata görə, nazir bildirib ki, Azərbaycan BMT-ə üzv olduğu gündən üzləşdiyi iqtisadi çətinliklərə və ölkəmizə qarşı təcavüzə, eləcə də onun dağıdıcı nəticələrinə baxmayaraq, iqtisadi və siyasi cəhətdən dinamik müasir dövlətə çevrilərək özünü etibarlı tərəfdaş kimi sübut edib.**

**Onun sözlərinə görə, Azərbaycan ardıcıl surətdə BMT Nizamnaməsinin və beynəlxalq hüququn prinsiplərinə, məqsəd və məramlarına münasibətdə öhdəliklərinə tam sadiqlik nümayiş etdirib, sədaqətlə təşkilatı dəstəkləyib və onun fəaliyyətinə fəal töhfə verib.** "Azərbaycan Beynəlxalq sülh, təhlükəsizlik və stabilliyin qorunmasında öhdəliklərinə tam sadiqdir və bu istiqamətdə davamlı səylər göstərir. Hazırkı zamanda dünyanın və bizim regionun qarşılaşdığı xüsusi çağırışları aydın şəkildə anlayaraq, Azərbaycan beynəlxalq hüququn hamı tərəfindən qəbul edilmiş norma və prinsipləri, o cümlədən BMT Təhlükəsizlik Şurası və Baş Assambleyanın müvafiq qətnamələri əsasında Cənubi Qafqazda və ondan kənarda uzunmüddətli sülhün yaradılmasına töhfə verməyi davam etdirəcək", - deyə nazir vurğulayıb.

**E.Məmmədyarov onu da qeyd edib ki, ölkəmiz Qarabağ münaqişəsinin suverenlik, ərazi bütövlüyü və beynəlxalq sərhədlərin toxunulmazlığı prinsipi əsasında siyasi həllinə sadiqdir.** "Bunu beynəlxalq hüquq tələb edir və BMT Təhlükəsizlik Şurası, Baş Assambleyanın münaqişəyə dair müvafiq qətnamələrinin birmənalı tələbidir. Ərazilərinin işğalından və yüz minlərlə vətəndaşının zorla qaçqın və məcburi köçkün vəziyyətinə düşməsindən əziyyət çəkən ölkə kimi Azərbaycan regionda sülh, stabillik və inkişafı təmin edə biləcək münaqişənin ən qısa müddətdə həllində əsas maraqlı tərəfdir... Azərbaycan sülh, təhlükəsizlik və dayanıqlı inkişaf yolunda birgə səylərə həqiqətən töhfə verən fəal və güclü tərəfdaş olub və olaraq qalacaq" - sonda Azərbaycanın baş diplomatı əlavə edib.

YENİ MÜSAVAT
N 113 (6727) 27 may 2017



# Şeyxin din xadimləri ilə bağlı söylədiklərinə dəstək gəldi

## Fazil Mustafa: "Belə bir tövsiyənin olması faydalıdır"

**Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Hacı Allahşükür Paşazadənin axund və imamlara, digər din xadimlərinə etdiyi xəbərdarlıq müzakirəyə səbəb olub. Belə ki, şeyxülislam mayın 24-də QMİ-də keçirilən tədbirdə axund və imamlara, digər din xadimlərinə çıxış və xütbələrində başqa ölkələrdə baş verən hadisələrdən danışmamağı tapşırıb. QMİ sədri həmçinin din xadimlərinə istər mətbuata açıqlamalarında, istərsə də xütbələrdə Azərbaycandan başqa, digər ölkələrdəki hər hansı problem barədə danışmamaq tapşırığını verib.**

Mövzu ilə bağlı "Yeni Müsavat"a danışan **deputat Fazil Mustafa** bildirib ki, tövsiyə olaraq bu cür fikirlərin səsləndirilməsində heç bir problem yoxdur:

"Yaxşı olar ki, birinci növbədə din xadimləri məclis apararkən Azərbaycan dilinin qrammatika qaydalarına uyğun olaraq müəyyən fikirlərini ifadə etsinlər. Bir çox hallarda açıq-aşkar başqa ölkələrin üslubunda danışırlar. Eyni zamanda həqiqətən də daha çox Azərbaycanın problemləri, buradakı dini vəziyyətlə bağlı çıxışlar etmək daha doğru olar. Ona görə də bu mövqeyi müsbət qarşılayıram. Ən azı belə bir tövsiyənin olması faydalıdır".

**Deputat Zahid Oruc da şeyxülislamın fikirlərini dəstəkləyib:**

"Doğru tövsiyədir. Əslində söhbət hər hansı bir din xadiminin xüsusilə də kütləvi məclisləri idarə edən şəxslərin üzərinə əlahiddə vəzifə qoymaqdan, onların azadlıqlarını məhdudlaşdırmaqdan getmir. Ancaq bu bir reallıqdır ki, bizim müxtəlif mərasimlər ayrı-ayrı din adamlarımızın təhsilinə, dünya görüşünə, dinin tarixi ilə bağlı araşdırmaları baxımından müxtəlif ölkələrə indentifikasiya olunmuş səviyyədə keçir. Yəni bu gün əgər kimsə dünyada müqəddəslərimizin olduğu torpaq kimi Səudiyyə Ərəbistanının mövqeyindən çıxış etmək istəyirsə, bəzən fərqinə varmadan dinin hüdudlarını aşıb, siyasət baxımından da bir ölkənin çevrəsində hərəkət edir. İkincilər bəzən İran mövqeyi sərgiləyir, digərləri isə sırf dini fəaliyyətlərini belə unudurlar. Bu da özlüyündə haqqında danışdığımız irada səbəb olub. Zənn edirəm ki, Allahşükür Paşazadənin bu cür reaksiya verməsi təsadüfi deyil. Xüsusi vurğulamaq istəyirəm ki, Azərbaycan dünyəvi dövlət olsa da, din dövlətsiz, dövlət də dinsiz ola bilməz. Burada dəqiq sərhədlər bəllidir, ancaq dövlət dinin siyasətində iştirak edir, həmçinin dini etiqad sahiblərinin hər biri də Azərbaycan dövlətinə, onun müstəqilliyinə, bütövlüyünə bağlılıqlarını göstərməlidirlər. Deyərdim ki, göstərirlər də. Dəfələrlə şahidi olmuşam ki, onlar Azərbaycanın dünəni, bu günü ilə bağlı ən mühüm, ağrılı problemlər barəsində çıxış edib, hərəkət edirlər. Ermənilərlə bağlı məsələlərdə paralelləri hər zaman aparırıq. Keçmişdə onların hər hansı hərbi paradlarında keşişlərin öndə olmasını "döyüşə din adamları gedir" kimi təqdim edirik. Deməli, din adamları hər zaman dövlətçilik mövqelərini göstərdikləri təqdirdə, bu, bizim mövqelərimizin möhkəmlənməsinə xidmət edir. Bir daha bu məsələni yerində, zamanında edilmiş qeyd sayıram".

### Zahid Oruc: "Allahşükür Paşazadənin bu cür reaksiya verməsi təsadüfi deyil"

**Məsələnin siyasi tərəfləri barəsində isə "Yeni Müsavat"a politoloq Mübariz Əhmədoğlu danışıb. O bildirib müasir dövrdə Azərbaycanda dinə əməl edənlər 5-10 faizdir:**

"Hazırda ortada olan din siyasətdir. İstər İran, istər Türkiyədən gəlsə də, bu belədir. Daha çox dini siyasətləşdirən isə İrandır. İranın ən çox xoşladığı məsələlərdən biri Azərbaycanda İŞİD məsələsini şişirtməkdir. Əgər bir azərbaycanlı gedib İŞİD-ə qoşulursa, İran bunu tez-tez təkrarlayır. Belə bir vəziyyətdə cəmiyyətimizi qorumaq üçün hökmən vahid dini siyasət aparılmalıdır. Baxmayaraq ki, bizdə dinlə məşğul olan komitə var, ancaq hesab edirəm ki, əsas məsuliyyət elə Qafqaz Müsəlmanları İdarəsinin üzərindədir. Allahşükür Paşazadə də sıradan bir şeyxülislam deyil. O indiki dövrdə missiyasını çox gözəl dərk edir. Azərbaycanda müstəqillik illərində yaşananlar ona bəllidir. Bu baxımdan da Allahşükür Paşazadə öz məsuliyyətini yaxşı bilir. Onun bu kimi təklifləri, ideyaları da hesab edirəm ki, reallaşmalıdır. Ümumiyyətlə, biz bütövlükdə cəmiyyət olaraq Dini Komitənin, Qafqaz Müsəlmanları İdarəsinin yanında olmalıyıq. Çünki indi vəziyyət elədir ki, yalnız bu iki strukturun hesabına ölkədəki dini durumu idarə etmək mümkün deyil. Ölkədə dini vəziyyət nəzarətdən çıxa bilər. Ona görə də hökmən onlar bəzi məsələləri müəyyənləşdirib, müvafiq strukturlara deməlidirlər. Müvafiq strukturlar QMİ-dən aldıqları informasiya hesabına işlərini qurmalıdırlar. Bunun başqa bir variantı yoxdur. Əslində din beyinlərlə işləyir və birinci işləri də insanların beynini yeməkdir. Bəzi şəxslər elə hesab edirlər ki, bir kəlmə hökumətin əleyhinə danışarlarsa, üzlərinə cənnətin qapıları açılacaq. Yaxud başqa biriləri hesab edirlər ki, saqqal saxladıqda ölən kimi bunları cənnətə göndərəcəklər. Yəni insanların şüuru artıq bu qədər zəhərlənib. Ona görə də həm dini təbliğat işləri görülməli, həm də bu istiqamətdə siyasi addımlar atılmalıdır".

❑ Əli RAİS

# Elçibəy komandasının pərən-pərən düşmüş üzvləri-kim haradadır...

## İxtiyar Şirin: "O dövrdə hakimiyyətdə olan şəxslərin indi bir arada olmalarını mümkün hesab etmirəm..."

**1993-cü ilin bu günlərində hakimiyyətlərinin sonunu yaşayan AXC iqtidarı ilə bağlı xatirələr hər ilin bu vaxtları gündəmə daha çox gəlir. Cəmi bir il hakimiyyətdə qalmağı bacaran Əbülfəz Elçibəy komandasının üzvlərinin hazırda nə işlə məşğul olduqları maraq doğurur.**



Həmin komanda təmsilçilərindən sözsüz ki, ölkənin siyasi həyatında yaxından iştirak edənlər daim gündəmdə olduqlarından onların fəaliyyətləri cəmiyyətə açıqdır. Amma bununla belə, AXC hökumətinin elə simaları da var ki, ümumiyyətlə, siyasi fəaliyyətlə məşğul olmurlar, gündəmə gəlməyi də sevmirlər. Bunun üçün də ictimaiyyət onların nə işlə məşğul olmasından xəbərsizdir. Hazırda həmin komandanın pərən-pərən düşdüyünü də desək yanılmarıq. Təsadüfi deyil ki, AXC iqtidarında bir yerdə hakimiyyətdə təmsil olunmuş şəxslərin indi çox azını bir siyasi qurumun tərkibində görmək olar. Əksəriyyət ya öz təşkilatını qurub, ya da müstəqil şəkildə fəaliyyət göstərir. İstər siyasi qurumlar, istərsə də müstəqil şəkildə fəaliyyətdə həmin şəxsləri bir arada görmək mümkün deyil. Hətta içərilərində elələri də var ki, bir-birinə düşmən münasibətində olduqları da sirr deyil. Həmin komandanın yenidən - 25 il öncəsində olduğu kimi bir araya gələcəkləri təqdirdə keçmişdəki uğurlarını təkrarlaya bilib-bilməyəcəkləri barədə də fikirlər müxtəlifdir.

**Elçibəy iqtidarının yüksək postlarında təmsil olunmuş simaları yenidən yaddaşlara qaytarmaq üçün kiçik bir araşdırma apardıq. Onların bəziləri barədə məlumat veririk.**

- **İsa Qəmbər**-1992-93-cü illərdə parlamentin sədri olub. Postu ilə vidalaşandan sonra indiyə qədər Azərbaycan müxalifətinin əsas liderlərindən biri kimi, hazırda Müsavat Partiyasının lideri, Milli Strateji Düşüncə Mərkəzinin rəhbəridir.
- **Pənah Hüseyn**-Elçibəy iqtidarında əvvəl dövlət katibi, sonradan isə baş nazir postlarını tutub. Azərbaycan Xalq Partiyasının sədridir.
- **Əli Kərimli**-AXC hakimiyyətinin son aylarında dövlət katibi olub. Hazırda AXCP sədri və Milli Şuranın təsisçilərindən biri kimi demokratik düşərgənin əsas liderlərindəndir.
- **Arif Hacılı**-AXC hakimiyyətində dövlət müşaviri olub, Müsavat Partiyasının başqanıdır.
- **Tahir Kərimli**-Xalq Cəbhəsi hökumətində Ali Məhkəmənin sədri olub. Vəhdət Partiyasının sədri olan T.Kərimli Milli Məclisin deputatıdır.
- **Fəxrəddin Təhməzov**-Elçibəy hökumətində milli təhlükəsizlik naziri olub. DTX (keçmiş MTN) Akademiyasında müəllim kimi fəaliyyət göstərdiyi deyilir.
- **Tofiq Qasımov**-AXC hakimiyyətinin xarici işlər naziri. Hazırda İsveçrənin Lüzern şəhərində mühacir həyatı yaşayır.
- **Saleh Məmmədov**-1992-93-cü illərdə maliyyə naziri olub. İndi ictimai-siyasi və biznes fəaliyyəti ilə məşğuldur.
- **Rəhim Qazıyev** - Elçibəy komandasının müdafiə naziri. Siyasətdə aktiv şəkildə görünməsə də, ara-sıra siyasi tədbirlərdə müxalifət camiəsi daxilində görünür.
- **Dadaş Rzayev** - O da həmin hökumətin müdafiə naziri olub, R.Qazıyevi əvəzləyib. Azərbaycan Silahlı Qüvvələri Ehtiyatda olan Zabitlər Konfederasiyanın sədri, general-mayordur.
- **İsgəndər Həmidov**-Daxili işlər naziri olub. Bozqurdların lideri kimi tanınan İsgəndər bəy müxalifətdə aktiv simalardan biridir.
- **Firudin Cəlilov**- AXC hakimiyyətinin təhsil naziri, hazırda təqaüddədir.
- **Əli Məsimli**-1993-cü ildə iki ay baş nazir postunu tutub, bundan əvvəl də AXC hökumətində baş nazirin birinci müavini olub. Hazırda deputatdır.
- **Sülhəddin Əkbər**-milli təhlükəsizlik nazirinin birinci müavini işləyib. Azad Demokratlar Partiyasının sədri olan Sülhəddin bəy mətbuatda tez-tez təhlükəsizlik üzrə ekspert kimi çıxış edir.
- **Kamil Vəli Nərimanoğlu**-baş nazirin müavini olub. Türkiyənin İstanbul Aydın Universitetinin professorudur.
- **Vurğun Əyyub**-Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının sədri postunu tutub. ADR hərəkatında sədr müavini olan Vurğun bəy Xəzər Universitetinin dosentidir.
- **İbrahim Vəliyev**-Elçibəy iqtidarında Dövlət Gömrük Komitəsinin sədri kimi çalışıb. Hazırda hüquq elmləri namizədi, BDU-nun dosentidir.
- **Fazil Mustafa**-1992-1993-cü illərdə Prezident Aparatı dövlət-hüquq şöbəsinin müdiri vəzifəsində işləyib. Böyük Quruluş Partiyasının sədri olan F.Mustafa parlamentin üzvüdür.
- **Vahid Əhmədov**-1992-94-cü illərdə müxtəlif vaxtlarda baş nazirin müavini və birinci müavini vəzifələrini icra edib. Milli Məclisin deputatı olan V.Əhmədov iqtisadçı ekspert kimi mətbuatda aktiv şəkildə iştirak edir...

**Bu siyahını uzatmaq da olar. Araşdırmamıza yekun olaraq, 20-ci şəxs AXC iqtidarında baş prokuror olmuş, Milli Konqres Partiyasının sədri İxtiyar Şirindir. O hazırda siyasi aləmdə aktiv deyil. "Yeni Müsavat"a bunun səbəblərini açıqlayan İxtiyar bəy Elçibəy komandasının pərən-pərən düşməsindən və hazırda bir araya gəlmələrinin mümkünsüz olmasından söz açdı:** "Hesab etmirəm ki, rəhmətlik Elçibəyin vahid bir komandası var idi. Onlar bu gün bir yerdə çalışmalı, yaxud mütləq siyasi fəaliyyətlə məşğul olmalıdırlar. O dövrdən artıq 24 il keçib. O zaman siyasətlə məşğul olan, dövlət vəzifələrində təmsil olunan şəxslər artıq müəyyən yaş həddinə çatıblar. Onların 30-40 yaşlarında göstərdikləri fəaliyyətlə indiki arasında müəyyən fərqlərin olması mütləqdir. Açığı, o dövrdəki komandanın yenidən bir arada olacaqları təqdirdə hansı uğurlar əldə edəcəkləri barədə düşünməmişəm. Amma o dövrdə hakimiyyətdə olan şəxslərin indi bir arada olmalarını mümkün hesab etmirəm. Çünki Elçibəy hökumətində təmsil olunan qüvvələr müxtəlif siyasi cərəyanları təmsil edirdilər. Təbii ki, qüvvələri birləşdirmək istəyən həmin dövrün siyasətçiləri, hakimiyyət nümayəndələri əgər birliyə nail olarlarsa, bunun müəyyən nəticələri ola bilər. Özüm barədə deyə bilərəm ki, ölkəmizin müstəqilliyi, demokratikliyi, insan haqlarının müdafiəsi ilə bağlı əvvəlki fikirlərim necədirsə, elə də qalıb. O məsələləri bu gün Azərbaycanın ən vacib məsələləri sayıram. Bu istiqamətdə fəaliyyət də aparıram. Siyasi fəaliyyətlə də məşğulam. Son dövrlərdə səhhətimdə yaranmış müəyyən problemlərlə bağlı səhhətimlə məşğul olduğumdan siyasi gündəmdə deyiləm. Bu da normaldır".

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 113 (6727) 27 may 2017

**Bu gündən "11 ayın sultanı" Ramazan ayı başlayır. Ramazan bayramı isə iyunun 26-na təsadüf edəcək. Oruc hər il bir ay ərzində tutulur, lakin il ərzində də insan sünnət və müstəhəb orucları tuta bilər. Ramazan ayında tutulan oruc mütləq və vacib sayılır.**

# Ramazan ayı başladı, kimlər oruc tuta bilməz?

## Oruc tutan insanlar imsak və iftarda ən çox nəyə diqqət etməlidir...

Yəni insan əgər işi, sağlamlığı ilə bağlı qayğıları yoxdursa, oruc tutması mütləqdir. İşi və sağlamlığı ilə bağlı problemi olan şəxsə rüsxət verilir ki, həmin ayda oruc tutmasın, daha sonra qəza oruclarını tuta bilər.

İslamın beş şərtindən biri olan orucun insana heç bir zərəri yoxdur Əksinə, mədəyə, eləcə də digər orqanlarımıza sağlamlıq baxımından çox faydalıdır. Bu, müasir tibb mütəxəssisləri tərəfindən açıq və qəti bir şəkildə isbat edilib. Mədəsindən şikayəti olan, hamilə və süd verən qadın, xəstəliyinin artacağından qorxan kəslər, hərbidə olan əsgər və uzun səfərə çıxanlar oruc tutmaya bilərlər. Həmçinin gündə bir dəfə təzyiq dərmanı alan xəstələrin oruc tutmaları mövzusunda bir qorxu yoxdur. Əgər gündə 2-3 dəfə təzyiq dərmanı almaq söz mövzusudursa, bu xəstələrə oruc tutmaları tövsiyə edilmir. Həyat boyu davam edən təzyiq xəstəliyi oruc tutmağa mane olan bir vəziyyətdir. Ancaq yüngül dərəcədə təzyiqi olan kəslər oruc tuta bilər.

Oruc orqanizmdəki karbohidrat, zülal və xüsusilə yağ ehtiyatlarının səfərbər olmasını təmin edir. Oruc sayəsində zərərli maddələri süzməkdən xilas olan böyrəklər dincəlməyə və yenilənməyə imkan tapır.

Orucun faydalarından biri insanlara aclığın və susuzluğun nə demək olduğunu öyrətməkdir. Tox heç bir zaman acın halını anlamaz və ona mərhəmət etməz. Orucun ictimai faydası bundadır ki, o, insanları bir-birinə yaxınlaşdırır, doğmalaşdırır, siniflər və təbəqələr arasında ayrı-seçkiliyi aradan qaldırır. Oruc bundan başqa nəfsi nəzarət altına almağa səbəb olur.

Maraqlıdır, bəs bu ayda necə qidalanmalıyıq? Oruc tutan insanlar gün boyu yemək yemədiyi üçün imsak və iftar yeməklərinə xüsusi diqqət etməlidir. Zülalı çox olan qidalar yeyilməlidir. Çünki bu qidalar mədənin




boşalma müddətini uzadaraq acmanı gecikdirir. İmsakda yumurta, süd, qatıq pendir kimi qidalardan istifadə edilməlidir. Səhərlər həmçinin tost, közləmə, omlet də yeyə bilərsiniz. Bundan başqa, yatmazdan əvvəl meyvə də yeyilməlidir. Çox duzlu qidalardan uzaq durmaq lazımdır ki, sizə gün boyu susuzluq verməsin.

Əgər o başdana durmadan oruc tutsanız, ac qalma müddəti artdığı üçün gün boyu halsızlıq və baş ağrısı yaranar. İmsak zamanı bol maye qəbul edilməlidir.

İftara gəlincə, iftar süfrələrinə qoyulan qidaların kalorili, insan sağlamlığı üçün lazımlı qida elementlərini özündə birləşdirən, vitamin və minerallarla zəngin olması vacibdir. Xüsusilə quru paxlalı, tərəvəz və ya qatıqla hazırlanmış şorbalar, süd və süd məhsullarından istifadə etmək sağlamlıq baxımından daha yararlıdır. Həkim-fizioloqların məsləhətinə görə, iftar süfrəsindən qatıq və ayran əskik olmamalıdır. Çünki bu, həzmdə yaranan çətinliyi aradan qaldırır. Yeməyə isə nə çox isti, nə də çox soyuq olmayan yüngül bir şorbayla başlamaq lazımdır. Şorbanın yanında ətli və ya ətsiz çox yağlı olmayan bir tərəvəz yeməyi yeyilməlidir. Ana yemək olaraq isə qızartma ət, toyuq, balıq yeyə bilərsiniz. Həmçinin kiçik bir kasa qatıq içilə bilər.

Çörək və taxıl məhsullarına gəlincə isə tam dənəli taxıldan hazırlanan çörəklər, çovdar, kəpək, yulaf xeyirlidir. Mütəxəssislər çox kalorili, kremli şirniyyatlar yerinə meyvə yeməklə şəkər ehtiyacının qarşılanmasını daha düzgün hesab edirlər. İftardan az sonra 1 stəkan yaşıl çay içmək lazımdır. İsti, uzun gündə oruc tutmaq bir az çətindir. Bu dönəmdə kökəlmək istənmirsinizsə mütləq imsaka durmalısınız. İmsak yeməklərini az-az, yaxşıca çeynəyərək yeməlisiniz. Çiy tərəvəz, pomidor, xiyar kimi tərəvəzlərə mütləq imsakda yer verin. İftarda orucunuzu yüngül bir yeməklə açın. Tərəvəz yeməkləri ilə qidalanın, ağır şirniyyatlardan uzaq durun. Bol su için, az-az, amma tez-tez yeyin.

**Allah orucunuzu qəbul etsin!**

❑ **Günel MANAFLI**

# Şərikinə qarşı dələduzluq etdi, düşmən oldular

## 10 il müddətinə məhkum edilən sahibkara qarşı Vergilər Nazirliyi də 22 minlik iddia qaldırıb

**Öz şərikinə qarşı dələduzluq edən və külli miqdarda vergidən yayınmaqda təqsirləndirilən şəxsə hökm oxunub.**

Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində Cavid Dadaşovun cinayət işi üzrə məhkəmə prosesi başa çatıb.

Hakim Əlövsət Abbasovun sədrliyi ilə keçirilən məhkəmə prosesində hökm oxunub.

İttihama görə, Cavid Dadaşov restoran icarəyə götürərək birlikdə işlədiyi Akif Kazımova qarşı dələduzluq edib. Ev satmaq adı ilə saxta sənədlər düzəldərək şərikinin 100 min manatını ələ keçirib.

Cavid Dadaşov şərikli olaraq Akif Kazımovla "Balck City" restoranını işlədib. Restoranı işlədən zaman C.Dadaşovun Akif Kazımova borcu yaranıb. Borcunu ödəyə bilməyən C.Dadaşov bunun qarşılığında A.Kazımova ev satmağı təklif edib.

Belə ki, C.Dadaşov "Kapital Qrup" MMC tərəfindən inşa edilən binada olan, dəyəri 200 min manat olan evi şərikinə satmağa razılaşıb. Tərəflər arasındakı razılığa görə, evin sənədləri, alqı-satqı müqaviləsi Akif Kazımovun həyat yoldaşı Nigar Kazımovanın adına hazırlanacaqmış.

İttihama görə, C.Dadaşov "Kapital Qrup" MMC-nin adından hazırladığı sənədləri, alqı-satqı müqaviləsini Akif Kazımova təqdim edərək ondan bir neçə dəfəyə 100 min manat pul alıb. Akif Kazımov və xanımı aldıqlarını düşündükləri mənzilə baxmağa gedərkən aldadıldıqlarını başa düşüblər. Çünki sənədlərdə göstərilən ev onların yox, başqa şəxsin adına olub.



İstintaq zamanı məlum olub ki, C.Dadaşovun tikinti şirkətinin adından hazırladığı sənədlər printerdən çıxarılmış, saxtalaşdırılmış sənədlər olub. Bu barədə MMC-dən də istintaq orqanına arayış təqdim edilib və C.Dadaşov tərəfindən hazırlanan sənədlərin saxta olduğu bildirilib.

Pulunu geri ala bilməyən Akif Kazımov növbəti dəfə aldadıldığını görərək polisə müraciət edib.

Saxlanılan C.Dadaşov barəsində Cinayət Məcəlləsinin 178.3.2-ci (dələduzluq külli miqdarda törədildikdə) və 302-ci (saxta hazırlama) maddəsi ilə cinayət işi açılıb.

Cinayət işi araşdırılarkən C.Dadaşovun daha bir cinayət əməli üzə çıxıb. Təqsirləndirilən şəxsin Akif Kazımovla şərikli fəaliyyəti ilə bağlı da araşdırma aparılarkən məlum olub ki, C.Dadaşov sahibkarlıq fəaliyyəti ilə məşğul olduğu halda külli miqdarda vergi ödəməkdən də yayınıb. Onun barəsində həmçinin Cinayət Məcəlləsinin 213.1-ci (vergidən yayınma) maddəsi ilə cinayət işi açılıb.

Vergilər Nazirliyi tərəfindən aparılan araşdırma zamanı məlum olub ki, C.Dadaşov "Black City" restoranını işlətdiyi müddətdə 21 min 990 manat vergidən yayınıb.

Məhkəmə istintaqı dövründə zərərçəkmiş kimi tanınan Akif Kazımov ona dəymiş ziyandan cəmi 5 min manatın ödənildiyini bildirib. Məhkəmədə Vergilər Nazirliyinin nümayəndəsi qismində Ramin Əliyev iştirak edib. Nazirlik nümayəndəsi dəymiş zərərin təqsirləndirilən şəxsdən alınaraq təmsil etdiyi orqana ödənilməsi ilə bağlı mülki iddianı müdafiə edib.

**Təqsirləndirilən C.Dadaşov ona qarşı irəli sürülən ittihamlarla özünü qismən təqsirli bilib. Şəriki olmuş Akif Kazımova qarşı dələduzluq əməlini etiraf edən C.Dadaşov vergidən yayınması ittihamı ilə razılaşmayaraq belə deyib:** "İcarəyə götürüb işlətdiyim obyektə Vergilər Nazirliyinin işçiləri gəldi. Onlar məndən çox pul istədilər. Mən də razılaşmadım".

**Məhkəmədə təqsirləndirilən C.Dadaşov son sözlə çıxış edərkən dəymiş zərəri ödəmək üçün vaxt istəyib:** "Mən istəyirəm ki, son söz üçün mənə vaxt verilsin. Həm də bu müddət ərzində dəymiş zərəri ödəməyə çalışım".

**Hakim isə təqsirləndirilən şəxsə xatırladıb ki, məhkəmə istintaqı dövründə dəymiş zərərin ödənilməsi üçün heç bir addım atılmayıb, cəhd göstərilməyib. C.Dadaşovun hakimin bu sözlərinə cavabı belə olub:** "Burdan zərəri necə ödəyim? Məni buraxın ki, gedib dəymiş zərəri ödəyim da".

Məhkəmə hökmü elan etmək üçün müşavirəyə yollanıb. Müşavirədən sonra C.Dadaşov barəsində çıxarılmış hökm elan edilib.

Hökmə əsasən Cinayət Məcəlləsinin 178.3.2 və 213.1-ci maddələri ilə təqsirli bilinən C.Dadaşov 10 il müddətinə azadlıqdan məhrum edilib.

Məhkəmə həmçinin zərərçəkmiş Akif Kazımovun 100 min manatlıq, həmçinin Vergilər Nazirliyinin 21990 manatlıq mülki iddialarının təmin edilməsi ilə bağlı qərar çıxarıb.

❑ **İ.MURADOV**

# Kütləvi və mədəni tədbirlərin keçirildiyi yerlər necə mühafizə edilməlidir...

## "Terrordan qorunmağın ən yaxşı yolu əməliyyat xidmətidir" - ekspert

**Dünyada bir-birinin ardınca baş verən terror olayları insanları sarsıtmaqdadır. Artıq inkişaf etmiş Avropa ölkələrində də terror hadisələri ilə bağlı risklərin çox böyük olduğu barədə fikirlər səslənir. Ötən il Fransada və bugünlərdə Böyük Britaniyanın Mançestr şəhərində baş vermiş hadisələr bunu deməyə əsas verir. Xatırladaq ki, Mançestrdəki terror olayı konsert zamanı baş verib. Amerikalı müğənni Ariana Qrandın konsertindən dərhal sonra canlı bomba tərəfindən terror törədildi və nəticədə 22 nəfər dünyasını dəyişdi, 59 nəfər isə yaralandı. Bu olaydan sonra dünyanın hər yerində kütlənin toplaşdığı konsert, mədəni tədbirlərlə bağlı da insanlarda bir xof yaranmağa başlayıb.**




Qeyd edək ki, ölkəmizdə də müxtəlif beynəlxalq oyunlar, bayram günləri ilə bağlı çoxlu sayda kütləvi tədbirlər, konsertlər keçirilməkdədir. Ekspertlər hazırda Azərbaycanın terror ruzigarından uzaq olduğunu desələr də, hər halda, heç bir ölkə terrordan sığortalanmayıb.

Bəs kütləvi və mədəni tədbirlərin keçirildiyi yerlər necə qorunmalı, ictimai təhlükəsizliklə bağlı hansı tədbirlər görülməlidir?

**Təhlükəsizlik xidmətinin sabiq zabiti, təhlükəsizlik məsələləri üzrə ekspert İlham İsmayıl mövzuya bu cür şərh bildirdi:**

"Bildiyiniz kimi, son vaxtlar terror yüksələn xətt üzrə davam edir və xüsusən də onun ən təhlükəli tərəfi canlı bombalardan istifadə olunmasıdır. Bu, məsələni daha da qəlizləşdirib. Canlı bombaları bir çox hallarda plastik qurğular vasitəsilə içəri keçirirlər. Bəzən onu aşkarlamaq mümkün olmur. Ona görə də insanların gündəlik olaraq kütləvi halda toplaşdıqları metroda, avtobusda, orta və ali məktəblərdə mühafizə kifayət qədər güclü olmalıdır. Bunun özü çox çətin məsələdir. Lakin başqa bir məqam da var, terrordan qorunmağın ən yaxşı yolu əməliyyat xidmətidir. Yəni əvvəlcədən önləyici məlumatların alınmasıdır, bununla da əlbəttə ki, dövlət təhlükəsizlik xidməti məşğul olur. Eyni zamanda digər hüquq-mühafizə orqanları da bu məsələ ilə bağlı çalışır. Lakin mənə elə gəlir ki, həm vizual, həm də əməliyyat tədbirlərini daha da yüksəltmək lazımdır. Mühafizənin də sayını artırmaq olar. Və görüləcək tədbirlərlə bağlı vaxtında, əvvəldən kifayət qədər təhlükəsizlik işləri aparılmalıdır. Yəni ayıq-sayıq olmaq lazımdır. Demək olmaz ki, bu ayıq-sayıqlıq mütləq terrorun qarşısını alacaq. Lakin hələ ki şükür etmək lazımdır ki, ölkəmizdə bu cür hadisələr baş vermir. Amma Azərbaycan əhalisi çox olan müsəlman ölkəsidir. İŞİD-in də hədəfində təkcə Avropa, Qərb ölkələri deyil, yeri gələndə İslam ölkələrində də terror hadisələri olur və onlardan biri də Azərbaycan ola bilər. Şimali Qafqaz kimi, İŞİD-çilərin çıxdığı yerlə qonşuyuq, bunu nəzərə almaq lazımdır. Azərbaycanın özündə də var. Məsələn, şahidi olduq ki, Türkiyədə baş verənlərlə bağlı tutulanlar Qusardan olan şəxslər idi. Ona görə də bizim xüsusi orqanlar son vaxtlar daha yaxşı işləyir, tədbirlər görür. Müəyyən mənada bəzilərinin də qarşısını alınıb və bu haqda mətbuatda da məlumatlar dərc olunub. Hesab edirəm ki, bu ayıq-sayıqlığı bir qədər də artırmaq lazımdır".

**Ekspert həmçinin qeyd etdi ki, ictimaiyyəti də maarifləndirmək üçün müəyyən işlər aparılmalıdır:**

"Təhlükəsizlik orqanları mətbuatda, mediada məlumatlar verməlidir ki, insanlar ictimaiyyətdə nəyə daha çox diqqət etməli, hansı təhlükəsizlik qaydalarına əməl etməlidir. İctimai yerlərdə sahibsiz çantalar, özünü şübhəli göstərən şəxslər gördükdə mütləq təhlükəsizlik orqanlarına xəbər etməlidir".

**❑ Xalidə GƏRAY**

**İzrail ənənəsi əsasında özəl tibbi sahədə 20 illik təcrübə!**
**XƏSTƏLİKDƏN ƏZAB ÇƏKƏN İNSANLARA ƏSASƏN KİŞİLƏRƏ!**
**DİQQƏT!!! AXIRINCI ŞANS!!!**

Azərbaycanda və yaxud xaricdə diaqnozun təsdiqi və tam müalicəsi mümkün olmayıbsa, **doktor VAİZ SƏMƏDOV** şəxsi tibbi metodikası ilə Sizin uğurlu və daha qarantili olaraq aşağıdakı xəstəliklərinizi keyfiyyətli müayinə və müalicə edə bilər.

- ✳ Diaqnozu bilinməyən ağır hallar;
- ✳ Xərçəngə şübhəli olan prostat düyünlü adenoması. Prostatitlər; Qipertrofiya və ya Atrofiya
- ✳ Cinsi zəiflikdən tam impotensiyadək, marağın və aktların azalması;
- ✳ Vaxtından tez toxum ifrazatı (səbəbdən asılı olmayaraq)
- ✳ Toy gecəsinin uğursuzluqları (kişi tibbi problemlər)
- ✳ Sidikdə və ya spermada qan;
- ✳ Spermanın azalması və itməsi;
- ✳ Kişi cinsi orqanının birdən əyilməsi və balacalması;
- ✳ Oğlan uşaqlarında cinsi orqanların (penisin və xayaların) inkişafdan qalması;
- ✳ Hormonal və infeksion səbəbli sonsuzluq (kişi və qadınlarda);
- ✳ Tala-tala və hərtərəfli saçların tökülməsi;
- ✳ Gecə-gündüz uşaq və böyüklərdə sidik aktların pozulmaları; Enurez
- ✳ 50 yaşdan sonra oynaqlarda və onurğada baş verən qeyri travmatik ağrılar və hərəkət çətinlikləri;
- ✳ Psixo-nevroloji gərginlik, yuxusuzluq, qorxu, yaddaşın azalması və digər qəribə olan şikayətlər.
- ✳ Zöhrəvi xəstəliklərdən sonra qalıqlar və ağırlaşmalar.

**D-r V.Səmədovun əsas tibbi prinsipi - keyfiyyətli və təkrarsız müalicə aparmaq üçün xəstəliyin əsl və bütün səbəblərini aşkar etmək zəruridir.**

*Qəbula yazılmaq və ünvanı öyrənmək üçün saat 11-dən 23-ə dək, **(050) 213-88-05** nömrəsinə, **d-r Vaiz Səmədova** zəng etmək olar.*

Qəbul növbə ilə hər gün saat 12-dən sonra başlayır.




## Mingəçevirdə 3-cü mərtəbədən düşən üç yaşlı uşaq sağ qalıb

**Mingəçevir şəhərində üçüncü mərtəbədən düşən uşaq sağ qalıb. "Report"un Şirvan bürosunun məlumatına görə, hadisə Mingəçevir şəhəri Abdulla Şaiq küçəsində qeydə alınıb.**

Belə ki, həmin binanın 27-ci mənzilində yaşayan, 2014-cü il təvəllüdlü Vüqar Vüsal oğlu Nağızadə ehtiyatsız davranaraq binanın üçüncü mərtəbəsindən yerə yıxılıb. Sol ayağında sınıqlar və üz nahiyyəsində müxtəlif xəsarətlər alan azyaşlı dərhal Mingəçevir Mərkəzi Xəstəxanasına çatdırılıb.

Həkimlərin səyi nəticəsində V.Nağızadə sağ qalıb.

Hazırda uşağın vəziyyəti stabildir, müalicəsi davam edir.

## İrandan gələn Azərbaycan vətəndaşının daxili orqanlarından narkotik aşkarlanıb

**Dövlət Gömrük Komitəsi (DGK) Astara Gömrük İdarəsinin gömrük hüquqpozmalarına qarşı mübarizə şöbəsinə daxil olan məlumat əsasında İrandan piyada yolla gələn Azərbaycan vətəndaşının üzərində aparılan şəxsi yoxlama zamanı zərurət yarandığından həmin şəxs tibbi müayinədən keçirilib. Bu barədə "Report"a DGK-dan məlumat verilib.**

Yoxlama zamanı onun daxili orqanından - düz bağırsağından 3 ədəd bağlamada ümumi çəkisi 63,410 qram narkotik vasitə-heroin və 47,230 qram psixotrop maddə - metamfetamin aşkar edilib.

Faktla bağlı araşdırma aparılır.

YENİ MÜSAVAT
N 113 (6727) 27 may 2017

# Tovuzun Düz Qırıqlı kəndində bağlanan məktəbə görə müraciət

**Fikrət Mahmudov:** “Təzə məktəb kəndin bir başqa tərəfindədir, ora ilə kəndin digər tərəfi arasında 4 kilometr məsafə var”
**Təhsil Nazirliyi:** “Tikinti və Təchizat İdarəsi ilə əlaqə saxlanılacaq, bundan sonra dəqiq məlumat verəcəyik”




**“Tovuz” Xeyriyyə Cəmiyyətinin icraçı katibi Fikrət Mahmudov musavat.com-a müraciət ünvanlayıb. O, müraciətində doğulduğu Düz Qırıqlı kəndindəki orta məktəblə bağlı yaranmış vəziyyətdən bəhs edir. F.Mahmudov öncə Düz Qırıqlı kəndi barədə məlumat verir: “Düz Qırıqlı Tovuz rayonunun qədim və zəngin mədəniyyətə malik olan kəndlərindəndir. Kəndin 10 minə yaxın əhalisi var. Kəndin əsas iqtisadiyyatı üzümçülük və əkinçilikdir.**

Hələ sovetlər dönəmində bu kənd Azərbaycanın iqtisadi cəhətdən güclü olan yaşayış massivlərindən biri idi. Ötən əsrin 70-ci illərində, mərhum Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi olarkən, respublikanın iqtisadi inkişafı ilə əlaqədar, iki dəfə ümumrespublika müşavirəsini bu kənddə keçirmişdi. Bu da kəndin hansı iqtisadi göstəriciyə malik olduğunu bir daha aydın şəkildə göstərir".

**Müraciət müəllifi sonra yazır:** “Kənddə ilk orta məktəb 1924-cü ildə tikilib, istifadəyə verilib. Doğrudur, buna qədər də kənddə evlərdə məktəblər olub. Ancaq ilk orta məktəb 1924-cü ildən fəaliyyət göstərir”.

**O, bu məktəbin məzunları arasında, yüzlərlə professorun, elmlər namizədlərinin olduğunu qeyd edir:** “Onlardan geologiya-mineralogiya elmləri doktoru, professor Firdovsi Əliyev, tibb elmləri doktoru, professor Abbas Axundov, iqtisad elmləri doktorları, professorlar, Qara Sadıqov, Məcid və Şəmsəddin Axundov qardaşlarını, həmçinin başqa adlarını çəkə bilmədiyim yüzlərlə alimləri göstərmək olar. 1980-ci illərdə, kəndin əhalisi artdığı üçün artıq yeni bir məktəbin tikilməsinə ehtiyac yarandı və təzə məktəb inşa edilib istifadəyə verildi. Köhnə məktəblə yeni məktəb arasında 2 kilometr məsafə var".

**F.Mahmudov bildirir ki, 2016-cı ildə köhnə məktəbin bir qrup müəllimi, məktəbin təmir olunması ilə əlaqədar Təhsil Nazirliyinə müraciət edir. Müəllifin iddiasına görə, bundan sonra köhnə məktəbin bağlanması gündəmə gəlib:** “Məktəbdə 65 müəllim 320 şagirdə dərs deyir. Onu da qeyd edək ki, 2016-cı ilin məzunlarından 11 nəfəri yüksək balla ali məktəblərə qəbul olunub.

Təzə məktəb kəndin bir başqa tərəfindədir ki, ora ilə kəndin başqa tərəfi arasında 4 kilometr məsafə var. 6-7 yaşlı uşaqlar soyuqda, istidə bu yolu necə gedib-gələ bilərlər?! Sahibsiz itlər, sürətli maşınlar onlar üçün təhlükə deyilmi?!

Bu məktəbin bağlanması üçün qərar verənlərin öz balalarına qarşı belə hərəkət etsələr, xoşlarına gələrmi?! Məktəb həm də Qarabağ döyüşlərində şəhid olmuş Əmiraslanov Nağı Həsən oğlunun adını daşıyır. Bu yersiz qərar həm də şəhidimizin ruhuna hörmətsizlikdir".

**F.Mahmudov sonda yazır:** “Əminəm ki, nazirlik kəndin coğrafi və iqtisadi vəziyyətini dərindən öyrənib, bu qərarına yenidən baxacaq və həmin məktəbi təmir etdirib, xalqın istifadəsinə verəcək”.

**Məsələ ilə bağlı Təhsil Nazirliyinin mətbuat xidmətinin rəhbəri Cəsarət Valehov “Yeni Müsavat”a deyib ki, Tikinti və Təchizat İdarəsi ilə əlaqə saxlanılacaq:** “Onların da rəyini öyrənəcəyik. Bundan sonra dəqiq məlumat verəcəyik”.

❑ **Əli RAİS**




# Göyçayın baş baytarının bitib-tükənməyən qanunsuzluqları...

## Rayonda süd-qatıq satanlara qənim kəsilən Ağadadaş Hacıyevin leş ətlərə möhür vurduğu iddiası var - sensasion məlumatlar

**Göyçayın baş baytarı Ağadadaş Hacıyevin rayon bazarında təbii süd və süd məhsullarının satışını qadağan etməsi haqda yazmışdıq. Məmurun bu əməli rayonda qatıq, şor qıtlığı yaradıb, süd və süd məhsulları istehsal edən aztəminatlı ailələri yeganə gəlir mənbəyindən məhrum edib. Bu haqda xəbərlər ictimailəşəndən sonra baş baytarın hüquq-mühafizə orqanları tərəfindən araşdırılması zəruri olan fəaliyyəti barədə məlumatlar üzə çıxıb. Mətbuatda dərc olunmuş yazılarda iddia olunur ki, A.Hacıyev vəzifə səlahiyyətlərindən sui-istifadə edib öz şəxsi maraqlarına görə qanunsuz və qərəzli olaraq 15 il qanuni fəaliyyət göstərən, 3 ailənin yeganə qazanc yeri olan baytarlıq aptekini bağlatdırıb.**

Məmurun bu addımı təsadüfi deyilmiş. Onun Göyçay rayon ərazisində çoxlu sayda baytarlıq apteki var. Həmin apteklər hamısı tam qanunsuz fəaliyyət göstərir.

Ağadadaş Hacıyevin Orxan adlı oğlunun adı Göyçay rayon Baytarlıq Xidməti İdarəsində işçi kimi qeyd edilsə də, o, rayon mərkəzində baytarlıq apteki işlədir, ancaq onun baytar ixtisası yoxdur. Göyçay rayonu, Nizami küçəsi ərazisində yerləşən baytarlıq aptekini Nuru adlı qaynı işlədir ki, onun da baytarlıq ixtisası yoxdur. Göyçay rayonunda paltar bazarının yaxınlığındakı aptek də qanunsuz fəaliyyət göstərir. A.Hacıyevin qardaşı Qiyas Hacıyevə məxsus olan Göyçay rayonu R.Rza küçəsi və “kolxoz bazarı” ərazisində yerləşən baytarlıq apteklərində də baytarlıq ixtisası olmayan şəxslər işləyir ki, bu ciddi qanun pozuntusudur, saxtakarlıqdır.

Ulus.az xəbər verir ki, Qiyas Hacıyevə məxsus Ucar rayonu Müsüslü kəndində yerləşən quşçuluq broylerində antisanitariya, qanunsuzluq baş alıb gedir. A.Hacıyevin Rahim adlı qaynına məxsus Göyçay rayonunda qırmızı körpünün yaxınlığındakı ət kombinatında xəstə mal-qara kəsilərək birbaşa satış nöqtələrinə gətirilir və möhür də bazarda vurulur. Hansı ki, qanuna əsasən mal-qara kəsilərkən elə oradaca lobarator analiz edilib, möhür vurulub sonra satış nöqtələrinə paylanmalıdır.

“Bütün bunlar Göyçay Rayon Baytarlıq Xidməti rəisinin vəzifə səlahiyyətlərindən sui-istifadə edib yaratdığı korrupsiya şəbəkəsinin nəticəsidir. O, Göyçay rayonunda baytarlıq xidmətini tam inhisarına alıb özbaşınalıqla, saxtakarlıqla məşğuldur ki, bu cinayət əməlidir.

A.Hacıyev Göyçay rayonunun mərkəzində, Qarabaqqal və Çayarxı kəndlərində möhtəşəm villaları, konyak zavodunun yaxınlığında böyük ticarət obyektini, İsmayıllı rayonunda 1000 başdan çox qoyun sürüsü olan fermasını, 100 hektarlarla torpaq sahələrinin hamısını çirkli pullarla əldə edib" - deyə sayt yazır.

❑ **E.HÜSEYNOV**

***P.S*** *Qarşı tərəfi də dinləməyə, mövqeyini dərc etməyə hazırıq.*

# Məhkum 5-ci dəfə aclıq aksiyasına başladı

## Cüssəli Yan Raznobarski 53 kiloqrama qədər arıqlayıb...

**Barəsində Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 15 il 6 ay azadlıqdan məhrum etmə cəzası çıxarılan Yan Raznobarski saxlanıldığı Şüvələn qəsəbəsindəki 3 saylı İstintaq Təcridxanasında ölüm aclığı keçirir. Bu, təqsirləndirilənin keçirdiyi sayca 5-ci aclıq aksiyasıdır.**



Raznobarski 2015-ci ilin iyununda həbs edilərkən 100 kiloqrama yaxın çəkisi olub. Hazırda isə 53 kiloqrama qədər arıqlayıb. Onun həyat yoldaşı Sofiya Xaliman “Yeni Müsavat”a deyib ki, aclıq aksiyasının yeganə tələbi var - iş üzrə ədalətli araşdırma aparılsın.

Yan Raznobarskinin həbsinə səbəb 16 iyun 2015-ci ildə Suraxanı qəsəbəsindəki “Dostluq” kafesinin kabinetlərindən birində baş verən olaydır. Y.Raznobarski üzərindəki silahdan atəş açıb və Murad Seyidov ayağından yaralanıb. O, M.Seyidovu Sabunçudakı 3 saylı xəstəxanaya aparıb və oradaca hüquq-mühafizə orqanlarına təslim olub.

Söhbətin məğzi isə budur ki, 2 övlad atası olan, mənzil, villa, bağ evlərinin tikintisi ilə məşğul olan Y.Raznobarskinin maddi durumu 2014-cü ilin ortalarında çətinləşib. Həmin ilin iyununda Əmircan qəsəbəsindəki mənzilini satıb. Borclarını ödəyəndən sonra qalan pulu - 25 min dolları Xaliq Cəfərova, Məryəm Cəfərovaya və Namiq Əliyevə verib. Əvəzində isə bu şəxslər ona bankdan külli miqdarda kredit vəd ediblər. Bu şəxslər, xüsusən X.Cəfərov özünü nazirlərdən birinin qohumu kimi təqdim edib. 15 min manatı Y.Raznobarskidən Məryəm Cəfərova alıb. Qalanlarını da digər iki şəxsə verib ki, onlar ona ipoteka krediti ayrılmasına kömək etsinlər. Amma bu adamlar pulu götürsələr də, vədlərinə xilaf çıxıblar. Raznobarski hüquq-mühafizə orqanlarına müraciət edib. Onun həyat yoldaşı deyir ki, ərizə araşdırılmamış qalıb. 25 min dolları verdikləri şəxslərdən ala bilmirlər...

Y.Raznobarski əlində olan pula M.Seyidovdan köhnə bir ev alıb. Evin dəyərinin bir hissəsini - 20 min dolları Murad Seyidova ödəyib, ona 25 min 500 manat borclu qalıb. Lakin Yan maddi durumunun pis olduğunu görüb və evi geri qaytarmaq istəyib. Lakin Murad Seyidov deyib ki, narahat olma, mən nə qədər desən gözləyəcəyəm, pulu verərsən. Ev təmirsiz olduğundan Yan Raznobarski ailəsi ilə birgə kirayədə yaşamağa başlayıb. Lakin 2014-cü ilin sentyabrında həmin ev qısaqapanmadan yanıb. Evin 25 min manat sığortası olub. “Xalq sığorta” sığorta şirkəti pulun yarısını 5 min 700 manatını ödəyib. Əlindəki pula evi söküb yenidən tikməyə başlayıb. Evin olduğu torpağın alqı-satqısı üzrə sənədlər Yan Raznobaskinin ögey qızı Məryəm Əzimova ilə Tahirə Seyidova arasında bağlandığından sonrakı bütün müqavilələr də onların arasında olub. Buna görə də M.Əzimova ilə T.Seyidova arasında evin tikilərək satılması və əldə olunan pulun 40 min 500 manat sonuncuya ödənilməsi haqda razılıq əldə ediblər. Y.Raznobarski ilə M.Seyidovun bütün söhbətlərində onları tanış edən dəllallar - Elnur və Nahid iştirak ediblər.

Y.Raznobarski 7 otaqlı evin divarlarını tikib dama çatanda Suraxanı Rayon İcra Hakimiyyətindən gəlib işi dayandırıblar. 2014-cü ilin mayından 2015-ci ilin martına qədər tərəflər arasında münasibətlər müqavilə üzrə tənzimlənib. Lakin Y.Raznobarskinin gəlirləri olmadığından o vəziyyətdən çıxa bilməyib və müqavilə şərtlərinə də müvafiq olaraq əməl edə bilməyib. 2015-ci ilin martında M.Seyidov deyib ki, pulun qalan hissəsini təcili ödə, evin sahibləri mənim həyat yoldaşımın bacılarıdır. Qaytarmasan, səni məhkəməyə verəcəklər. Y.Raznobarski isə M.Seyidova deyib ki, gəl evi yarımçıq tikilmiş vəziyyətdə sataq, ilkin razılıq şərtində olduğu kimi 25 min 500 manatı ödəyim. Amma Seyidov təkliflə razılaşmayıb. Tələb edib ki, evi həyat yoldaşı Tahirə Seyidovanın adına keçirsin. Y.Raznobarski növbəti dəfə ondan 2015-ci ilin iyununa qədər vaxt istəyib. Raznobarskinin pulunun olmadığını bilən dəllallar Elnur və Nahid Natiq adlı şəxsə təklif ediblər ki, 30 min ödəyib evin tikintisini yekunlaşdırsınlar. Ev satılandan sonra isə ona 39 min manat pul verilsin.

Bu təklif M.Seyidovun iştirakı ilə Elnur, Nahid, Natiq və Y.Raznobarski ilə müzakirə edilərək razılıq əldə olunub. Növbəti gün notariusa gedib razılığı rəsmiləşdirməyi qərarlaşdırıblar. Amma həmin gün M.Seyidov yoldaşını özü ilə gətirib və nəticədə razılaşma pozulub. Sonradan Y.Raznobarski M.Seyidovun evinə gedib deyib ki, imkan verin evi tikib sataq. Əvvəlcə razılıq verilsə də, sonradan razılıqdan yenidən əl çəkiblər. Hadisə baş verən gün Y.Raznobrski Murad Seyidovu kafeyə çağırıb və onu qorxutmaq istəyib ki, qadınlarsız onunla danışsın. Kafedə kabinetdə silahı Murada göstərib, deyib ki, kişi kimi özü razılıq verdiyi sözü tutsun...

**S.Xaliman deyir ki, həyat yoldaşının işi üzrə Bakı Ağır Cinayətlər Məhkəməsində keçirilən prosesdə hakim Eynulla Vəliyev işə obyektiv yanaşmayıb, Y.Raznobarskiyə son söz deməyə belə imkan vermədən barəsində son dərəcə ağır bir hökm çıxarıb. Qadının sözlərinə görə, iş hazırda Bakı Apelyasiya Məhkəməsindədir.**

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT

Son səhifə

N 113 (6727) 27 may 2017



## Ağlayan körpəni susdurmağın elmi yolu

**İnsanlığın başlanğıcından bəri ağlayan uşaqları susdurmaq valideynlər üçün ən böyük problem olub. Zaman keçdikcə hərə öz uşağına və özünə uyğun bir texnika seçərək, bu işin öhdəsindən gəlib. Kaliforniyanın Santa Monika şəhərindəki uşaq xəstəlikləri mütəxəssisi, həkim Robert Hamilton bildiyimiz hər şeyi unutduracaq bir texnika ilə bütün uşaqları susdurur.**

30 illik uşaq həkimi təcrübəsi olan həkim Robert Hamilton hesab edir ki, uşaqlar doğru formada tutularsa, ağlamağı kəsərlər. Hamilton çox kiçik bir toxunuşla ağlayan bütün uşaqları susdurur. Həkim Hamilton 30 ildir bu peşəni icra edir və yeni doğulan uşaqlar məsələsində çox həssasdır. Ağlayan körpələri susdurmaq üçün inkişaf etdirdiyi üsulu isə "The Hold", yəni "tutuş" adlandırır. Həkim Hamilton öncə körpənin sağ qolunu onun sinəsinə doğru qıvxırır. Daha sonra digər qolunu sıxır və bir əli ilə körpənin hər iki qolunu sinəsinə çatacaq şəkildə, boynunun tam altından tutur. Və son olaraq körpənin yançaq qismindən xəfifcə sallayaraq, ağlayan bütün körpələri susdurur.

# Yaponlar yatmırlar, "inemuri" edirlər



**Yaponların ilginc həyat tərzlərinin daha bir detalı üzə çıxıb. BBC-nin xəbərinə görə, yaponlarda gündəlik həyat çox dinamik və gərgin olduğu üçün yatmağa vaxtları qalmır. Bu səbəbdən də onlar adına "inemuri" deyilən davranışa xüsusi fikir verirlər. "İnemuri" ictimai yerlərdə, qatarlarda, iş iclaslarında, məktəbdə və digər yerlərdə yuxulama mənasına gəlir. Qadın, kişi, uşaq harda olur-olsun istədikləri vaxt bir az mürgüləyirlər. Bütün Yaponiyada bu davranış olduqca normal qarşılanır. Buna səbəb isə onların "inemuri"ni gecə yuxusu və ya günorta istirahət vaxtı olan yuxu kimi qəbul etməmələridir. "İnemuri"nin tərcüməsi "orda olmaq" və yatmaq mənalarında işlənir. Yəni harada olursunuzsa olun, vəziyyətə təsir etmirsinizsə, "İnemuri"nin problemi yoxdur - bir az da olsa yuxulaya bilərsiniz.**

# Bu qadın dəmir yolu stansiyasına ərə gedib

**Amerikanın Kaliforniya ştatının San Dieqi şəhərində yaşayan 45 yaşlı Kerol Santa Fe adlı qadın iddia edir ki, o, Santa Fe dəmir yolu stansiyası ilə nikah bağlayıb. Qadının sözlərinə görə, o, bu binaya ta uşaqlıqdan bəri aşiq olsa da, cəmi bir il öncə onunla evlənə bilib: "Mən binanın qabağında dayandım və elan etdim ki, onu ərim olaraq qəbul edirəm. Bu, bizim həyatımızdakı ən xoşbəxt an idi".**

Görüş saatlarında Kerol stansiyaya gedir və onunla birgə olmaqdan zövq alır: "Mən ona toxunanda mənə elə gəlir ki, o, gerçəkdən də mənim əllərimdən tutub və məni öpür".

Qadın çalışır ki, kənar şəxslər onun nə etdiyindən xəbərdar olmasınlar: "Mən stansiyaya olan bağlılığımı gizlətməyə çalışıram. Çünki insanların bundan xəbər tutub, mənə stansiya ilə görüşü qadağan etmələrini istəmirəm".

Alimlər isə sübut edib ki, bu və ya digər obyektə olan bağlılığı ilə seçilən insanlar obyektfiliyadan əziyyət çəkirlər. Məsələn, 1979-cu ildə İsveç sakini Eklof Berliner Mauer özünü Berlin divarının həyat yoldaşı hesab edirdi. Amerikan Erik Labri isə 2007-ci ildə Eyfel qülləsi ilə qeyri-rəsmi nikaha girdi.



## Oğru maşınını qaçırmaq istədi, özünü maşının üstünə atdı

**Amerikanın Viksonsin ştatının sakini maşınının oğurlandığını görərək onun "kapotuna" hoppanıb. Bu detalla bağlı videoyazı ABC News kanalında, 25 mayda yayılıb. Telekanalın informasiyasına görə, 28 yaşlı Melissa Smit həmin məqamda maşınına yanacaq doldururdu. Həmin vaxt naməlum bir kişi sakitcə onun maşınına minərək, ordan uzaqlaşmaq istəyib. Amma qadın özünü maşının üstünə atdığı üçün oğru ətrafı görə və hadisə yerindən uzaqlaşa bilməyib. Odur ki, maşını dayandıran oğru onun içərisindən sahibəsinin çantasını götürərək uzaqlaşıb. Xəbərdə qeyd olunur ki, nəticədə Smit o qədər də ciddi travmalar almayıb. Hazırda polis maşın oğurluğuna cəhd edən şəxsin yaxalanması üçün lazımi əməliyyat tədbirləri keçirir.**

## Qoroskop




**QOÇ - Pulla bağlı problemləriniz olsa da, qalan məsələlərdə ovqatınız xoş olacaq. Xüsusən də münasibətlər zəminində cərəyan edənlərdən rahatlıq tapacaqsınız. Uzaq yola çıxmayın.**

**BUĞA - Havaların istiləşməsi sizə mənfi təsir göstərməkdədir. Odur ki, var gücünüzlə sağlamlığınızı qoruyun. Nahardan sonra şəxsi işlərinizdə böyük dəyişikliklər mümkündür.**

**ƏKİZLƏR - Yaxşı olar ki, bürcünüzün "hakim" olduğu bu ərəfədə hisslərinizi cilovlayasınız. Əks təqdirdə arzulamadığınız qalmaqala tuş gələcəksiniz. Yeni əlaqələr uğurdan xəbər verir.**

**XƏRÇƏNG - Ulduzların düzümü səfərə çıxmaq üçün münasib vaxt olduğunu bildirir. Maddi durumunuz imkan verirsə, bundan imtina etməyin. Ətrafınızda olan insanları real qiymətləndirməkdə yanılmayın.**

**ŞİR - İxtiyarınızda olan bu təqvim sizə düşərli olacaq. Çünki ulduzlar xoş ovqat və qazanc əldə edəcəyinizi bildirir. Oturaq işlərə çox da həvəs göstərməyin. Aktivliyinizi artırın.**

**QIZ - Günün təhərindən asılı olmayaraq özünüzü bütünlüklə fəaliyyətə həsr etməlisiniz. Münasibət və alqı-satqı məsələlərinə isə həvəs göstərməyiniz məqsədəuyğun deyil. Axşam işgüzar söhbətlər aparmaq sizə səmərə verəcək.**

**TƏRƏZİ - İxtiyarınızda olan bu bazar günündə heç bir narahatçılığınız gözlənilmir. İşgüzar sövdələşmələrdə iştirak etsəniz, iyunun gəlişinə qədər hansısa probleminiz yaranmayacaq. Pulla bağlı ehtiyatlı olun.**

**ƏQRƏB - Özünüzü lovğa və ya təkəbbürlü aparmayın. Bu gün sizə sadə görünmək lazımdır. Bu yolla özünüzə qarşı rəğbət oyada bilərsiniz. Günortadan sonra qarşınıza yaxşı adamlar çıxacaq.**

**OXATAN - Bəri başdan nəzərinizə çatdıraq ki, bu gün başlıca vəzifəniz sağlamlığınızı qorumaq olmalıdır. Digər məsələlərə isə ciddi yanaşmağa ehtiyac yoxdur. Əsas gücünüzü istirahətə verin.**

**OĞLAQ - İkitərəfli əməkdaşlıq çox uğurludur. Artıq adamlar planlarınızı poza bilər. Tanınmış şəxslərlə əlaqələrinizi dərinləşdirin. Günün ikinci yarısında yeni simalarla görüşləriniz mümkündür.**

**SUTÖKƏN - Təzadlı bir gün yaşayacaqsınız. Ətrafınızda cərəyan edən situasiyalar gah müsbət, gah da mənfi istiqamətə yönələ bilər. Belə məqamlarda dostlarınızla birgə olmağa çalışın.**

**BALIQLAR - Sürprizlərlə dolu bir gün yaşayacağınız güman olunur. Ola bilsin ki, bu təqvim taleyinizin ən yaddaqalan tarixinə çevrilsin. Hər cəhətdən buna hazırlaşın. Soyuqqanlı olun.**

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Qadın makiyajsız olanda qorxur



**İsveçrəli alimlərin araşdırmasına görə, qadınların həddindən artıq makiyajdan istifadəsi kişiləri onlardan uzaqlaşdırır. Araşdırma çərivəsindəki sorğuda iştirak edən kişilər kosmetik vasitələrdən 40% az istifadə edənlərə üstünlük verdiklərini deyiblər. Psixoloqlar kişilərin sosial şəbəkələrdəki makiyajsız qadın fotolarına verdikləri reaksiyalara görə bu qənaətə gəliblər. Alimlərin gəldiyi qənaətə görə, qadınların 80%-i öz xarici görünüşlərindən o dərəcədə narahatdırlar ki, yeni sevgilinin qarşısına makiyajsız çıxmaq üçün minimum bir ay gözləyirlər.**

Hətta hər üç qadından biri azacıq da olsa üzünə əl gəzdirmək məqsədilə yuxudan sevgililərindən tez oyanırlar. 60% qadın isə yeni sevgilisi ilə yatağa girdikdə ümumiyyətlə üzlərindəki kosmetikanı yumurlar. 20% qadın isə kavalerlə keçirdiyi ilk gecədə makiyajı yeniləyir.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100